**Xalqımızın ümummilli lideri**
**əbədiyaşar**
**HEYDƏR ƏLİYEVİN**
**əziz və unudulmaz xatirəsinə ithaf olunur**

***Bizim borcumuz böyük***

***sənətkarlarımıza layiqli qiymət vermək,***

***onları ğələcək nəsillərə də çatdırmaqdır.***

***Heydər ƏLİYEV***



Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi

Hacı ZAMİQ ƏLİYEV

# HEYDƏR ƏLİYEV

## SƏHNƏARXASI GÖRÜŞLƏR

Bakı 2008

**Rəyçilər:** **Fuad Qasımzadə**
**akademik, əməkdar elm xadimi**
**Timurçin Əfəndiyev**
**professor, əməkdar incəsənət xadimi**
**Siyavuş Kərimi**
**professor, xalq atisti**

**Redaktor:** **Maarif Soltan**

Kitabda dünya şöhrətli siyasətçi, xalqımızın ümummilli lideri, ədəbiyyat və sənət adamlarımızın böyük dostu və xeyirxahı milli lider Heydər Əliyevin müxtəlif tədbirlərdə sənət adamları ilə görüşlərindən, onlara göstərdiyi qayğı və diqqətdən söhbət açılır. Eyni zamanda bir sıra sənət adamlarının Heydər Əliyev haqqında xatirələri və ürək sözləri kitabda öz əksini tapmışdır.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**ISBN 978-9952-440-27-0**

**© UniPrint, 2008**

## ÖN SÖZ ƏVƏZİ

- 1997-ci ildə mən, kaman ifaçısı Ədalət Vəzirov və yetirməm Simarə İmanova "Şərq təranələri" Beynəlxalq festivalında 45-ə yaxın ölkə arasında ən ali - "Qran Pri" mükafatına layiq görüldük. Bu ölkə rəhbəri H.Əliyevin də diqqətindən yayınmadı və üçümüzə də "Əməkdar artist" adı verildi. Gülüstan sarayında keçirilən ziyafətlərin birində H.Əliyev bizim "Şərq Bülbülü" muğam üçlüyümüzün üzvləri ilə görüşüb sevincini bizimlə bölüşdü:

- Sizin 45-ə yaxın dövlət içərisində ən ali mükafata layiq görülməyiniz məni sevindirdi. Uğurımuz, qələbəniz barədə mənə Səmərqənddən xəbər verdilər. Əgər "Qran Pri" yox, 1-ci yeri tutsaydınız, mən sizi respublikaya buraxdırmayacaqdım. Gənc ifaçının ustadı ilə bərabər belə uğur qazanması, əzəmətli sənət uğuru, Azərbaycanın uğurudur.

Prezident H.Əliyevin Gürcüstana rəsmi səfərində bizim üçlük də var idi. H.Əliyev S.İmanovanın çıxışını olduqca bəyəndiyini söyləyib ünvanına təriflər yağdıranda özümü saxlaya bilməyib dilaltı dedim:

- Elə biz də pis çalmadıq, babat çaldıq.

Nə demək istədiyimi o dəqiqə hiss edən prezident dönüb üzümə baxaraq gülə-gülə dedi:

- Siz babat yox, nabat çaldınız.

Bu xoş sözlər bizim "Şərq Bülbülü" muğam üçlüyünü sevindirir, sənət ruhu verirdi. "Manas"ın yubiley tədbirləri dünyanın bir çox ölkələrində yüksək səviyyədə qeyd olunurdu. Növbəti yubiley İranda keçirildi, bizim muğam üçlüyüdə həmin tədbirdə 15 dəqiqə çıxış etməli idi. İfamız H.Əliyevin o dərəcə xoşuna gəlmişdi ki, aşağıdakı sözləri etiraf etmişdi:

Belə gözəl musiqiçiləri qoyub heç bir yana, heç bir görüşə getmək istəmirəm. Siz bu gün məni həmişə olduğu kimi heyrətləndirdiniz. Mən hiss etdim ki, axırda siz mənə görə ayağa qalxıb baş əydiniz. Bilirdiniz ki, digər görüşlərim də var, ona



görə 15 dəqiqə nəzərdə tutulan çıxışınızı 45 dəqiqənin tamamında başa vurmalı oldunuz. Etiraf edim ki, mən sizlərdən doymadım...

Növbəti görüşlərimizin birində mən H.Əliyevə okeanın o tayında yaşayan sənətkar Cefri Verbakı qəbul edib sənəti ilə maraqlanmasına görə təşəkkürümü bildirmək məqsədilə nəzərdə tutulmayan çıxışımla müraciət etdim:

- Hörmətli prezident, mən Sizə təşəkkür etmək istəyirəm.

O duruxdu, nə üçün təşəkkür edəcəyimlə maraqlandı.

- Cefri mənə dedi ki, siz xoşbəxt xalqsınız ki, belə rəhbəriniz var. O milli musiqinizi, onun tarixini gözəl və mükəmməl bilir.

H.Əliyev sözümü kəsərək:

- Elə mənim üçün də maraqlı idi ki, görək okeanın o tayında yaşayan musiqiçi muğamlarımızı, xalq çalğı alətlərimizi necə bilir, necə ifa edir.

Mən də dedim ki, Cefri, bizim prezident gənc yaşlarında tar da çalıb.

H.Əliyev təəccüb, bir qədər də sevincək:

- Sən bunu haradan bilirsən ki, mən tar çala bilirəm - deyib həqiqəti etiraf etdi.

Bəli, H.Əliyev sanki bir musiqişünas, tənqidçi idi. O, ədəbiyyat, balet, opera, xoreoqrafiya, kinemotoqrafiya, teatr,

kino, muğam, musiqi tariximizi gözəl bilirdi və bu yolda onun parlaq yaddaşı və dəqiq məntiqi ətrafmdakıları heyrətləndirirdi.

Heydər Əliyev elə fenomenal şəxsiyyətdir ki, onun haqqında nə qədər yazılsa da, nə qədər deyilsə də, onun sözlə, fırçayla bütöv portretini yaratmaq, onu olduğu kimi göstərmək mümkünsüz bir işdir və ustalıqla yazılmış ən böyük kitablar belə onun böyük obrazının xırda detalları, ayrı-ayrı fraqmentləri ola bilər. Yaxından baxanda büyük dağları tam əzəmətiylə görmək mümkün olmadığı kimi bizlər - onun müasirləri də onun nəhəngliyini bəlkə də tam görə bilinir, dərk edə bilmirik. İllər ötdükcə, zamanlar keçdikcə, memarı olduğu Azərbaycan qüdrətləndikcə gələcək nəsillər bu böyük şəxsiyyətin əzəmətli obrazını daha dolğunluğu ilə görəcəklər. Bizim o böyük portretə xırda ştrixlər əlavə etmək cəhdlərimiz də məhz buna hesablanıb.

Bir təsəllimiz var ki, biz onunla çağdaş olmuşuq, əlini sıxmışıq, xoş sözlərini eşitmişik, həmişə qayğı və diqqətini görmüşük. Gərgin iş rejimində, böyük siyasətdən vaxt ayırıb sənət adamlarının yubileylərində iştirak edərdi, çıxışlar edərdi, hələ bu azmış kimi tədbirlərdən sonra səhnə arxasına keçib sənətçilərlə canlı ünsiyyət yaradardı, onların qayğıları ilə maraqlanardı.

Bəli, əziz oxucu! Bu kitabı yazmaqla o böyük şəxsiyyətlə - Heydər Əliyevlə səhnə arxasındakı görüşlərimizin müəyyən məqamlarını diqqətinizə çatdırmaq niyyətindəyik. Mən sənətçiyəm, qarşıma məqsəd qoymamışam ki, nəsə qeyri-adi akademik bir kitab hazırlayım. Yox, istəsəm də bunu edə bilmərəm, sadəcə, əlimdə olan materialları, şahidi olduğum məqamları yazıb toplamaq qərarına gəldim.Yuxarıda dediyim kimi Heydər Əliyevin böyük portretinə xırda ştrixlər əlavə etməyə cəhd göstərdim.

Hörmətlə,

**Hacı Zamiq Əliyev,**
*Xalq artisti, dosent*

## ƏN ÇOX SEVİLƏNİN SEVDİKLƏRİ

**Ən çox sevdiyiniz şer?**
Səməd Vurğunun “Azərbaycan” şeri.

**Ən çox sevdiyiniz şair?**
Şəhriyar.

**Ən çox sevdiyiniz mahnı?**
Xalq mahnıları və Tofiq Quliyevin mahnıları.

**Ən çox sevdiyiniz insan?**
Zərifə xanım.

**Ən çox sevdiyiniz bəstəkar?**
Üzeyir Hacıbəyov.

**Ən çox sevdiyiniz pyes?**
Cəlil Məmmədquluzadənin “Ölülər”pyesi.

**Ən çox sevdiyiniz dramaturq?**
Hüseyn Cavid.

**Ən çox sevdiyiniz sənət əsəri?**
Səttar Bəhlulzadənin “Muğan gözəlləri”.

**Ən çox sevdiyiniz sənət növü?**
Miniatür.

**Ən çox sevdiyiniz sənətkar?**
Ömər Eldarov.

**Ən çox sevdiyiniz içki?**
Çay, səhərlər südlə.

**Ən çox seçdiyiniz gül?**
Qızılgül.

**Ən çox sevdiyiniz rəng?**
Zoğalı rəng.

**Ən çox sevdiyiniz idman növü?**
Yüngül atletika və üzgüçülük.

**Ən çox sevdiyiniz insani xüsusiyyət?**
Mərdlik.

**Ən çox sevdiyiniz şəhər?**
Bakı.

**Ən çox sevdiyiniz mövsüm?**
Yaz.

**Ən çox sevdiyiniz qələm növü?**
Mürəkkəblə yazan qələm.

**Ən çox sevdiyiniz rəqəm?**
7.

**Ən çox sevdiyiniz bayram?**
Novruz bayramı.

**Ən çox sevdiyiniz jurnal?**
"Molla Nəsrəddin".

**AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV «KİTABİ-DƏDƏ QORQUD» DASTANININ 1300 İLLİYİNƏ HƏSR OLUNMUŞ YUBİLEYİN BƏDİİ HİSSƏSİNDƏ**



...Azərbaycan xalqının, bütün türk xalqlarının tarixi abidəsi, mədəniyyət abidəsi, elm abidəsi, fəlsəfə abidəsi olan «Kitabi - Dədə Qorqud»un 1300 illik yubileyini qeyd etmək, deyə bilərəm ki, Azərbaycanın çoxəsrlik tarixində indiyə qədər bizim qeyd etdiyimiz bayramların, yubileylərin hamısından üstündür. Biz bundan nəyə nail olduq? Son üç il müddətində Azərbaycanda indiyə qədər heç vaxtlar olmadığı kimi, «Kitabi - Dədə Qorqud»un tədqiqinə, təhlilinə, onun mənasının və məzmununun dərindən öyrənilməsinə, böyük əsərlərin yaranmasına və ən əsası isə «Kitabi - Dədə Qorqud»un bizim xalqımıza - Azərbaycan xalqına yenidən qayıtmasına nail olduq. «Kitabi - Dədə Qorqud»un 1300 il yaşı olduğunu bütün dünyaya bəyan etdik. Tarixdə nəinki Azərbaycan tarixində, dünya tarixində «Kitabi - Dədə Qorqud»un yaşı dəqiq, düzgün müəyyən olundu.

«Kitabi - Dədə Qorqud»u dünyaya tanıtdıq. YUNESKO çərçivəsində «Kitabi - Dədə Qorqud»un yubiley mərasimlərinin keçirilməsi, Drezdendə, Moskvada, Türkiyənin bir çox şəhərlərində, başqa yerlərdə «Kitabi Dədə Qorqud»un 1300 illik yubileyinin keçirilməsi və bununla bərabər yaranmış əsərlər,

üç il müddətində «Kitabi - Dədə Qorqud»un təbliğ olunması «Kitabi - Dədə Qorqud» dastanını bütün dünyaya tanıtdı.

Biz fəxr edirik ki, «Kitabi - Dədə Qorqud» kimi böyük tarixi abidəmiz var. Biz fəxr edirik ki, Dədə Qorqud övladlarıyıq. Biz fəxr edirik ki, «Kitabi - Dədə Qorqud» bütün türkdilli dövlətlərə mənsub olaraq, eyni zamanda və birinci növbədə Azərbaycan xalqına mənsubdur. Fəxr edirəm ki, biz «Kitabi - Dədə Qorqud»un sahibiyik, onu yaşadacağıq və gələcək nəsillərə daha da böyük töhfələrlə verəcəyik.

Bu gün bayram mərasimləri ən zirvə nöqtəsinə çatdı. Amma bizim «Kitabi-Dədə Qorqud» dastanının öyrənilməsi, təbliğ, tədqiq olunması işimiz bununla bitmir. Bu bizim işimizin ancaq başlanğıcıdır. Son üç ildə görülən işləri mən çox yüksək qiymətləndirirəm və bu münasibətlə yaranmış dövlət komissiyasının üzvlərinə və «Kitabi - Dədə Qorqud» yubileyinin hazırlanması dövründə fəaliyyət göstərmiş hər bir vətəndaşımıza, alimlərimizə, ziyalılarımıza, yazıçılarımıza, incəsənət, mədəniyyət xadimlərimizə dərin təşəkkürümü bildirirəm.

«Kitabi - Dədə Qorqud» dastanının yubiley mərasimlərində iştirak etmiş qardaş türkdilli dövlətlərin dövlət başçılarına, nümayəndə heyətlərinin üzvlərinə bir daha öz təşəkkürümü bildirirəm. Bizim dəvətimizi qəbul etmiş və «Kitabi - Dədə Qorqud» yubileyinə gəlmiş hörmətli qonaqlarımızı - qorqudşünasları, alimləri, yazıçıları, ictimai - siyasi xadimləri səmimi qəlbdən salamlayıram və bizimlə bərabər olduqlarına görə onlara minnətdarlığımı bildirirəm.

Hesab edirəm ki, bu gün «Dədə Qorqud» yubileyinin, təntənəli bayram mərasimlərinin keçirilməsi çox yüksək səviyyədə oldu, hamımızda böyük ruh yüksəkliyi yaratdı və bunun üçün zəhmət çəkmiş, iş görmüş insanların hamısına təşəkkür edirəm.

Yubiley mərasiminin bugünkü rəsmi hissəsi çox məzmunlu və çox maraqlı oldu. Qonaqlarımız - dövlət başçıları, məclis başçıları çox dəyərli çıxışlar etdilər. Amma bununla bərabər, «Dədə Qorqud» yubileyini qeyd etmək üçün bizim mədəniyyət, incəsənət xadimləri tərəfindən hazırlanmış, xüsusi mövzu üzərində qurulmuş bədii hissə də çox yüksək qiymətə layiqdir. Türk tarixini, türk mədənyyətini, türk dilini çox gözəl bilən Azərbaycan xalqının çox böyük dostu, Prezident Süleyman Dəmirəl mənimlə yan-yana oturmuşdu və bədii hissəni əvvəldən axıra qədər maraqla izlədi, ona çox yüksək qiymət verdi, çox heyran olduğunu bildirdi. Təbiidir ki, bu, bizim özümüzünküdür, mənim dediyim sözlər, ola bilər, subyektiv xarakter daşısın, ancaq həqiqət bu gün «Dədə Qorqud» yubileyinin bədii hissəsi Azərbaycan mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, musiqi, balet, rəqs sənətlərinin nə qədər yüksək səviyyədə olduğunu əyani surətdə göstərdi.

Bədii hissəni hazırlamış və bu gün bizə təqdim etmiş Azərbaycanın dəyərli mədəniyyət, incəsənət xadimlərinə bu gözəl əsər üçün xüsusi minnətdarlığımı bildirirəm.

## DAHİ SƏNƏTKAR RƏŞİD BEHBUDOVUN XATİRƏ GECƏSİNDƏ



Respublika sarayında dahi sənətkar, bənzərsiz mahnı ustası, SSRİ xalq artisti Rəşid Behbudovun xatirə gecəsi keçirilmişdir.

Azərbaycan prezidenti Heydər Əliyev gecədə iştirak etmək uçün saraya gəldi. Salona toplaşanlar dövlətimizin başçısını gurultulu alqışlarla qarşıladılar.

Mehriban Əliyevanın rəhbərlik etdiyi "Azərbaycan mədəniyyətinin dostları fondu" tərəfindən təşkil olunmuş gecə "Arşın mal alan" filmindən kadrların nümayişi ilə başlandı, Rəşid Behbudovun ifasında Əsgərin ariyası - Üzeyir Hacıbəyovun ölməz musiqisi səsləndi.

- Əziz dostlar!

Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar!

Müstəqil Azərbaycanın onuncu ildönümü münasibətilə keçirilən bayram mərasimləri sırasında Azərbaycanın böyük oğlu, dahi sənətkar Rəşid Behbudovun xatirə gecəsinin gözəl, təntənəli şəraitdə keçirilməsi qədim tarixə malik Azərbaycan xalqının nə qədər zəngin mədəniyyətə malik olduğunu və dünya mədəniyyəti xəzinəsinə necə böyük şəxsiyyətlər verdiyini nümayiş etdirir.

Rəşid Behbudov nadir bir insandır, nadir şəxsiyyətdir. Azərbaycan mədəniyyəti tarixində bənzərsiz bir incəsənət ustasıdır. Bizim tədqiqatçılar Rəşid Behbudovun yaradıcılığı, onun qoyduğu irs haqqında indiyə qədər kitablar yazıblar, bundan sonra da yazacaqlar. Hesab edirəm ki, XX əsrdə Azərbaycan mədəniyyətinin inkişaf etməsində onun böyük xidmətləri olduğu zaman getdikcə daha da dərindən dərk olunacaqdır. Ancaq bugünkü xatirə gecəsi Azərbaycan xalqının, müstəqil, azad Azərbaycanın Rəşid Behbudov yaradıcılığına verdiyi daha bir qiymətdir.

Rəşid Behbudov öz təkraredilməz, məlahətli səsi ilə? xarici görünüşü ilə, artistlik istedadı ilə böyük musiqiçi və gözəl müğənni idi. Rəşid Behbudovun Azərbaycan mədəniyyətinə gəlməsinin bir neçə mərhələsi var. Onların hər biri bizim xalqımızın mədəniyyətini, musiqisini, mahnı sənətini, incəsənətini yüksəldib və onlara yeni-yeni forma vermişdir.

Mən Rəşid Behbudovu ilk dəfə 1943-cü ildə, ikinci dünya müharibəsinin o ağır dövründə Bakıda Zabitlər evində dinləmişəm. Ondan sonra mən Rəşid Behbudovun sənətinə, onun səsinə vurğunam və bütün ötən illər onun mahnıları, onun ifa etdiyi gözəl rollar, onun gözəl səsi məni həmişə heyran edibdir.

Rəşid Behbudov Azərbaycan səhnəsində ilk dəfə görünəndən dərhal sonra böyük hörmət və şöhrət qazandı. **Təbiidir ki, bunlar hamısı onun fitri istedadı ilə bağlı idi. Xalq dilində buna Allah vergisi deyirlər. Çünki bir adamda bu qədər gözəl xüsusiyyətlərin yüksək səviyyədə cəm olması həddən ziyada nadir bir hadisədir. Bunlara görə də Rəşid Behbudov Azərbaycan mədəniyyətinin ən dəyərli incilərindən biri kimi, xalqımızın tarixinə əbədi həkk olunubdur.**

Rəşid Behbudov mərhum Tofiq Quliyev ilə birlikdə Azərbaycanda ilk estrada mahnılarının yaradıcısı olubdur. Bilirsiniz ki, 40-cı illərdə artıq estrada musiqisi çox cazibədar olmuşdu. Ancaq bir çox hallarda bu, ümumi, trafaret xarakteri daşıyırdı. Ancaq Rəşid Behbudov özünəməxsus ustalığı ilə həm müasir estrada mahnılarını çox gözəl ifa edirdi, həm də Azərbaycan musiqi folklorundan, Azərbaycan xalq musiqisindən gözəl mahnıları götürüb onları müasirləşdirirdi və müasir estrada səviyyəsinə qaldırırdı. Yəni deyə bilərəm ki, Rəşid Behbudov Azərbaycanın xalq mahnıları ilə, musiqi folkloru ilə, müasir estrada mahnılarının Azərbaycan xüsusiyyətləri daşıyan sintezini yarada bilmişdir.

Hesab edirəm ki, bu, bizim musiqi tariximizdə, incəsənət tariximizdə xüsusi yer tutur. Xatırlaym, o, bizim qədim xalq mahnılarını elə müasirləşdirirdi, elə gözəl ifa edirdi ki, adam heyran qalırdı - bu, qədim xalq mahnısıdır, ya müasir estrada mahnısıdır. O, heç vaxt öz milli köklərindən ayrılmamışdır. Onun o dövrdə ifa etdiyi mahnıların hamısı milli xarakter daşımışdır. Azərbaycanın milli folklorundan, xalq dilindən gələn sözləri mahnılarında o qədər şirin, o qədər məharətlə ifa edirdi ki, adamı ikiqat, üçqat sevindirirdi, mənəvi zövq verirdi.

Bu gün burada, səhnədə bizim gözəl qızlarımız Rəşid Behbudovun daim oxuduğu "Ləbu-ləb" mahnısını çox yaxşı ifa etdilər. Amma Rəşid Behbudovun ifası tamamilə başqa idi. Mən nəyə fikir verdim? Rəşid Behbudov üslubuna. Məsələn, mahnılardan birində sözlər var: "İrəhmin gəlsin, nənə". Azərbaycan ədəbi dilində "rəhmin gəlsin" deyilir. Amma xalq lap keçmişdən "rəhmin gəlsin" əvəzinə, "irəhmin gəlsin" deyir. Yəni o, mahnıları müasirləşdirəndə onların xalqa xas olan xüsusiyyətlərini, ləzzətli məqamlarını heç vaxt itirmirdi. O, mahnını oxuyanda bilmirdin ki, qədim xalq mahnısı oxuyur, yaxud da müasir estrada mahnısı oxuyur. Ona görə də Rəşid Behbudovun bu sahədə yaradıcılığı,

hesab edirəm, Azərbaycan musiqi tarixində xüsusi yer tutur.

Rəşid Behbudov müğənni kimi, musiqiçi kimi çoxşaxəli bir insan idi. O, ilbəil öz üzərində işləyərək yaradıcılığını daim inkişaf etdirirdi, daim zənginləşdirirdi. Uzun illər onun musiqisinin pərəstişkarı olan bir şəxs kimi, indi bu salonda oturub bütün o dövrləri xatırlayanda mən düşünürəm ki, Rəşid Behbudov sənəti hər mərhələdə nə qədər inkişaf edirdi, irəli gedirdi.

Rəşid Behbudovun həyatında, sənət fəaliyyətində ən görkəmli yer tutan dahi Üzeyir Hacıbəyovun "Arşın mal alan" operettasının ekrana köçürülməsində ifa etdiyi Əsgər roludur. Məlumdur ki, Üzeyir Hacıbəyov "Arşın mal alan" əsərini XX əsrin əvvəllərində yazıbdır. Deyə bilərəm ki, o, bir əsrdir yaşayır, gələcək əsrlərdə də yaşayacaqdır. Çünki o qədər mənalı-məzmunlu, həm də gözəl musiqiyə malik olan bir əsərdir ki, heç vaxt öz aktuallığını itirmir və nə qədər təkrar olsa da, insanı, musiqi sevən, sənət sevən insanı heç vaxt yormur. Əksinə, hər dəfə insana sevinc gətirir, insana ilham verir.

"Arşın mal alan" operettası. Üzeyir Hacıbəyov onu yaradandan bəri daim Azərbaycan səhnəsində nümayiş etdirilibdir. Təkcə Azərbaycanda yox, tarixdən bilirəm ki, hətta bir neçə mərkəzi Asiya ölkələrində və bizə dilcə yaxın olan başqa ölkələrdə "Arşın mal alan" operettası səhnədə çox uğurla göstərilirdi. Ancaq dahi bəstəkar Üzeyir Hacıbəyovun, dahi müğənni Rəşid Behbudovun və Azərbaycanın çox böyük rejissorlarından biri Rza Təhmasibin hələ o ağır dövrdə, - 1944-cü ildə, müharibə qurtarmamışdı, - "Arşın mal alan"ı ekranlaşdırması və təbiidir, təkcə səhnədən ekrana keçirməsi yox, yeni quruluşda verməsi böyük bir hadisə idi. Səhv etmirəmsə, 1945-ci ildə bu film artıq işıq üzü gördü. Qısa bir müddətdə təkcə Azərbaycanı yox, demək olar ki, keçmiş SSRİ-nin bütün şəhərlərini, bölgələrini, respublikalarını fəth etdi.

Bir sənətkar kimi Rəşid Behbudovun xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, gözəl səsi ilə yanaşı, mahnının sözlərini də gözəl tələffüz etmək qabiliyyəti var idi. Bəzən mahnını oxuyurlar, sözlər bir-birilə toqquşur, qavramaq mümkün olmur. Amma Rəşid Behbudov, ümumiyyətlə, bütün mahnıları ifa edərkən, sözləri o qədər aydın, səlist, o qədər düzgün tələffüz edirdi ki, bu, onun sənətini daha da yüksəldirdi.

Ancaq bununla bərabər bir xüsusiyyəti də ondan ibarət idi ki, o, Azərbaycan dilini gözəl bilərək, eyni zamanda rus dilini də gözəl bilirdi. Ümumiyyətlə, onun başqa xalqların dillərində mahnılar ifa etmək qabiliyyəti, demək olar ki, dünyada heç bir sənətkara nəsib olmayıbdır.

"Arşın mal alan" filmi Azərbaycanda tarixi bir hadisə kimi meydana çıxdı. Ancaq əgər bu, təkcə Azərbaycan çərçivəsində qalsaydı, təbiidir ki, indi biz bunun haqqında bu qədər danışa bilməzdik. Ancaq onu rus dilinə tərcümə etdilər. Ən əsas cəhət ondan ibarətdir ki, Rəşid rus dilində də özü oxuyurdu, onun səsi idi, onun mahnıları idi. Beləliklə, o, keçmiş Sovetlər İttifaqında bütün xalqlara tanış olan, xalqların bildiyi rus dilində hər yeri gəzdi.

Mənim yaxşı xatirimdədir, o illər Leninqradda oxuyurdum. Orada "Arşın mal alan" filmi o qədər böyük müvəffəqiyyətlə gedirdi ki, insanlar o filmə bir daha, bir daha baxmaq istəyirdi. Amma iş təkcə bunda deyil. Rəşid Behbudovun o filmdə oxuduğu mahnıları insanlar gözəl bir musiqi kimi qəbul etmişdilər və çox yerlərdə oxuyurdular. Hətta bəzən ailələrdə, şənliklərdə görüşəndə bir də görürdün ki, məsələn, bir rus Rəşid Behbudovun mahnısını böyük sevgi və məhəbbətlə ifa edir. Bu, Azərbaycan mədəniyyətini, Azərbaycan musiqisini, mahnısını ilk dəfə dünyaya tanıdan bir əsər oldu. Yəni o yaranandan filmə çevrilənə qədər, onun haqqında film yaranana qədər bir mərhələ idi. Bizim xalq və bizə yaxın xalqlar bu əsəri yaxşı bilirdilər. Amma onu filmə çevirib, rus dilinə tərcümə edəndən

sonra və Rəşid özü həmin mahnıları rus dilində gözəl ifa edəndən sonra bütün dünyanı dolaşdı. Demək olar ki, Azərbaycan musiqisini, mədəniyyətini, incəsənətini, mahnısını dünyaya açan, yəni geniş kütlələrə açan ikinci belə hadisə olmamışdır.

Bilirsiniz, ümumiyyətlə, mədəniyyət, xüsusən musiqi mədəniyyəti, mahnı xalqları başqa xalqlar qarşısında ən gözəl, ən aydın tanıdan bir sahədir. Söz yox ki, hər bir ölkədə hansısa bir alimin ixtirası, hansısa başqa bir hadisə dünya tarixinə daxil olur. Amma onların hamısı, əksəriyyəti, demək olar ki, müəyyən xalqların, yaxud millətlərin, ölkələrin çərçivəsində qalır.

Məsələn, dünyada ən məşhur alimlərdən biri Eynşteyn çoxlarına məlumdur, amma çoxlarına da məlum deyildir. İndi bu zalda soruşsan ki, onu kim yaxşı tanıyır, yəqin çox az adam tapılar. Ancaq mədəniyyət, yəni musiqi mədəniyyəti, mahnı mədəniyyəti təkcə bizim üçün deyil, bütün xalqlar üçündür. O qədər cazibədardır ki, dünyada xalqı bütün başqa nailiyyətlərindən daha yaxşı tanıdır.

Yenə də xatırlayıram. 50-ci illərdə SSRİ-yə, o cümbdən Azərbaycana ilk dəfə Hindistanın "Avara" filmi və Rac Kapur gəldi. O vaxta qədər biz heç bilmirdik ki, Hindistanın mahnısı nədir, musiqisi nədir və onun filmi nədir. Amma "Avara" filmi ilə və böyük aktyor, artist Raç Kapur ilə Azərbaycanda Hindistanı əvvəlki dövrlərdən daha da çox tanıdılar. Belə misallar çəkmək olar. Ancaq dünya miqyasında bunlar azdır.

Amma Rəşid Azərbaycan mədəniyyətini, Azərbaycan xalqını təkcə "Arşın mal alan" filmi ilə tanıtmayıbdır. Rəşid dünyanın bir çox ölkələrinə səyahət edib, böyük-böyük salonlarda konsertlər veribdir və Azərbaycan musiqisini, mahnılarını öz gözəl üslubu ilə, gözəl ifası ilə o ölkələrin insanlarının qəlbinə salıbdır.

Deyə bilərəm ki, Rəşid Behbudov dünyanı dolaşmış ilk Azərbaycan müğənnisidir, musiqiçisidir. İkinci beləsi olmayıbdır.

Yenə bir hadisə yadıma düşür. Bir dəfə bizim bir neçə yoldaşlar, o cümlədən mən Rəşid Behbudovun evinə getmişdik. Oturub söhbət edirdik, çay içirdik. O, Türkiyə səfərindən qayıtmışdı. O vaxt hələ televiziya yox idi. Radio musiqini o qədər də geniş verə bilmirdi. Rəşid Behbudov, demək olar ki, bizim mədəniyyət xadimlərindən Sovet vaxtı Türkiyəyə gedən ilk Azərbaycan elçisi, müğənnisi olubdur.

Niyazi də xarici ölkələrə çox gedibdir, bəzi opera, balet əsərlərini tamaşaya qoyubdur. Amma Rəşid Behbudov geniş kütlə içərisində, böyük salonlarda Azərbaycan mahnılarını oxuyubdur. Bilirsiniz ki, Azərbaycan mahnıları bizim qardaş türk xalqı üçün nə qədər böyük zövq verir, onda nə qədər maraq doğurur. Eləcə də türk mahnıları, türk musiqisi Azərbaycanda sevildiyi kimi.

Xatırlayıram, Rəşid Behbudov maqnitofonu işə saldı, orada oxuduğu bir mahnını səsləndirdi. Onun birinci xüsusiyyəti bundan ibarət idi ki, o, getdiyi yeri hansısa bir mahnı ilə mütləq birləşdirirdi. Hansı mahnı olduğunu xatırlaya bilmirəm, amma onun hər bəndi qurtarandan sonra o, çox gözəl səsi ilə deyirdi: "İstanbul-Bakı, İstanbul-Azərbaycan, Türkiyə-Azərbaycan".

Hansı ölkəyə gedirdisə, mütləq səfərindən əvvəl oranın gözəl mahnılarından bir neçəsini o ölkənin xalqının dilində hazırlayırdı, gedib orada oxuyurdu və böyük hörmət qazanırdı. Bu barədə çox demək olar.

Mən sadəcə, öz xatirələrimi, hamısını da yox, bəzilərini, deyirəm. Çünki hamı bilməlidir, gələcək nəsillər də bilməlidir ki, Rəşid Behbudov Azərbaycan xalqına, onun dünyada tanınmasına nə qədər böyük xidmətlər göstəribdir. Mənim böyük qardaşım, rəhmətlik akademik Həsən Əliyevlə bir neçə dəfə söhbətdə onun dediyi sözlər mənim

yadımdan heç vaxt çıxmır. O deyirdi ki, biz yüz ildir dünyaya neft veririk, amma biz bununla özümüzü dünyaya tanıda bilmədik. Ancaq bir nəfər, bir insan - Rəsid Behbudov öz mahnıları ilə, yəni Azərbaycan mahnıları və musiqisi ilə Azərbaycanı bütün dünyaya tanıtdı. Çox düzgün deyilmiş sözlər idi. Mən bunu heç vaxt yadımdan çıxartmaram. Çünki bu, həqiqətdir. Rəşid Behbudov, demək olar ki, vokal sənətinin bütün sahələrində özünü çox məharətlə göstəribdir. "Sevil" operası... Xatırlayıram ki, 1953-cü ildə bizim opera və balet teatrında "Sevil" operasının premyerası idi. Təbiidir ki, mən orada idim. Mən Rəşid Behbudovun belə mərasimlərinin çoxuna gedirdim. Fikrət Əmirovun yazdığı "Sevil" operası çox böyük təsir bağışladı. Onu da demək istəyirəm ki, Üzeyir Hacıbəyovun yazdığı "Koroğlu" operasından sonrada Azərbaycanda opera janrında əsərlər yaranıbdır. Amma ondan sonra "Sevil" operası qədər çox dəyərli, yüksək musiqiyə, professional musiqiyə malik olan opera olmamışdır.

Bu, bəlkə də mənim subyektiv fikrimdir. Ancaq hesab edirəm ki, bu, həqiqətə yaxındır. Rəşid Behbudov orada Balaş rolunu çox məharətlə ifa etdi. Biz Cəfər Cabbarlının "Sevil" pyesini çox yaxşı bilirdik. Gənclik vaxtlarımda bizim teatrlarda "Şevil" pyesi tamaşaya çox qoyulurdu.

Ona görə də C.Cabbarlının yaratdığı "Sevil" pyesi bizim yaddaşımızda bir dram əsəri kimi qalmışdı. Amma eyni zamanda onun dram xüsusiyyətini saxlayaraq, opera yaratmaq, əlbəttə ki, bizim böyük bəstəkarımız Fikrət Əmirovun ən uğurlu nailiyyətlərindən biridir. "Sevil" operası o vaxt çox böyük əks-səda yaratdı və uzun müddət də səhnədə idi. Son vaxtlarda da səhnədə olmuşdur.

O vaxt da mən düşünürdüm və indi bu düşüncələrim haqqında demək istəyirəm. **Mənə belə gəlir ki, Üzeyir Hacıbəyov "Koroğlu" operasını yazarkən, - məlumdur ki, o, bir xeyli müddət bu operanın yazılmasına hazırlaşıbdır, - böyük sənətkarımız Bülbülü nəzərdə tutubdur. Bülbül və Koroğlu rolu... Elə bil ki, Koroğlu rolu Bülbül üçün yaranıbdır.** Ona görə də Koroğlu əsəri o vaxtdan, 1938-ci ildən indiyə qədər səhnədədir. Bundan sonra da səhnədə olacaqdır. Yeni-yeni ifaçılar meydana çıxır. Çox gözəl opera və vokal ustaları meydana çıxır və Koroğlu rolunu ifa edirlər. Amma hamısı çalışır ki, o rolu Bülbül kimi ifa etsin. Çünki bizim hamımızın hafizəsində Koroğlu həmin səhnədə, atın üstündə Bülbülün gözəl, məlahətli səsi ilə beynimizdə həkk olunubdur.

Eləcə də Fikrət Əmirov "Sevil" operasını yazarkən... **Əgər Rəşid Behbudov olmasaydı, bəlkə də o, "Sevil" operasını yaza bilməzdi, yəni yazardı, amma onu ictimaiyyətə, insanlara, cəmiyyətə o səviyyədə təqdim edə bilməzdi.**

Beləliklə, mən dedim, Rəşid Behbudovun yaradıcılığı çoxşaxəlidir. Estrada, ondan sonra xalq mahnılarının müasirləşdirilməsi və estrada vasitəsilə çox gözəl ifa olunması.

"Arşın mal alan" daim yaşayacaqdır. Mən indi bu filmin kadrlarına baxdım. Çox təəssüf etdim ki, vaxt keçdikcə o kadrlar köhnəlir. Mən hesab edirəm ki, bizim Mədəniyyət Nazirliyi və bu sahə ilə məşğul olan başqa təşkilatlarımız gərək belə ölməz əsərləri bərpa etsinlər. **Kitab daim yaşayır, ancaq film də daim yaşamalıdır, indi müasir texnika, texnologiya imkan verir ki, onlar əvvəl yarandıqları kimi bərpa edilsin. Bunu mütləq etmək lazımdır.**

**"Arşın mal alan" Azərbaycan mədəniyyəti tarixinin ən böyük naliyyətlərindən biridir. Ona görə o film yaşamalıdır. O film yaşamalıdır ki, Uzeyir Hacıbəyovun nə qədər böyük insan olduğunu gələcək nəsillər də görsün. Rza Təhmasibin nə qədər böyük rejissor olduğunu görsün. Rəşid Behbudovun nə qədər istedadlı müğənni olduğunu gələcək nəsillər görsün. Biz mütləq bunu etməliyik. Biz bunların hamısını**

**görmüşük. Amma gələcək nəsillər haqqında düşünmək lazımdır. Mütləq düşünmək lazımdır**.

Mən Rəşid Behbudovun yaradıcılığı haqqında bəzi fikirlərimi bildirdim. Amma xatirələrim də çoxdur. Mənim onunla şəxsi dostluq münasibətim vardı. Hələ Azərbaycanın rəhbəri olmazdan xeyli əvvəl onunla şəxsi münasibətim, dostluğum vardı. Bu dostluqda məni ona bağlayan onun gözəl sənəti idi. O isə nədənsə, mənə də müəyyən qədər, hansı səbəblərə görəsə çox hörmət edən bir insan idi. Hələ o vaxt ki, mən respublikanın rəhbərliyində deyildim.

Xatirimdədir, bir dəfə, - indi "Şəhriyar" klubu adlanır, orada xaricdən gəlmiş hansısa məşhur müğənninin konserti vardı, mən konsertə getmişdim. Orada kiçik bir loja var, onda mən artıq Dövlət Təhlükəsizliyi Komitəsinin sədri idim, yaxud ondan əvvəl idi, hər halda 60-cı illərin ortaları, bəlkə də əvvəli idi. Rəşid də orada idi. Bir yerdə dinlədik. Sonra oradan çıxdıq, piyada gedirdik. Rəşid, bilirsiniz, dənizkənarı evdə yaşayırdı, mən isə, yəqin bilirsiniz harada yaşamışam. Azərbaycan prospekti ilə Bülbül prospektinin kəsişdiyi yerdə, tində bir ev var, orada yaşayırdım, üçotaqlı mənzilimiz vardı.

Oradan keçirdik, dedim, Rəşid gedək bir çay içək. Dedi ki, çox məmnuniyyətlə. Bizim evə qalxdıq, oturduq, çay içdik, söhbət etdik. Mənim həyat yoldaşım mərhum Zərifə xanım bizə xidmət etdi. Mən Rəşidə bir neçə mahnı haqqında öz fikrimi dedim. Nədənsə, birdən mən ondan soruşdum ki, sən nə üçün Rauf Hacıyevin "Azərbaycan" mahnısını indiyədək oxumursan? O dedi ki, nədənsə heç düşünməmişəm. Dedim, o mahnını sən bilirsən? Dedi ki, əlbəttə bilirəm. Zərifə xanım oturdu, pianoda onu çaldı. Rəşid başladı bu mahnını bir balaca oxumağa. Bundan 10-15 gün keçəndən sonra o, mənə telefon etdi və dedi ki, bu mahnı artıq hazırdır. O mahnı bu gün, mən bu səhnəyə qalxmazdan öncə burada filmdə səsləndi. Çox gözəl bir mahnıdır. Rauf Hacıyevin şair Ənvər Əlibəylinin sözlərinə yazdığı mahnıdır.

O mahnını çoxları oxuyurdu. Amma onu Rəşid kimi o vaxt da heç kim oxumayıbdır, bu gün də heç kəs oxuya bilmir. Necə ki, Bülbül oxuduğu kimi indi heç kəs oxuya bilmir. Necə ki, Rəşid oxuduğu kimi indi heç kəs oxuya bilmir.

Müslüm Maqomayev bizim aramızdadır. Bu gün bu konserti təşkil edənlərdəndir. Amma "Azərbaycan" mahnısını, - sözləri bizim böyük şairimiz Nəbi Xəzrinindir, musiqisi Müslüm Maqomayevin özününküdür, - onun kimi heç kim oxumur. Ona görə də bizim müğənnilər heç onu oxumağa çalışmırlar. Çünki o mahnı Müslüm Maqomayevin ifası kimi bizim beynimizdə qalıbdır. O mahnını onun kimi heç kəs bu gün də oxumur, gələcəkdə də oxumayacaqdır. Bu da vaxtilə, 70-ci illərdə yaranmış bir mahnıdır. Müslüm Maqomayev də mənim yaxın dostlarımdan biridir və onun gənc vaxtlarından ona yaşca böyük bir insan kimi mən çox himayədarlıq etmişəm. 1974-cü, ya da 1975-ci il idi, o həmin mahnını bu salonda birinci dəfə oxudu, sonra da onun notları üzərində yazdı ki, sənə ithaf edirəm. Mən dedim ki, bunu sən heç kimə demə. Mən bunu qəbul edirəm, evdə saxlayacağam. Çünki Sovet vaxtında belə şeylər çox böyük qısqanclıq yarada bilərdi. Qısqanclıq yaradardı ki, Müslüm Maqomayev kimi böyük bir müğənni Heydər Əliyevə mahnı ithaf edibdir. Amma indi bunu açıram. Çünki indi mümkündür.

Rəşid Behbudov insan kimi də çox maraqlı bir insan idi. Yəni çoxları onu səhnədə görübdür, amma mən onunla bir yerdə çox olmuşam. Adi şəraitdə də. 1970-ci ildə, - mən bir il idi ki, Azərbaycana rəhbər seçilmişdim, - biz böyük bir nümayəndə heyəti ilə Qazaxıstana getdik. O vaxt Qazaxıstanın 50 illik yubileyi qeyd olunurdu. SSRİ-nin rəhbəri

Brejnev oraya gəldi. Ona görə də bütün müttəfiq respublikaların birinci şəxsləri ora gəlmişdi. Bu, Azərbaycanın rəhbəri kimi başqa yerə mənim ilk səfərim idi. Mən nümayəndə heyətinə Rəşid Behbudovu da saldım. O vaxt o, həm müğənni idi, həm də SSRİ Ali Sovetinin deputatı idi, tanınmış bir adam idi. Mən nümayəndə heyətinin tərkibinə onu salaraq, birincisi, ona öz dostluq münasibətimi göstərdim, ikincisi də, dedim ki, elə bu, bizim nümayəndə heyətini daha da bəzəyəcəkdir. Çünki onu bizdən daha çox, yaxşı tanıyırlar.

Oraya getdik. Harada bir yerdə olurduqsa, hamı "Rəşid Behbudov, Rəşid Behbudov, Rəşid Behbudov" - deyirdi. Onda mən gördüm ki, kiçikdən böyüyə qədər hamı ona nə qədər məhəbbət bəsləyir.

Bir yerdə, bir oteldə yaşayırdıq. Bir gün axşam gəldik yemək yeməyə. Bilirsiniz ki, Qazaxıstanda at əti ən mötəbər yeməklərdən biridir. At ətindən mən yedim. Dedim ki, Rəşid, sən də ye. Dedi bu nədir? Dedim bu, çox gözəl quzu ətidir. Rəşid böyük həvəslə götürüb yedi. Qurtarıb ayağa duranda, dedim ki, Rəşid bildin ki, sən nə yedin? Dedi yox, sən dedin ki, quzu ətidir. Dedim ki, sən at əti yemisən. O, çox pərişan oldu, bir təhər oldu... Sən niyə bunu etdin, filan etdin... Məndən narazı oldu. İndi bağışlayın, üzr istəyirəm, olan şeyləri deyirəm, sonra gedib öz otağında qusmuşdu. Yəni, bax bu millilik də onda var idi. Öz millətinə xas olmayan bir şeyi, yeməkdə də olanda, o, qəbul edə bilmirdi. Mən ondan çox soruşardım: sən nə yeyirsən? Deyirdi ən çox sevdiyim dovğadır. Yəni, elə hər gün dovğa yeyirsən? Deyirdi ki, hər gün dovğa yeyirəm.

Onun xanımı burada oturubdur, bəlkə o, məndən yaxşı bilir. Amma mən onun dediyi sözləri deyirəm.

Sonra Rəşid bu Mahnı Teatrını yaratmağa başladı. Onun da çətinlikləri vardı. Bilirsiniz, insan həyatdan gedəndən sonra onun qiyməti daha da artır. İnsanlar daha da obyektivləşirlər. Amma o vaxt onun da problemləri vardı. Bizim mədəniyyət aləmində, bilirsiniz ki, qısqanclıq var, filan var, peşməkan var... Qısqanclıq ola bilər. Amma Rəşid Behbudov kimi bir adama qısqanclıq etmək, bu, ağılsızlıqdır. Çünki qısqanclıq edəndə, sən heç olmasa, özünə bərabər, ya özündən bir pillə yuxarı adama qısqanclıq et. Qısqanclıq edən adam, elə bil ki, özünü böyük, ən yüksək mərtəbədə duran bir şəxsiyyətlə müqayisə edir və qısqanclıq edir. Ona görə də onun belə problemləri olurdu. Bəzən mənə şikayət edirdi. Ancaq hər dəfə mən bütün bu problemlərinin həll olunmasında ona kömək edirdim. Ona görə yox ki, mənim onunla şəxsi münasibətim vardı, ona görə ki, o, Azərbaycan üçün ən dəyərli insanlardan biri idi.

Mahnı Teatrını yaradarkən deyirdi ki, mənə bir bina lazımdır. Dedim ki, get tap, harada əlverişli bina olsa, səni təmin edək. Yaxud, dedim yeni bir bina tikək. Dedi yox. Gedib indiki bu binanı göz altına aldı. Gəlib mənə dedi. Orada da hansısa bir layihə institutu yerləşirdi. Öyrəndim ki, elə onlar üçün də ora darısqaldır. Amma o, oranı bəyəndi. Mən layihə institutunu oradan köçürdüm, oranı təmir etdirdim. İndi Rəşid Behbudov adına Mahnı Teatrı oradadır. Çox da gözəldir, böyük deyil, amma çox yığcamdır, elə bil ki, Rəşidin ruhu həmişə oradadır.

Mən son illər, Moskvada olarkən də bəzən, o, Ali Sovetin sessiyalarına gələndə görüşürdük. Amma sonra mənim onunla əlaqəm kəsildi. Təbiidir, onun həyatdan köçməsi bizim hamımızı çox kədərləndirdi, məyus etdi. Ancaq o həyatdan getməyibdir. O yaşayır, bizim qəlbimizdə yaşayır, onun sənəti yaşayır, onun mahnıları yaşayır. Bu gün, bu xatirə gecəsini keçirərək biz onun xidmətlərini, Azərbaycan dövlətinin, müstəqilliyinin onuncu ildönümündə bir daha yad edirik. Sağ olun.

Xatirə gecəsində respublikanın xalq artisti Alim Qasımovun, xalq artistləri Fidan və Xuraman Qasımovaların ifasında mahnılar səsləndi. SSRİ xalq artistləri Müslüm Maqomayev və Tamara Sinyavskaya Müslüm Maqomayevin xalq şairi Nəbi Xəzrinin şeirinə bəstələdiyi "Azərbaycan" mahnısını ifa etdilər.

Axırda xatirə gecəsinin iştirakçıları səhnəyə gələrək dahi sənətkar Rəşid Behbudovun şəkli önünə gül dəstələri düzdülər.

Xatirə gecəsi başa çatdıqdan sonra Azərbaycan prezidenti Heydər Əliyev səhnə arxasına gələrək, incəsənət xadimləri və tədbirin təşkilatçıları ilə səmimiyyətlə görüşdü.

Prezfdent **Heydər ƏLİYEV** onlara uğurlu çıxışlarına görə dərin təşəkkürünü bildirdi və dedi:

- Çox gözəl çıxış etdiniz. Ümumiyyətlə, bugünkü gecə Rəşidin xatirəsinə layiq bir xatirə gecəsidir. Bilirəm ki, bunu bir müddətdir hazırlayırdınız. Onun xatirəsinə layiqli bir töhfədir. Mən hiss etdim ki, hər biriniz çox ürəkdən, səmimi qəlbdən bu xatirə gecəsini keçirməyə çalışdınız.

Rəşid Behbudov nadir bir şəxsiyyət idi. Onun haqqında hamı - siz də, mən də danışdıq. Amma eyni zamanda, sizin hər biriniz də çox böyük şəxsiyyətsiniz. Zaman gələcək, vaxt gələcək, - Allah etsin ki, hələ bu, çox uzun vaxtdan sonra olsun, - sizin haqqınızda xatirə gecələri keçiriləcəkdir. Amma bizim haqqımızda yox. Mən bu gün oradakı çıxışımda dedim, adətən, ən böyük bir ixtira edən alimi bəlkə də dünyada çoxları tanımır. Amma incəsənət xadimlərini, mədəniyyət xadimlərini hamı tanıyır. Mən bir daha sizə təşəkkür edirəm.

SSRİ xalq artistləri Müslüm Maqomayev və Tamara Sinyavskaya onlara göstərdiyi diqqət və qayğıya, yaradıcılıqlarına verdiyi yüksək qiymətə görə prezident Heydər Əliyevə incəsənət ustaları adından dərin minnətdarlıqlarını bildirdilər.





Azərbaycan prezidenti Heydər Əliyev Üzeyir Hacıbəyovun "Arşın mal alan" tamaşasına baxdıqdan sonra səhnə arxasına keçib aktyorlara müraciət edərək dedi:

- Mən sizi təbrik edirəm. Bu gün mənim dostum qardaşım, İhsan Doğramacı ilə və bu konqresə gəlmiş başqa xarici qonaqlarla birlikdə sizin ifanızda Üzeyir Hacıbəyovun "Arşın mal alan" operasının yeni tamaşasına baxdıq. Hesab edirəm ki, bu, Azərbaycan teatrının həyatında çox böyük əlamətdar hadisədir. "Arşın mal alan" operasının qədim tarixi vardır. Mən salonda əyləşib tamaşaya baxdıqca düşünürdüm. Bu əsər 1911 - ci ildə yazılıbdır. O vaxdan indiyədək daim Azərbaycan teatrı səhnəsində göstərilibdir, sonra isə film çəkilibdir. Bu əsər həm teatr tamaşası kimi, həm də kinofilm kimi təkcə respublikamızı yox, bütün dünyanı gəzibdir. Siz bu əsəri Azərbaycan Opera və Balet teatrının səhnəsində şox məharətlə yenidən tamaşaya qoymusunuz. Bu, böyük yaradıcılıq nailiyyətidir. Bu nailiyyət münasibəti ilə sizi təbrik edirəm. Sizə yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

Üzeyir Hacıbəyovun bütün əsərləri ölməzdir. "Arşın mal alan" ölməz sənət əsəridir. Bunu tariximizin ayrı-ayrı mərhələlərində böyük sənətkarlarımız yaşadıblar və bu əsər daim teatr səhnələrində göstərilibdir. Ancaq məlumdur ki, bu əsərin dünyada məhşur olması 1946-cı ildən Azərbaycanın böyük sənət ustası, rejissoru Rza

Təhmasibin quruluşu əsasında yaradılmış filimlə başlandı. Yəqin ki, həmin film xatirənizdədir. O, bütün dünyanı dolaşdı. Gənclər, ola bilsin ki, bunu bir o qədər xatırlamırlar. Amma bizim nəsil üçün bu filmin dünyaya çıxması böyük hadisə idi. Bu bizi çox sevindirdi. Sevinirdik ki, "Arşın mal alan" artıq bütün dünyanı gəzir.

Bu gün sizin hazırladığınız bu tamaşaya baxarkən hesab edirdim ki, Üzeyir Hacıbəyov bu əsəri yazandan indiyə qədər bu operanı daim səhnəyə qoymuş incəsənət xadimlərini və bunu filmə çevirmiş incəsənət - teatr, kino xadimlərinin böyük minnətdarlıqla yad etməliyik. Biz bunu heç vaxt ımutmamalıyıq. Şübhəsiz ki, birinci növbədə xalqımızın ölməz bəstəkarı Üzeyir Hacıbəyovu unuda bilmərik. Sentyabrın 18-də Üzeyir Hacıbəyovun anadan olmasından 112 il keçdi. Biz 1995-ci ildə Üzeyir Hacıbəyovun 110 illik yubuleyini böyük təntənə ilə qeyd etdik.

İhsan bəy, mənim xatirəmdədir, Üzeyir Hacıbəyovun 90 illik, 100 illik, 110 illik yübileylərinin təntənə ilə qeyd edilməsi mənim rəhbərliyim altında keçirilibdir. Görün bu necə bir xoş tarixdir!

İhsan Doğramacı söhbətə qoşularaq dedi ki, inşallah Üzeyir Hacıbəyovun 200 illik yubileyini də qeyd edərik.

Prezident Heydər Əliyev sözünə davam edərək dedi:

- Biz sentyabr ayının 18-də Üzeyr Hacıbəyovun 112 illik yubileyini qeyd etdik. 50 ildə bundan əvvəl 1946-cı ildə böyük sənət ustası Rza Təhmasib "Arşın mal alan" filmini yaradıbdır. Yəqin ki sizin heç biriniz onu görməmisiniz.

Tamaşada Soltan bəy rolunun ifaçısı, respublikanın xalq artisti **Yaşar Nuriyev**: O, mənə dərs deyib. Mən onun tələbəsi olmuşam.

Dövlətimizin başçısı Heydər Əliyev daha sonra dedi: Ona görə də Soltan bəy rolunu yaxşı oynayırsan. Rza Təhmasib həm çox gözəl insan idi, gözəl bir yaradıcı kallektiv yaratmışdı. Bizim ölməz sənətçimiz Rəşid Behbudov, Gülçöhrə obrazını ilk dəfə filmdə ifa edən istedadlı aktrisa Leyla Bədirbəyli və s. İndi o sağdır, yaşayır. Bəli rolunu

Ü.Hacıbəyov dahi bir bəstəkar, eyni zamanda böyük bir alimdir, filosofdur, maarifçidir. Məhz Ü.Hacıbəyovun əsərlərindən ruhlanaraq, bizim Azərbayan gəncləri, azərbaycanlılar, Azərbaycan vətəndaşları vətənlərini daha çox sevmişlər. Onun musiqisini dinləyərək, onun əsərlərindən irəli gələn fikirlərin təsiri altına düşərək onlar hiss etmişdilər ki, ölkə, millət, vətən hər bir vətəndaş üçün nə qədər əzizdir, doğmadır.

Ü.Hacıbəyov böyük vətəndaş olmuşdur. Ü.Hacıbəyovun yaşadığı hər bir gün bizim üçün qiymətlidir. Ü.Hacıbəyovun yazdığı hər bir əsər, hər bir not vərəqi bizim üçün qiymətlidir və onun ictimai-siyasi fəaliyyəti əvvəldən axıradək bizim üçün qiymətlidir! Çünki bunlar hamısı Azərbaycan xalqının dirçəlməsinə, Azərbaycan xalqının mədəniyyətinin inkişaf etməsinə, Azərbaycan xalqının özünü tanımasına xidmət etmişdir. Bu xidmətlər heç vaxt unudula bilməz. Bu xidmətlər əvəzsizdir!

isə Lütvəli Abdullayev oynayırdı. O da bizim çox böyük sənətkarımız, aktyorumuz olub. Onlar vaxtib bu əsərin tamaşasında çox gözəl oynamışdılar. Şübhəsiz ki, bu əsərdəki obrazları səhnədə çox aktyorlar ifa ediblər. Ancaq daha çox yadda qalan "Arşın mal alan" filmi olubdur. Ona görə ki, teatrda hər mövsümdə rolları müxtəlif aktyorlar ifa edirlər, amma filmdə bu belə deyil.

Siz yeni yaradıcı nəsilsiniz və onların davamçılarısınız. Bu əsəri XX əsrin sonunda yenidən səhnəyə qoymusunuz. Hesab edirəm ki, bu, çox gözəl alınıbdır. Mən çox şadam ki, siz bu əsəri yenidən tamaşaya qoymusunuz. Çünki "Arşın mal alan" operası ölməzdir və salonda bu tamaşaya baxanlar sizi nə qədər böyük həvəs və maraqla alqışlayırdılar. Bizim qonaqlarımız üçün bu yenidir. Onlar dilimizi bilməsələrdə, tərcümə vasitəsi ilə sizi maraqla dinlədilər.

Dövlətimizin başçısı tamaşanın yaradıcı heyəti ilə, ayrı-ayrı rolların ifaçıları ilə maraqlandıqdan sonra dedi:

Yaxşı haldır ki, ifaçılar əsasən gənclərdən ibarətdir. Mənim yadıma Rza Təhmasib, Rəşid Behbudov düşür. "Arşın mal alan " çəkiləndə məndə gənc idim. Ona görə də Rəşid Behbudova, Leyla Bədirbəyliyə və Lütvəli Abdullayevə böyük maraqla baxırdım. Sonra elə oldu ki biz bir yerdə olduq, bir yerdə işlədik. Onların hər birinə də mənim böyük hörmətim olmuşdur. Mən respublikanın başçısı kimi onların xidmətlərini qiymətləndirmişdim.

Hazırda isə görürsünüz, yeni gənc nəsil yetişibdir. Əsgər rolunu mərhum Rəşid Behbudovun yolu ilə gedən gənc müğənnimiz Azər Zeynalov gözəl ifa edir. Gülcöhrə rolunu ifa edən - teatrın solisti Zenfira İsmayılovanı birinci dəfədir ki, görürəm. Soltan bəy rolunun ifaçısı olan Yaşar Nuriyevi hamımız tanıyırıq. Asya, Bəli, Süleyman obrazlarını gənc aktyorlar çox gözəl ifa etdilər. Vaxtilə Cahan xala obrazını Münəvvər Kələntərli oynayırdı. Çox gözəl aktrisa idi. Şübhəsiz ki, siz də onların yolu ilə gedirsiniz. Gözəl dəsti-xəttiniz vardır.

Siz hələ gəncsiniz. Qarşınızda böyük yaradıcılıq yolu vardır. İstərdim ki, sizdən əvvəlki sənətkarlar - Lütvəli Abdullayev kimi, Rəşid Behbudov kimi, Leyla Bədirbəyli kimi və başqaları kimi öz üzərinizdə çalışasınız. Mən onları çox yaxından tanıyırdım, onlarla dost idim. Ona görə də görürdüm ki, onlar öz üzərlərində necə çalışırlar, necə işləyirlər, necə yeni nailiyyətlər əldə edirlər. Mən bunu sizə də tövsiyyə edirəm.

Hamınızı bir daha təbrik edirəm. Sizə cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

**SSRİ-nin xalq artisti Zeynəb Xanlarova:**

Heydər müəllim çox incə, həssas adam idi. İnsanın gözünə baxan kimi nə deyəcəyini bilirdi. Onun o qədər ağır günləri olub ki... Xəstə olan vaxtlarında Moskvaya getmişdim, xəstəxanada onu ziyarət etməyə. Məni görən kimi dedi:

- Ay Zeynəb, ay Zeynəb, mənim qanım qara idi, sən gəldin, elə bil bütün Azərbaycanı gətirdin.

Mənim ixtiyarım yox idi onu sevməməyə. Onun haqqında danışmaq üçün onun özu kimi bir şəxsiyyət olmaq lazımdır. Mən özümü onun qarşısında kiçik bir insan kimi təsəvvür edirəm. Azərbaycan durduqca Heydər Əliyev yaşayacaq.



***Bəstəkar Aqşin Əlizadə*:**

*Heydər Əliyev bizim həm atamız, həm qardaşımız, həm də rəhbərimiz idi. Mən tamamilə doğru deyirəm ki, o Azərbaycan tarixinin ən güclü şəxsiyyətlərindən biridir. Babək, Şah İsmayıl Xətai desək, bu sırada mütləq Heydər Əliyevin də adını çəkməliyik.*

***

Xalq artisti rəqqasə Əminə Dilbazi ilə ölkə rəhbərinin görüşləri səmimiyyəti ilə seçilib. Əminə xanımın sevgi dünyasını dərindən bilən H.Əliyev görüşlərinin birində rəqqasəyə deyir:

- Əminə xanım, bilirəm ki, qüdrətli bəstəkarımız Cövdət Hacıyevin xanımısınız, onu da bilirəm ki, Cövdət müəllimi hətta divara, daşa da qısqanırsınız. Maraqlıdır, sizi Fikrət Əmirov da sevib, nə əcəb Cövdəti seçdiniz? İki dost arasında qan tökülmədi ki? (gülür).

Sizin hər bir rəqsiniz, quruluşunuz, yaratdığınız «Çinar» rəqs ansamblı Azərbaycan xalqı tərəfindən rəğbətlə qarşılanmış və şövqlə izlənilmişdir. Tibb institutunun tələbə qızlarından ibarət yaratdığınız «Çinar» rəqs ansamblının çıxışına baxanda heç bir musiqi təhsili, rəqs duyumu olmayan qızlardan professional rəqqasələr yetişdirmək üçün nə qədər əziyyət çəkdiyinizin şahidi oluram və sizin hövsələnizə həsəd aparıram.

Əminə xanım, sizin hərəkət plastikanız, seçiminiz və seçdiyiniz rəqsə uyğun səhnə geyiminiz də fərqlidir. Siz heç bir vaxt sənətdən şəxsi maraqlarınıza görə istifadə etməmisiniz, Milli rəqslərimizin dünya dövlətləri arasında təbliğinə çalışmısınız,





maarifləndirmə işi aparmısınız. Milli adət-ənənələrimizi, milliliyimizi qoruyub saxlamaqla azərbaycançılığımıza qulluq etmisiniz, bir sözlə Azərbaycanın milli rəqslərini təbliğ etməklə, gənc nəsil rəqqaslar yetişdirməklə dövlət və xalq qarşısında öz borcunuzu layiqincə yerinə yetirmisiniz, öz məktəbinizi yaratmısınız, öz cığırınızla sənətdə addım ataraq, heç kimi təqlid etməmisiniz, özünüzü, öz rəqslərinizi oynamısınız.

Əminə xanım, sizin rəqslərinizdə bir özəllik var. Özəllik ondan ibarətdir ki, geyimlərinizdə yeddi müqəddəs rəngin hər birindən istifadə edirsiniz. Rənglərdən çələng toxuyaraq quruluş verdiyiniz rəqslərə əlvanlıq qatırsınız və bu əlvanlığın içərisində Əminə Dilbazi sənət abidəsi ucaldırsınız.

Qeyd edim ki, Cövdət müəllim də sizin sənətinizi hər zaman bəyənib. Onunla söhbətlərimizin birində bir bəstəkar kimi uğur qazanmasında sizin onun həyatında oynadığınız rola minnətdar olduğunu etiraf etmişdi, sizin sevginizdən güc alaraq gözəl sənət əsərləri yaratdığını və tam sevgi ilə əhatə olunduğunu vurğulamışdı. İki sənətkar, iki yol - bəstəkarlıq və rəqqasəlik. Kök isə birdir Azərbaycan incəsənəti, Azərbaycan mədəniyyəti, Azərbaycana xidmət!









## BAKIDA NİYAZİNİN EV-MUZEYİNİN TƏNTƏNƏLİ AÇILIŞI

Milli musiqi günündə Bakıda görkəmli dirijor və bəstəkar Niyazinin ev-muzeyinin təntənəli açılışı oldu. Azərbaycan prezidenti Heydər Əliyev xalqımızın görkəmli sənətkarının xatirəsini yad etmək, mərasimdə iştirak etmək üçün buraya gəldi. Dövlət başçısını respublikanın tanınmış mədəniyyət və incəsənət xadimləri səmimi qarşıladılar.

Azərbaycan prezidenti Heydər Əliyev mərasimdə çıxış edərək dedi:

Hörmətli dostlar. Bu gun respublikamızın həyatında əlamətdar gündür. Azərbaycan xalqının professional musiqisinin banisi, dahi bəstəkarımız Uzeyir Hacıbəyovun anadan olduğu gün, onun xatirəsi yad edilən gündür. Bu gün Uzeyir bəyin silahdaşı, professional musiqimizin yaranmasında və inkişaf etməsində ömrü boyu onunla birlikdə əvəzsiz xidmətlər göstərmiş böyük bəstəkar Müslüm Maqomayevin də anadan olduğu və xatirəsinin yad edildiyi gündür.

On illərdir ki, sentyabrın 18-i Azərbaycanda musiqi bayramı, Yzeyir Hacıbəyovun və Müslüm Maqomayevin xatirə günü elan olunubdur. Həm də çox sevindirici haldır ki, həyatımızın bu keşməkeşlərinə, cətinliyinə, ağırlığına baxmayaraq, mədəniyyətimiz yaşayır, bu mədəni irsimizə hörmət, ehtiram deməkdir.

Əsla təsadufı deyildir ki, məhz bu gün - Azərbaycanın təqviminə həkk olunmuş musiqi bayramı günü böyük bəstəkar, dahi dirijor, Azərbaycan xalqının böyük mədəniyyət xadimi, respublikamızın görkəmli ictimai xadimi Niyazinin ev-muzeyi acılır.



Cox məmnunam ki, bu muzeyin acılışında mən də iştirak edirəm, ev-muzeyinin acılışı üćün qırmızı lenti kəsmək kimi şərəfli bir vəzifə mənə nəsib olmuşdur. Mən bu gün muzeyin eksponatları ilə tanış olarkən böyük sənət ustadımız Niyazinin həyat yolunu və onun Azərbaycan xalqı üćün necə böyük xidmətlər göstərdiyini bir daha yəqin etdim.

Niyazi respublikamızda da, kecmiş Sovet İttifaqında da, dünyanın ən böyük ölkələrində də tanınan, sayılan, hörmət qazanmış bir sənət ustasıdır. Niyazinin ən böyük xidməti bundan ibarətdir ki, o, həm bəstəkar kimi milli musiqimizi zənginləşdirmiş, Azərbaycan mədəniyyətinə, milli musiqimizə böyük töhfələr vermiş və eyni zamanda, Yzeyir Hacıbəyovdan başlayaraq gənc bəstəkarlaradək Azərbaycanın ən görkəmli bəstəkarlarının yaratdıqları əsərlərin meydana çıxması, xalqa çatdırılması, səhnələrdə tamaşaya qoyulması üçün misilsiz işlər görmüşdür.

Mən Niyazi ilə uzun illər ərzində tanış idim, onunla lap gənc vaxtlarımızdan dostluq etmişəm. Sonra isə, yəni 25 il öncə Azərbaycana rəhbərliyə başlayarkən və bütün sonrakı dövrdə Niyazini həmişə qiymətləndirmişəm, onunla sıx təmasda olmuşam. Sənətinə pərəstiş etmişəm. Onun yaradıcılıq fəaliyyətinin coşğun və dolğun inkişaf etməsi üçün, milli mədəniyyətimizə, musiqimizə təsir göstərməsi üçün əlimdən gələni əsirgəməmişəm. Bunu ictimaiyyət də bilir, rəhmətlik Niyazi də yaxşı bilirdi. Bu, indi burada olan və on illər boyu Niyazi ilə birlikdə Azərbaycan musiqisinin inkişafı üçün fəaliyyət göstərmiş, çalışmış görkəmli bəstəkarlarımıza, dirijorlarımıza, musiqiçilərimizə də bəllidir.

Niyazi çox qəribə bir insan idi. O, həm fitri istedadına görə, həm də musiqi sənətində xüsusi üslubuna görə, həm də bənzərsiz yaradıcılıq yoluna görə bütün başqa bəstəkarlardan, dirijorlardan seçilirdi. Başqa sözlə desək, onun özünəməxsus dəsti-xətti vardır. Bu da onu nəinki fərqləndirirdi, həm də qeyri-adiliyini göstərirdi. Bu qeyri-adilik onu yalnız və yalnız böyük bəstəkar, böyük dirijor, böyük musiqiçi olduğuna dəlalət edirdi.

Azərbaycan xalqı qarşısında Niyazinin əvəzsiz xidmətləri vardır. O, Azərbaycan professional musiqisinin yaranmasında və inkişafında böyük səylər göstərmiş və bu xidmətləri xalqımız heç vaxt unutmayacaqdır. Düzdür, indi Niyazinin ailəsindən həyatda heç kəs yoxdur. Lakin Niyazi elə bir insan idi, adamlarla elə mehriban və səmimi əlaqədə idi ki, bəlkə də hamı onu öz doğması, qohumu bilirdi. O, Azərbaycanın bütün sakinlərini öz ailəsinin üzvləri sanırdı. Ona görə də biz gərək qətiyyən heyfsilənməyək ki, indi Niyazinin bir kəsi qalmayıb. Yox, belə deyildir. Qədirbilən xalqımız, xüsusən Niyazi ilə birlikdə sıx təmasda olmuş, onunla bərabər fəaliyyət göstərmiş adamlar onun doğmaları, qohum-əqrabasıdır. Odur ki, gələcək nəsillər də Niyazini heç vaxt unutmayacaqlar.

Mən bu gün bu evə gələrkən binanın qarşısında uşaqları gördüm. Onlar Milli geyimdə və xoş əhval-ruhiyyədə idilər. Azərbaycanın gələcəyi olan bu uşaqlar Niyazini görməsələr də, onun musiqisinin pərəstişkarlarıdır. Buna görə də onlar Niyazini qəlblərində daim yaşadacaqlar.

Dediyim kimi, Niyazi ilə şəxsən tanış idim, şəxsi əlaqəm vardı, onunla dostluq edirdim. O, həyatda da qeyri-adi bir insan idi. Onun həyat yoldaşı Həcər xanımın da Niyazinin həm bir bəstəkar kimi, həm də bir insan kimi inkişaf etməsində çox böyük

xidmətləri olmuşdur. Mən bəzən zarafatla deyirdim ki, Həcər xanım olmasaydı, Niyazi də olmazdı. Bu zarafatı Niyazi də çox məmnunluqla qəbul edirdi. Doğurdan da, Niyazinin yaradıcılığında, həyatında böyük əsərlər bəstələməsində, xalqa dəyərli xidmətlər göstərməsində rəhmətlik Həcər xanımın əvəzsiz rolu olmuşdur. Ona görə də mən burada Həcər xanımın da xidmətlərini qeyd edirəm, onun da xatirəsi qarşısında baş əyirəm.

Niyazi böyük işlər görmüş, böyük xidmətlər göstərmiş və onun xidmətləri yüksək qiymətləndirilmişdir. Niyazi Azərbaycanın ilk ən böyük dirijoru idi. Özü də bir drijor kimi tək Azərbaycanda yox, keçmiş Sovet İttifaqında, habelə bir çox ölkələrdə, dünyanın hətta ən böyük dövlətlərində - İngiltərədə də, Fransada da, Amerikada da, Türkiyədə də olduqca müvəffəqiyyətli çıxışlar etmişdir. Yadımdadır, Niyazi Leninqrad Opera və Balet Teatrının baş dirijoru olan dövrdə teatrın truppası İngiltərəyə qastrola getmişdir. Diqqətəlayiq hal idi ki, Rusiyanın bu görkəmli sənət ocağının İngiltərəyə birinci qastrol səfərində onun orkestrində Niyazi dirijorluq, özü də çox yüksək səviyyədə, çox məharətlə dirijorluq edirdi. O vaxtlar mən bunu izləyir və çox fəxr edirdim ki, bizim azərbaycanlı belə professionallıq səviyyəsinə çatmışdır.

Bildiyimiz kimi, professional musiqi Avropaya məxsusdur. Bizim başa düşdüyümüz mənada professional musiqi Avropada meydana gəlmişdir. Lakin Azərbaycan dirijoru və bəstəkarı Niyazi Avropanın mərkəzində dünya şöhrətli professional musiqiçilər qarşısında heyrətamiz səviyyədə dirijorluq etdi. Onun belə məşhur orkestri məharətlə idarə etməsi xalqımız üçün böyük fəxrdir.

Türkiyədə opera əsərlərinin, o cümlədən də Avropa, Rusiya bəstəkarlarının klassik əsərlərinin səhnə təcəssümünün əsasını Niyazi qoymuşdur. O, Türkiyədə dəfələrlə olmuşdur. O vaxtlar, yəni Türkiyə ilə heç bir əlaqəmiz olmadığı bir dövrdə bunları Niyazi etmişdir. Böyük türk bəstəkarı Adnan Sayqunun «Koroğlu» operasını da məhz Niyazi səhnəyə qoymuşdur. Niyazi bu işin də öhdəsindən çox məharətlə gəlmişdir.

Əlbəttə, bu gün mən Niyazinin həyat və yaradıcılığı haqqında məruzə etmək fikrində deyiləm. Bunu musiqişünaslarımız edəcəklər və etməlidirlər. Mən əsla şübhə etmirəm ki, Niyazinin yaradıcılığı, Azərbaycan musiqisinin inkişafında xidmətləri haqqında, onun yaradıcılığının bənzərsizliyi haqqında məqalələr, kitablar yazılacaqdır.

Burada bəzi anlar yadıma gəlir. İndi mən bu ev-muzeyində onları açıb söyləmək istəyirəm, qoy hamı bilsin. Məlumdur ki, keçmiş Sovet İttifaqında professional musiqi çox inkişaf etmişdir. Ancaq bizdə olan professional musiqinin inkişaf səviyyəsinin bir çox müttəfiq respublikalarla müqayisə etdikdə böyük fərqlər olduğunu daim görürdük və bununla haqlı olaraq fəxr edirdik. Bu, şübhəsiz, Üzeyir Hacıbəyovdan başlamış böyük bəstəkarlarımızın xidmətidir, eyni zamanda böyük dirijorlarımızın və sənətin ən yüksək zirvəsində duran Niyazinin xidmətidir.

Qoşa gedirdilər şərəfli yolu
Böyük ürəkləri sevgiylə dolu



Qoşa gedirdilər şərəfli yolu
Böyük ürəkləri sevgiylə dolu

## MİLLİ DRAM TEATRINDA İ.ƏFƏNDİYEVİN «HÖKMDAR VƏ QIZI» TAMAŞASI



Tamaşadan sonra yaradıcı heyətlə görüşən prezident demişdir: - İlyas Əfəndiyev Azərbaycan teatrına çox böyük töhfələr veribdir, böyük xidmətlər göstəribdir, çox dəyərli əsərlər yaradıbdır. İ.Əfəndiyevin yaradıcılığı başqa cəhətlərlə yanaşı, bir də ona görə əhəmiyyətlidir ki, o öz əsərlərində həm Azərbaycan xalqının tarixinin çox mühüm səhifələrini ədəbiyyat, teatr vasitəsilə bugünkü nəsillərə çatdırıbdır, həm də öz əsərlərində müasir həyatımızın müsbət və mənfi cəhətlərini çox gözəl təsvir edibdir. Beləliklə, xalqımızı həm tarixə hörmət bəsləməyə sövq etmişdir və bu barədə xidmətlər göstərmişdir, tarixi bilmək üçün xalqımıza yardım etmişdir, eyni zamanda yaşadığımız zamanda mənəviyyat, əxlaq, insanlıq, vətənə və millətə sədaqət ruhunu aşılamışdır. Hesab edirəm ki, xalqımız bu əsərlərdən çox bəhrələnmişdir. Şübhəsiz ki, biz İ.Əfəndiyevin xatirəsini əbədiləşdirmək üçün qərarlar da qəbul edəcəyik, çünki o buna layiqdir. Belə əsərlərlə o, onsuz da özünü xalqın qəlbində yaşadacaqdır.

Onun son əsəri, bu gün sizin təqdim etdiyiniz əsər, həyatımız üçün çox

əhəmiyyətlidir. Bu gün salonda üç saatdan artıq vaxt çox tez gəlib keçdi. Yəni tamaşa o qədər maraqlı, məzmunlu, mənalı idi, həm də siz hamınız o dərəcədə gözəl ifa etdiniz, salonda oturanlara bu əsəri gözəl çatdırdınız, o cümlədən mən də, heç hiss etmədim ki, nə qədər vaxt keçibdir... Mən sizi təbrik edirəm.

... Ancaq bu əsərin ikinci tərəfi də var. Bir var ki, bizim tariximizi aydınlaşdırır, amma ikinci tərəfi bundan da əhəmiyyətlidir: Xalqımızda vətənpərvərlik yaradır, müstəqillik, milli azadlıq hissiyatlarını beyinlərə həkk etdirir, xalqımızı bu istiqamətdə tərbiyələndirir. Bu baxımdan əsərin aktuallığı çox böyükdür.

Bu gün çox böyük təəssüratlar altındayam. Hesab edirəm ki, bu, bizim mədəni həyatımızda çox əlamətdar bir hadisədir. Bu əsəri geniş təbliğ etmək lazımdır. Bizim gəncləri bu tamaşaya mütləq gətirmək lazımdır. Universitetlərdən, məktəblərdən gəlsinlər baxsınlar.

Azərbaycan Prezidenti Heydər Əliyev görkəmli alim İhsan Doğramacıya müraciətlə dedi:

- İhsan bəy, artistlərimizi görürsənmi? Bunlar bir-birindən gözəl və dəyərlidirlər. Təsəvvür elə, sən Türkiyədə yaşayırsan, mənim də qardaşımsan, Azərbaycan xalqının böyük dostusan. Azərbaycan xalqının istedadına bax, 125 illik tarixi olan teatrı var. Hansı müsəlman ölkəsində, hansı Şərq ölkəsində bu var? Yoxdur! Bu Azərbaycandadır. Azərbaycanın bu tarixi nailiyyətləri ilə biz fəxr edə bilərik və fəxr edirik.

Ona görə də mən bu aktyorları bir-birindən ayırmaq istəmirəm. Rejissoru, rəssamı, bəstəkarı, aktyorları da. Çox gözəl oynadınız. Çox sağ olun, təşəkkür edirəm. Mən sizin hamınıza yeni-yeni uğurlar arzulayıram və çox məmnunam ki, mənim dostlarım da burada oldular, tamaşanı gördülər.

Professor İhsan Doğramacı dedi:

- Mən də çox həyəcanlandım. Əlbəttə ki, bu əsəri tez-tez təkrarlamaq lazımdır. Təklifim budur ki, tamaşanı videolentə çəkib, heç olmasa ayda bir dəfə televiziya vasitəsilə xalqa göstərmək lazımdır. Əsər çox mühüm mövzuya həsr olunub, Azərbaycanın müstəqilliyi baxımından çox ibrətamiz əsərdir.

**AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV NOVRUZ ŞƏNLİKLƏRİNDƏ**

**Məcnun Kərimov**: Möhtərəm prezident, bu ansambl Sizin sərəncamınız, diqqət və qayğınız sayəsində yaranmış və formalaşmışdır. Mən söz verirəm ki, biz zəngin orta əsr musiqi mədəniyyətimizi Sizin adınıza layiq, yüksək səviyyədə təbliğ edəcəyik. İcazə verin, iki hədiyyəni Sizə təqdim edək. Bunlardan biri bizim qədim musiqi alətlərindən ibarət suvenirdir, ikincisi isə Azərbaycan xalqının XIV əsrdə yaşayıb-yaratmış çox görkəmli musiqişünası Əbdülqadir Marağinin imam həzrət Əliyə həsr etdiyi "Heydərnamə" əsəridir. Bu əsəri biz bərpa etmişik, qədim musiqi alətləri ilə Sizin şərəfinizə səsləndirmək istəyirik. Bizə göstərdiyiniz diqqət və qayğıya görə bir daha çox sağ olun.

**Heydər Əliyev**: Sağ olun. Çox yaxşı ansambl yaratmısınız. Siz bizim qədim musiqimizi bərpa etmisiniz. Bu, çox əhəmiyyətlidir, çox maraqlıdır. Şübhəsiz ki, indi müasir həyat müasir musiqi nümunələri tələb edir, Azərbaycanda da bu çoxdur və bundan narahat olmağa dəyməz. Amma biz göstərməliyik ki, xalqımız həmişə musiqisevər, musiqi yaradan xalq olub və belə musiqilər yaradıb. Siz dediniz ki, Əbdülqadir Marağinin "Heydərnamə" əsəri həzrəti Əliyə həsr olunub?

**Məcnun Kərimov**: Bəli, cənab prezident, imam Əliyə həsr olunub. Bildiyiniz kimi, imam Əlinin bir adı da Heydər olub. Ona görə də bu əsər "Heydərnamə" adlanır. Əbdülqadir Marağinin 28 əsəri dövrümüzə qədər gəlib çıxmışdır. Onlardan beşi ansamblın ifasında hazırlanmışdır. Bu əsərlərdən biri də "Heydərnamə"dir. Gələcəkdə biz hazırladığımız əsərlərin hamısını Sizin qarşınızda ifa etməyi arzulayırıq.

**Heydər Əliyev**: Çox sağ olun. Bilirsiniz, imam həzrət Əli bizim üçün müqəddəs şəxsiyyətdir. Bu ad da müqəddəs addır və həzrət Əlinin o biri adı da Heydərdir. Xoşbəxtəm ki, valideynlərim mənə bu adı veriblər və mən də bu adı çox böyük iftixar hissi ilə daşıyıram. Amma, düzü, mən bilmirdim ki, Marağinin belə bir əsəri var. Bunu siz bu gün mənim üçün açdınız. Çox sağ olun, mən sizə təşəkkür edirəm.





**SSRİ xalq artisti Lütviyar İmanovla** Heydər Əliyevin söhbətləri əsasən «Koroğlu» operası üzərində qurulub.

- Azərbaycan opera səhnəsində Bülbül, Lütviyar çox gözəl, bir-birindən fərqli Koroğlu obrazı yaradıblar. Bu gün söhbət açdığım Lütviyarın ifasını mən həmişə sevmişəm. Tam fərqli zil səsə malik Lütviyar Koroğlunun daxili aləmini səhnədə cəngavərcəsinə yaradırdı, azəri kişilərinin səhnədə obrazlarını canlandırırdı. Səhnədə Lütviyar, Lütviyar olduğunu unudurdu, fikri, xəyalı Koroğlunun yanında idi. Çünki o dərk edirdi ki, Azərbaycan qəhrəmanının obrazını yaradır.

Lütviyar pianoçuların müşayiəti ilə xalq mahnılarımızı özünəməxsus ifa tərzində oxuyurdu və boğazları ilə mahnılara xırdalıqlar qatırdı. Eşitdiyimə görə öz bəstələri də var. Dünya operalarından ariyalar Lütviyarın ifasında gözəl səslənir. Lütviyar ciddi nizam-intizama malik bir sənətkardır, sənətindən sui-istifadə etməyib, sənət naminə yaşayıb-yaradıb. SSRİ xalq artisti adına layiq görülən ilk sənətkarlarımızdandır.

Lütviyar ilk baxışdan tamaşaçıda özündən razı təsiri bağışlayır. Əslində isə bu belə deyil, o çox kövrək qəlbə malikdir. Yaratdığı obrazın və ifa etdiyi ariyanın, operanın ciddiliyindən səhnədə o ciddi görünür. Elə bu ciddilik, ciddi musiqiyə sevgi Lütviyarı Lütviyar İmanoy zirvəsinə qaldırıb.

Lütviyar İmanov operamızın yadda qalan Koroğlularından biridir. O, öz Koroğlusunu yaradıb, Bülbülün Koroğlusunu təkrarlamayıb. Vətənpərvərlik hissi güclü olan Lütviyarda Hər bir ifa gözəl, təsirli və hissiyatlıdır, çünki o duyğusal sənətkardır. Bəzən o zildən oxuyanda qorxuram ki, səsi batsın. Ancaq o səsinə çox gözəl qulluq edir.




**ŞAİR FİKRƏT QOCANIN 60 İLLİK YUBİLEY GECƏSİNİN FASİLƏSİNDƏ**

Yubiley gecəsinin fasiləsində respublika prezidenti Heydər Əliyev Fikrət Qoca ilə və burada iştirak edən bir qrup ziyalı ilə görüşüb söhbət etdi.

Fikrət Qoca xəstəliyi ilə əlaqədar Moskvaya gedərkən o vaxt onun müalicəsi üçün yaratdığı şəraitə görə Heydər Əliyevə dərin təşəkkürünü bildirdi. Dövlət başçısı şair Fikrət Qocanın səhhətinin yaxşılaşması üçün bütün imkanlarından istifadə etdiyini xatırlayaraq Moskvada onun müalicəsini daim nəzarəti altında saxladığını söylədi. O dedi: Mən şadam ki, həmin vaxtdan on il keçmişdir və Fikrət Qoca yeni şeirlərini yazmış, ədəbiyyatımızın zənginləşməsi üçün öz fəaliyyətini indi də davam etdirir.

Fikrət Qocanın son illərdə qələmindən çıxmış aktual mövzulu şeirlər barədə müsbət rəylər səsləndi.

Heydər Əliyev dedi ki, indi burada oturanlar 70-ci illərdə mənim Azərbaycana rəhbərlik etdiyim dövrdə ədəbiyyatımızı təmsil edirdilər. Süleyman Rüstəm, Rəsul Rza, Mirzə İbrahimov və başqaları həmin vaxt yaşlı nəslin nümayəndələri idi. Qabil isə bu iki nəslin ortasında idi. Mən indi burada iştirak edənlərə də gənc nəslin nümayəndələri kimi baxıram. Prezident zarafatla dedi ki, ümümiyyətlə, mən kiməsə qoca deməyin əleyhinəyəm.

Səmimi keçən söhbət zamanı müxtəlif mövzularda ətraflı fikir mübadiləsi oldu. Söhbətin iştirakçılarından Anar, Elçin, Qabil, Rəfiq Zəka Xəndan, Vahid Əziz, Bəkir

Nəbiyev, Polad Bülbüloğlü, Elmira Axundova, Fikrət Sadıq, Sabir Rüstəmxanlı və başqaları ədəbiyyatımızın, yaradıcı adamlarımızın problemləri və qayğıları barədə danışdılar, keçən illərdən xatirələr söylədilər. Onlar Azərbaycan prezidenti Heydər Əliyevin mədəniyyətimizin inkişafına göstərdiyi diqqəti yüksək qiymətləndirərək indiki çətin dövrdə sənət adamlarına dövlət qayğısının zəruriliyini vurğuladılar.

Azəbaycan ziyalılarının yaşlı nəsli ilə hər dəfə görüşməyindən məmnun olduğunu söyləyən Heydər Əliyev dedi ki, o, şeirə, sənətə yüksək qiymət verir. Büna görə də sənət adamlarının yeni nəsli ilə də görüşmək istəyir. Dövlət başçısı hazırkı dövrdə ədəbiyyatımızda gənc nəslin nümayəndələrinin iştirakı ilə maraqlandı. Qeyd olundu ki, Azərbaycanda belə gənclik mövcuddur.

Yaradıcı adamların problemlərinə öz münasibətini bildirən respublika rəhbəri dedi ki, o vaxtlar imkanlarımız böyük idi. Hazırda hamıya məlumdur ki, vəziyyət o vaxtkı kımi deyil. Ancaq mən yenə də yaradıcı adamlarımızla görüşüb onların çətinliklərinin aradan qaldırılması üçün əlimdən gələni etməyə hazıram.

Heydər Əliyev Moskvadan Azərbaycana qayıtdığı illərə təsadüf edən Yazıçılar Birliyinin qurultayında iştirakı barədə danışaraq dedi ki, o vaxtlar mən təzyiq və təqilər altında idim. Bu 1991-ci ildə idi. Həmin il fevralın 5-də respublika Ali Sovetinin sessiyasında mən açıq şəkildə öz sözlərimi dedim. Əleyhimə çıxışlar oldu. Bunlar yəqin ki, yadınızdadır. Məni müdafiə edənlər də oldu. Prezident bununla əlaqədar Bəxtiyar Bahabzadənin çıxışını xatırlatdı.



Daha sonra Heydər Əliyev dedi: "Mən hətta sessiyadan sonra istəyirdim Naxçıvana qayıdam. Dedilər ki, martın 7-də yenə də sessiya var. Sessiyanın gündəliyi ilə maraqlanarkən aydın oldu ki, o, Sovet İttifaqının saxlanılıb-saxlanılmamasına münasibət bildirmək üçün çağırılır. Mən həmin sessiyada da çıxış etdim və dedim ki, SSRİ qalmamalıdır. Büna görə də mənə pis münasibət bəsləyənlər oldu. Ancaq hər halda mən öz sözümü dedim".

Prezident sözünə davam edərək dedi: "Sonra mən evə gəldim. Bayaq dediyim kimi, Yazıçılar Birliyi müzakirə edərək qərara gəlmişdi ki, məni öz qurultayına dəvət etsin. Mən iştirak etməyə razılıq verdim. Ziyalılarımızla çox mehribanlıqla görüşdük. Azərbaycana rəhbərlik etdiyim dövrdə Yazıçılar İttifaqının bütün qurultaylarında iştirak etmişdim".

Söhbət zamanı Cəfər Cabbarlının, Rəsul Rzanın vaxtilə keçirilmiş yubileyləri barədə də danışıldı. Sənətkarların xidmətlərinə onların peşəkarlığına görə qiymət verməyin düzgün olduğu vurğulandı. Səməd Vurğunun, Məhəmməd Hadinin, Süleyman Rüstəmin, Cəfər Xəndanın yubileylərinin qeyd edilməsi lüzümundan bəhs olundu.

Söhbətdə yaradıcı adamların təminatı, ədəbi qəzet və jurnalların nəşri ilə bağlı məsələlərə də toxunuldu. Dövlətin imkan daxilində bu sahələrə diqqəti gücləndirməsinin əhəmiyyəti barədə danışıldı. Elm, mədəniyyət, təhsil və ümumiyyətlə intellektual potensialımızın qorunması və daha da inkişaf etdirilməsi üçün xüsüsi fond yaradılması zərurəti barədə fikirlər üst-üstə düşdü. Bu fondun "Heydər Əliyev fondu" adlandırılması barədə çoxlu təkliflər olduğu bildirildi.

Dövlət başçısı dedi ki, belə bir fond yaradılması barədə irəli sürülmüş təşəbbüslərdən xəbəri var və hətta ona fondun nizamnaməsinin bir neçə layihəsini də təqdim etmişlər. Heydər Əliyev dedi ki, o da mədəniyyətimizin tərəqqisi naminə, yaradıcı adamlara qayğı, ayrı-ayrı tədbirlərin həyata keçirilməsi üçün belə bir fonda ehtiyac olduğunu hiss edir. O dedi ki, mən imkan tapan kimi bu məsələ ilə məşğul olacağam.

Söhbətdə iştirak edən ziyalılar səmimi görüş üçün dövlət başçısına təşəkkürlərini bildirdilər. Prezident Heydər Əliyev belə görüşlərin əhəmiyyətini vurğulayaraq dedi ki, biz xalqımızın əmin-amanlığı, respublikamızın inkişafı üçün birlikdə işləmişik və indən sonra da öz səylərimizi davam etdirəcəyik. Hər kəs öz yerində Azərbaycanın qüdrətlənməsi üçün əlindən gələni etməlidir

Axırda prezident Heydər Əliyev yubiley münasibətilə Fikrət Qocanı bir daha təbrik etdi.



**Xalq artisti Ağaxan Abdullayev**:

Yaxşı yadımdadır, Əziz Əliyevin yubileyi dövlət səviyyəsində qeyd olunurdu. Xarici ölkələrdən də qonaqlar gəlmişdi, hətta Dağıstanın baş naziri də müsafir idi. Mən də həmin tədbirdə iştirak edirdim. Zil bir pərdəni oxudum, tədbirdən sonra pərdə arxasına keçən prezident ifamı bəyəndiyini, hətta bir qədər həyəcan keçirdiyini belə ifadə etdi:

- Ağaxan, çox gözəl oxudun. Sən zilə çıxanda, inan Allaha, ürəyim ağrıdı ki, sən o zil pərdəyə necə çıxdın. Sən bir də çox zilə çıxma! Özünü qoru! Dağıstanın baş naziri də H.Əliyevin sözlərinə qoşuldu: H.Əliyev, Əziz Əliyevin Dağıstanda da keçirilən yubleyində Ağaxan iştirak etmişdi. Hətta o dərəcə gözəl oxumuşdu ki, biz onu Dağıstanda saxlamaq istədik.

**H.Əliyev:**

Yox, biz Ağaxanı heç kimə vermərik! O bizim özümüzə çox lazımdır!

Bu görüşümüzdən bir neçə ay sonra H.Əliyev mənə "Xalq artisti" fəxri adı verdi.

H.Əliyev hər zaman mənim qəlbimdə yaşayacaq və mən bir sənətkar, Hacı kimi ruhuna dualar oxuyur, ona tanrıdan rəhmət diləyir, ailəsinə xoşbəxtlik arzulayıram.



**BÖYÜK MAESTRO MSTİSLAV ROSTROPOVİÇİN İŞTİRAKI İLƏ KONSERT**

Dünya şöhrətli maestro Mstislav Rostropoviç Bakıya bir neçə dəfə gəlmişdi. Hər dəfə də dövlət başçımızla görüşərdi və çox səmimi söhbətləri olardı. Biz o görüşlərin yalnız birindən qeydləri diqqətinizə çatdırırıq.

Azərbaycan prezidenti Heydər Əliyev konsert qurtardıqdan sonra səhnə arxasında maestro ilə görüşdü. Dövlətimizin başçısı görkəmli musiqiçi Mstislav Rostropoviçi parlaq ifası münasibətilə ürəkdən təbrik etdi.

Prezident Heydər Əliyev dedi:

- Mən salonda əyləşib dinləyirdim və düşünürdüm ki, bu, hər hansı dəmirçinin zəhmətindən ağır zəhmətdir, hər hansı poladəridənin zəhmətindən ağır zəhmətdir, hər hansı bənnanın zəhmətindən, ən çətin fiziki işdən ağır zəhmətdir. Mən görürəm, ancaq siz bütün bunları böyük coşğunluqla, çox şövqlə və qüvvə ilə edirdiniz. Özü də siz konserti necə başladınızsa, o cür də tamamladınız. Mən cüzi də olsa, zəifləmə hiss etmədim. Bir sözlə, mən sizi təbrik edirəm.

**Mstislav Rostropoviç**: Elə siz də prezidentliyinizin əvvəlindən bu günə qədər beləsiniz.

**Heydər Əliyev**: Mən sizi təbrik etmək istəyirəm. Sizə təşəkkür etmək istəyirəm, ona görə ki, hər bir gəlişinizlə və görüşlərinizlə, keçdiyiniz ustad dərsləri ilə, nəhayət, şübhəsiz ki, konsertlə xalqımızı, Azərbaycanın mənəvi, mədəni həyatını zənginləşdirirsiniz. Bizim xalqımızın, sizin vətəninizin həyatını zənginiəşdirirsiniz. Açığını deyəcəyəm, siz buraya gəlməyə başlayan vaxtdan bəri çox şey dəyişmişdir. Baxın, orkestr necə də dəyişmişdir. Biz ona nə qədər qayğı göstərsək də, - əmək haqqını qaldırdıq, geyim

tikdirdik, alətlər aldıq, - bunlar hələ hər şey demək deyildir. Başlıcası odur ki, siz hər dəfə gəlişinizlə orkestrin səviyyəsini qaldırırsınız...

**Mstislav Rostropoviç**: Bura yeganə ölkədir ki, mən hər il gəlirəm və ustad dərsləri keçirəm.

**Heydər Əliyev**: Bu, bizim üçün fəxrdir, sevincdir. Ona görə də sizə xüsusi minnətdarlıq edirik. Mən çox böyük zövq aldım. Birinci hissədə siz violonçeldə ifa edəndə də və sonra Çaykovskinin ən mürəkkəb əsərlərindən birini ifa edəndə də İncəsənət xadimlərimizə və bizə - sıravi dinləyicilərə böyük sevinc bəxş etdiniz.

**Rastrapoyiçin H.Əliyevə sualı:**

- H.Əliyeviç, sizə ağrılı bir sualla müraciət etmək istərdim. Bilirsinizmi, Azərbaycanda məskunlaşan Qarabağ qaçqınlarının ağır vəziyyəti mənim qəlbimə işgəncə verir. Bu məsələnin həll olunmasının hər hansı bir perspektivləri varmı?

- Bilirsinizmi, bu mənim ürəyimdə ən ağrılı yaralardır. Düzdür, mənim aprel ayında ürəyimdə uğurlu cərrahi əməliyyat aparıblar. Bu yaralar yaxşı olub, amma qaçqınların taleyinin, ərazisinin 20 faizi işğal olunan Azərbaycanın son dərəcə ağır vəziyyətinin, öz yurdundan didərgin düşən bir milyon qaçqının ürəyimə vurduğu yaralar sağalmazdır. İnanın ki, mən gecə və gündüz bu barədə nəinki düşünürəm, hətta əlimdən gələni və mümkün olan hər bir şeyi edirəm.





**GÖRKƏMLİ BƏSTƏKAR, AZƏRBAYCANIN XALQ ARTİSTİ TOFİQ QULİYEVİN 80 İLLİYİNƏ HƏSR EDİLMİŞ YUBİLEY GECƏSİNDƏ**

Əziz Tofiq!

Mən 80 illik yubileyin münasibətilə sənə təbrik məktubu göndərmişəm. Onu da bil ki, mən göndərdiyim və ümumiyyətlə, yazdığım məktubların hamısını əvvəldən axıradək özüm yazıram. Siz də, hamınız da bilirsiniz ki, mənim dediyim sözlərin də hamısı öz beynimdən gələn sözlərdir, heç vaxt əlimdə kağız olmayıbdır. Sənin bu yubileyini belə təntənəli şəkildə keçirməklə biz hamımız borcumuzu yerinə yetirmişik. Bəlkə də mən buraya qalxmazdım. Ancaq hesab edirəm, sən bu yubileydə mənim haqqımda o qədər sözlər dedin ki, mən buraya gəldim sənə deyəm ki, bu sənin yubileyindir, bu gün sənin günündür.

Azərbaycan xalqı bəşəriyyətə çox görkəmli insanlar - şairlər, yazıçılar, alimlər, sərkərdələr, siyasətçilər bəxş etmişdir. Əziz Tofiq, onların sırasında sənin xüsusi layiqli yerin var.

Bu gün bu təntənəli mərasimdə, bu gözəl axşarada biz sənin həyatını başdan-ayağa izlədik. Əziz qardaşım, 80 yaşın tamam olarkən fəxr edə bilərsən ki, sən şərəfli bir ömür yaşamısan, böyük işlər görmüsən, xalqına sədaqətlə xidmət etmisən və xalqın üçün gözəl əsərlər yaratmısan. Ona görə biz hamımız sənə minnətdarıq, təşəkkür edirik. Sənin yaratdığın əsərlərə, xalqımıza bəxş etdiyin gözəl mahnılara, musiqinə, bəstəkarlığına, təşkilatçılığına, Azərbaycanın ictimai həyatında daim fəal iştirak etdiyinə görə sənə təşəkkür edirik. Sən böyük işlər görmüsən. Bu günkü bu mərasim sənin üçün bəlkə azdır. Sən bundan da böyük şöhrətə və

hörmətə layiqsən.

Azərbaycan xalqı 60 ildir ki, sənin mahnılarının təsiri altında yaşayır. Sənin mahnıların bizim xalqımıza, təkcə bizim xalqımıza yox, bəşəriyyətə, dünyaya böyük töhfələrdir. Sənin mahnıların, musiqin bizim xalqımıza sevinc gətirir, ilham verir, hər bir insan üçün yaşamağa, yaratmağa güc verir.

Musiqi ümumiyyətlə, insan üçün çox əziz olan bir sənət nümunəsidir. Musiqinin hər bir sahəsi həmişə insanlar tərəfindən sevilibdir. Ancaq mahnı, şərqi insanlara daha yaxın olubdur. Yəni əgər opera musiqisini, simfonik musiqini bir çox adamlar qəbul edir, ancaq o hamıya çatmırsa, amma mahnı və xüsusən sənin kimi bəstəkarın mahnıları demək olar ki, insanları - kiçikdən böyüyə qədər, cocuqdan yaşlıya qədər, qadını da, kişini də, hamını sevindirir və hamıya təsir edir. Ona görə də mahnı daim yaşayır.

Tofiq, sən fəxr edə bilərsənki, 80 yaşını belə gümrah, sağlam, gözəl şəraitdə keçirirsən. Sən bundan sonra da yaradacaqsan, yazacaqsan, bizi sevindirəcəksən, yeni-yeni mahnılar, musiqilər yaradacaqsan. Mən sənə cansağlığı arzu edirəm. Sənə yeni yaradıcılıq uğurları arzu edirəm.

Biz hamımız bu dünyadan gedəcəyik. Ancaq mahnı, musiqi yaşayacaq. Tofiq Quliyevin mahnıları, musiqisi daim yaşayacaqdır.

Eşq olsun musiqiyə! Eşq olsun incə sənətə! YaşasınTofiqQuliyev!

*Heydər Əliyevin bəstəkar, xalq artisti Tofiq Quliyevlə hər bir görüşü neçə-neçə xatirələri vərəqləyirdi: - Milli Təhlükəsizlik sistemində çalışırdım. Tez-tez T.Quliyevin təşkil etdiyi caz konsertlərinə gedirdim, bəzən hərbi geyimdə olduğuma görə musiqiçilər məndən çəkinirdi. Hətta onlar mənim gəlişimə başqa cür baxırdılar, elə bilirdilər ki, onları izləmək üçün bura göndəriblər. Əslində isə belə deyildi, caz sənətinə sevgim məni bu konsertləri dinləməyə aparırdı. Sistem işçisi olduğuma görə çox vaxt konsertlərə gələ bilmirdim. Gələndə də çalışırdım ki, eşidə bilmədiyim caz musiqilərini dinləyim. Birgün kollektivin rəhbəri Tofiq adlı gənci çağırıb, özümü təqdim etdim. Dedim ki, məndən çəkinməyin. Naxçıvanda caz təzə-təzə səslənir, mən caza, caz musiqisinə vurulmuşam. Simfonik musiqinin öz yeri var, caz musiqisi isə bir başqa aləmdir. Hər kəs cazı duyub qavraya bilməz! Həmin Tofiq dediyim gənc bu gün dünya səviyyəsində tanınan, dünyanı sənəti ilə fəth edən Tofiq Quliyevdir. Zərifə xanımın fortopiano arxasına keçib Tofiq Quliyevin «Sənə də qalmaz» mahnısını ifa etməsi hafizəmdən çıxmır, Zərifə xanım bu mahnını özünəməxsus tərzdə ifa edirdi.*

*Mən Tofiq Quliyevi o illərdən tanımışam və onu özüm üçün kəşf etmişəm, Azərbaycana rəhbərlik etdiyim illərdə həmişə sevdiyim bəstəkara diqqət göstərmişəm. Üzeyir Hacıbəyovdan sonra Tofiq Quliyev, maestro Niyazidən sonra Rauf Abdullayevimiz var. Onu da deyim ki, Tofiqin mahnıları o qədər gözəldi ki, hətta mən də yeri gələndə zümzümə edirəm.*

*Tofiq Quliyev Azərbaycan bəstəkarlıq və caz musiqisi məktəbini quranlardan və inkişaf etdirənlərdən biridir. Tofiq Quliyev dünya miqyaslı bəstəkardır, əsərləri dünyanı gəzir. Simfonik əsərləri, suitaları, rapsodiyaları və bəstələri maraqlı, məzmunlu və süjetlidir. Azərbaycan Tofiq Quliyevin əsərlərində daha vüqarlı, qürurlu, qüdrətlidir.*

*Tofiq Quliyevin yaşaması bizim musiqimizin yaşaması deməkdlr. Onun hər bir bəstəsi Azərbaycanı tərənnüm edir və Azərbaycançılığımıza xidmət edir. Tofiq Quliyevin Nəbi Xəzrinin sözlərinə bəstələdiyi «Azərbaycan» mahnısı Azərbaycana həsr olunan, onu tərənnüm edən mahnıların tacıdır. Hər dəfə bu mahnıya qulaq asanda azərbaycanlı olmağımla haqlı olaraq fəxr edir, öyünürəm.*

## XALQ YAZIÇISI, MƏŞHUR KİNO XADİMİ RÜSTƏM İBRAHİMBƏYOVUN 60 İLLİYİNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ

Əziz Rüstəm, 60 illik yubileyinlə əlaqədar, bu münasibətlə mən sənə təbrik məktubu göndərmişəm və məktub bu gün mətbuatda dərc olunubdur. Ancaq bu mərasimdə mən məktubda yazdığım sözlərə əlavə olaraq bir neçə kəlmə də demək istəyirəm.

Rüstəm İbrahimbəyov Azərbaycan ədəbiyyatına, mədəniyyətinə 60-cı illərin əvvəllərində gəlmiş böyük yaradıcılar dəstəsinin parlaq nümayəndəsidir. Rüstəm İbrahimbəyov o zamandan indiyə qədər öz yaradıcılığı ilə - nəsr əsərləri, kino əsərləri, səhnə əsərləri ilə Azərbaycan mədəniyyətini zənginləşdirmiş, dünya mədəniyyətinə layiqli töhfələr vermişdir. Rüstəm İbrahimbəyov çox məhsuldar yazıçıdır, dramaturqdur, kinossenaristdir, rejissordur. Onun yaradıcılığının çoxşaxəli, çoxistiqamətli olması da fitri istedadından irəli gəlir. Rüstəm İbrahimbəyovun yaratdığı əsərlər Azərbaycan oxucularını, keçmiş Sovet İttifaqının oxucularını və dünyanın bir çox ölkələrinin oxucularını sevindirmiş, onlara Azərbaycan həqiqətləri haqqında və ümumiyyətlə, müasir həyatımızın həqiqətləri haqqında çox gözəl məlumatlar vermişdir.

Rüstəm İbrahimbəyovun yaradıcılığı haqqında şübhəsiz ki, bizim alimlər, jurnalistlər, teatr, kino sənətinin tədqiqçiləri çox yazıblar və bımdan sonra da çox yazacaqlar. Çünki Rüstəm İbrahimbəyov indiyə qədər daim yazdığı, yaratdığı kimi, bu gün də yazır, yaradır və bu enerji ilə, bu istedadla hələ çox illər, on illər yazacaq,



yaradacaqdır, Azərbaycan mədəniyyətini daha da yüksəklərə qaldıracaqdır.

Rüstəm İbrahimbəyovun ilk addımları çox uğurlu olmuşdur. Şübhəsiz ki, mən Rüstəm İbrahimbəyovun əsərlərindən özümə çox əziz olan əsərləri xüsusi qeyd edirəm.

Məsələn, 1968-ci ildə çəkilmiş və təqdim olunmuş "Bir cənub şəhərində" filmi o vaxt Azərbaycan mədəniyyəti üçün, Azərbaycan kino sənəti üçün böyük bir hadisə oldu. Əgər nəzərə alsaq ki, bu Rüstəm İbrahimbəyovun birinci kino əsəri idi, yəni ssenarisini Rüstəm yazmışdı və Eldar Quliyevlə birlikdə bu filmi çəkib yaratmışdılar, təsəvvür etmək olar ki, ilk addımında Rüstəm İbrahimbəyov cəmiyyətə özünü çox gözəl təqdim etmişdir. Ancaq bəzən yaradıcılarda belə olur ki, onlar parlayırlar, sonra müəyyən qədər solurlar. Yaxud da ki, bir də qalxırlar, bir də düşürlər. Ancaq Rüstəm o vaxtdan indiyə qədər demək olar ki, yüksəlib irəli gedibdir.

Rüstəm İbrahimbəyovun bütün əsərlərində əsas məzmunu, mənanı təşkil edən budur ki, o, həmişə həyatın reallığını təsvir edibdir. Amma o dövrdə, sovet ideologiyası çərçivəsində bu o qədər də asan deyildi. Çünki bəzən bu istiqamətdə yazanlar bir az da kənara çıxanda dissident olurdular. Ancaq Rüstəm İbrahimbəyovun həyatı olduğu kimi təsvir etməsi və həyatın hər tərəfini - həm müsbət tərəfini, həm də mənfi tərəfini olduğu kimi göstərməsi onun yaradıcılığının ən gözəl cəhətidir və əsərlərinə böyük şöhrət gətirən amildir.

Mən qeyd etdim ki, bu o dövrdə bir o qədər də qəbul olunmurdu. Elə "Bir cənub şəhərində" filmi də ilk dəfə qəbul edilməmişdi. Onun ekrana buraxılması qadağan olunmuşdu. Ancaq məlumdur ki, o vaxt mən bu işə qarışandan sonra, - o vaxt mən hələ Azərbaycanın rəhbəri deyildim, Təhlükəsizlik Nazirliyinin başçısı idim, - o filmin yolu açıldı və film həm Azərbaycanda, həm də keçmiş Sovetlər İttifaqının hər yerində böyük rəğbətlə, böyük maraqla qarşılandı. Rüstəm bu yolu o vaxtdan indiyə qədər davam etdiribdir.

Məsələn, bəlkə də "Ad günü" filmi zahirən adi bir mövzuya aid olan bir əsərdir, - nə siyasi xarakter daşıyır, necə deyərlər, nə də bir böyük mövzu iddiasındadır. Amma mənəviyyatımızı, müasir həyatımızı, həyatımızın qüsurlarını nə qədər gözəl əks etdiribdir.

Xatirimdədir, mən bu filmə təsadüfən baxarkən heç bilmirdim ki, bu film nədir və kimindir. Ancaq mənə o qədər böyük təsir bağışladı ki, mən sonra bu filmin təbliğatçısına çevrildim. O vaxtkı dövrdə bu məsələni bilən adamlar xatırlamalıdırlar ki, mən bir neçə dəfə rəsmi müşavirələrdəki çıxışlarımda bu filmi təbliğ etdim. Hətta onu başqa ölkələrin bir neçəsinə göndərdim.

Yaxud, "İstintaq" filmi. Bunun da taleyi əvvəlcə o qədər uğurlu olmamışdır: film çəkilmişdi, ancaq onun ekrana buraxılmasının qarşısı alınmışdı.

Xatirimdədir, mən bunu biləndən sonra gördüm ki, bizim Azərbaycanın rəhbərliyində bu barədə çox ciddi fikir ayrılığı var. Mən büro üzvlərini dəvət etdim, - o vaxt Azərbaycanın rəhbərliyi Kommunist Partiyası Mərkəzi Komitəsinin bürosundan ibarət idi, - birlikdə bu filmə baxdıq. Rüstəm, sənin xatirindədir, Nizami adına kinoteatrın binasında o vaxt Kinematoqrafiya İdarəsi yerləşirdi.

**Rüstəm İbrahimbəyov**: Bəli, yaxşı xatirimdədir, indi də orada yerləşir.

**Heydər Əliyev**: Orada kino zalı var idi, filmə orada baxdıq. Filmə baxıb qurtarandan sonra gördüm ki, mənim həmkarlarım çox narahatlıq keçirirlər. Birindən

soruşdum, başını buladı. O birisi dedi ki, yox, bu filmə baxmaq lazımdır. Hamısını dinlədim. Ancaq axırda bu filmin tək Azərbaycan üçün yox, bizim o vaxtkı ölkəmiz üçün çox dəyərli olduğunu bildirdim və bu film çox böyük uğurla o vaxt Sovetlər İttifaqının bütün respublikalarında göstərildi, nəhayət, Sovet İttifaqının dövlət mükafatına layiq görüldü.

Bu filmlərdə, - tək bu filmlərdə yox, başqa səhnə əsərlərində də, başqa nəsr əsərlərində də, - dediyim kimi, Rüstəm İbrahimbəyov daim həqiqəti, reallığı əks etdiribdir. Ancaq o dövrdə bu təşəbbüsdə bulunmaq, bu yolla getmək və beləliklə, əsərləri yaymaq, yaxud da əsərlərə uğur qazandırmaq asan deyildi. Buna baxmayaraq, Rüstəm İbrahimbəyov nə qədər çətinlikləri də olsa, nə qədər əziyyət də çəksə, heç vaxt öz iradəsindən dönməmişdir, bu yolla getmişdir. Amma hər dəfə qalib gəlmişdir. Nəhayət, bu əsərlər bəzən rəsmi dairələr tərəfindən qəbul olunmadığı halda ictimaiyyət tərəfindən, tamaşaçılar tərəfindən, oxucular tərəfindən çox böyük hörmətlə, ehtiramla, məmnuniyyətlə qəbul edilmişdir.

Beləliklə, Rüstəm İbrahimbəyov həm nəsr əsərlərində, həm səhnə əsərlərində, həm kino əsərlərində özünəməxsus bir yolla getmiş və bu gün də bu yol ilə gedir. Bu, bütün başqa cəhətlərlə bərabər, Rüstəm İbrahimbəyovun ən böyük nailiyyətlərindən biridir. Xatirimdədir, o vaxtlar Azərbaycanda bəzi yazıçılar, şairlər, bəzi tənqidçilər çalışırdılar ki, Rüstəm İbrahimbəyovu və Maqsud İbrahimbəyovu sovet ideologiyasının əleyhinə çıxan adamlar kimi ifşa etsinlər və belə cəhdlər də göstərilmişdi. Ancaq həqiqət bundan ibarətdir ki, mən o vaxtlar bunların qarşısını həmişə almışdım. Məni düzgün başa düşün, mənim dəstəyim, köməyim olmasaydı, necə ki, o vaxt bəzi belə gözəl yazıçıları, yaradıcıları sıxışdırırdılar, məhv edirdibr, onda bunlara da bəlkə belə bir ziyan dəyə bilərdi.

Bir dəfə - 1989-cu ildə Moskvada bir jurnalist məndən müsahibə götürərkən Azərbaycanın keçmiş dövrü haqqında, yəni 70-ci illərdə mənim Azərbaycana rəhbərlik etdiyim zamandan danışırdıq. Mənə sual verdi ki, sizdə, Azərbaycanda o vaxt dissident var idi, yoxsa yox idi? Dedim ki, yox idi. Dedi, nə üçün? Dedim ki, biz dissidentləri axtarmırdıq. Təbiidir, əgər axtarsaydıq, çox dissident çıxarmaq olardı. Amma biz axtarmırdıq. Bu nə deməkdir? Bu o deməkdir ki, həmin dissident sayılanların əsərlərini biz qəlbən qəbul edirdik və onların özünə yol tapması üçün imkanlar yaradırdıq. Beləliklə, həmin müəlliflərə öz həmrəyliyimizi bildirirdik. Ancaq geniş təbliğ etmirdik ki, biz bununla həmrəyik.

Məsələn, əgər o illər - 60-70-ci illərdə Azərbaycanda dissident axtarsaydıq, onlar çox idi. Ən böyük dissident Bəxtiyar Bahabzadə idi. Hətta mənim xatirimdədir, mən Təhlükəsizlik Nazirliyində işləyən zaman onun həbs olunması məsələsi qoyulmuşdu. Yaxud da ki, Xəlil Rza ən böyük dissidentlərdən biri idi. Çünki onun əsərləri, o cümlədən Bəxtiyar Vahabzadənin əsərləri həqiqəti deyirdi. Amma bu həqiqət o vaxtkı kommunist ideologiyasına zidd idi və buna görə də onlar dissident idilər. Ancaq biz Xəlil Rzanı da qoruduq, saxladıq.

Maqsud İbrahimbəyov, Rüstəm İbrahimbəyov əsl dissident idilər. Ancaq biz qoymadıq ki, onlar dissident olsunlar. Bəlkə də onlar indi heyfsilənirlər ki, o vaxt Əliyev qoysaydı və biz dissident olsaydıq, indi bəlkə hörmətimiz daha da artıq olardı.

Yaxud, götürək Anarı. O da dissident idi. Məsələn, "Qobustan" jurnalının

yaranması və o jurnalın səhifələrində yayılan əsərlər şübhəsiz ki, dissident xarakteri daşıyırdı. Mənim xatirimdədir, 1970-ci ildə Leninin 100 illiyi qeyd olunurdu. Azərbaycanda da biz Nəriman Nərimanovun 100 illiyini hazırlayırdıq. Çünki onlar eyni ildə - Leninin də, Nərimanov da 1870-ci ildə anadan olublar. O vaxt Moskvadan gəlirdilər və mənə deyirdilər ki, bəs burada millətçilik var, burada antisovet var, burada filan var. Hər dəfə baxırdım və onlara izah edirdim.

Bir dəfə Moskvadan numayəndə gəldi ki, belə şey olarmı, "Qobustan" jurnalında yazılıbdır ki, Nərimanov Lenindən də böyük adamdır. Dedim, a kişi, belə şey olmaz, yəqin sizə səhv deyiblər. Gətirin baxım. Gətirdilər baxdım. "Qobustan" jurnalında yazıçı nı İsa Hüseynovun Nəriman Nərimanov haqqında bir yazısı getmişdi. Orada yazmışdı ki, bəli, Nəriman Nərimanov Lenin deyil, Lenindən də üstün bir adamdır. Mən dedim, bilirsiniz nə var, indi bu yazıçıdır, yazıbdır, sərbəst adamdır. Bu o demək deyil ki, bizim də fikrimiz belədir. Bizim fıkrimiz belə deyil. Mən birtəhər bu məsələni sovuşdurdum. Amma sonra bunlara dedim ki, yaxşı, daha ağını çıxarmaym.

Yəni təkcə o deyil. Hələ mən bir faktı xatırlayıram. Amma həmin jurnalda belə yazılar çox gedirdi. Mən həmin jurnalı o vaxtlar daim oxuyurdum, izləyirdim. Görürdüm ki, yaxşı yazılardır. Bu yazılar nə idi? Bizim milli mədəniyyətimizi, milli keçmişimizi, milli ruhumuzu o vaxtlar təbliğ edirdi. Bizim rəsmi jurnallardan fərqli olaraq, bu jurnal bunları təbliğ edirdi və insanlarda milli ruhu oyadırdı, öz tarixinə, öz keçmişinə, öz mədəniyyətinə hörmət və ehtiramı yaradırdı. Çünki o dövrdə hesab edilirdi ki, oktyabr inqilabına qədər heç bir şey olmayıbdır, hamısı oktyabr inqilabından sonra olubdur. Bax, o illər bu cür oyanış bizim yazıçılarımızın çox əsərlərində olmuşdur. O cümlədən "Qobustan" jurnalında. Beləliklə, Azərbaycanda bu gənc insanlar həqiqəti deyirdi, düzü deyirdi və insanları həqiqətə çağırırdı. Bu sahədə Rüstəm İbrahimbəyovun xidmətləri çoxdur.

Rüstəm İbrahimbəyov, Maqsud İbrahimbəyov - bu iki qardaş Azərbaycanda ədəbiyyatın, mədəniyyətin inkişafında böyük xidmətlər göstərmiş, eyni zamanda yeni bir hadisə meydana çıxarmışlar. Azərbaycanda bir ənənə yaranıbdır: atası şair, yazıçı, oğlu da şair, yazıçı. Əgər keçmiş Sovetlər İttifaqına nəzər salsaq, başqa respublikalarda mən buna rast gəlməmişəm. Məsələn, Səməd Vurğun - oğulları Yusif, Vaqif yazıçılar, şairlərdir. Rəsul Rza, Nigar Rəfibəyli - oğlu Anar. İlyas Əfəndiyev - oğlu Elçin. Bu barədə daha da çox faktlar gətirmək olar. Yaxud da ki, Bülbül - oğlu Polad Bülbüloğlu. Bunlar ata-oğuldurlar. Amma iki qardaşın ikisinin də ədəbiyyat, mədəniyyət, kino sənətində eyni səviyyədə böyük fəaliyyət göstərməsi - bunlar Azərbaycan üçün yenidir. Bəlkə heç kəs buna fikir verməyibdir, amma mən bir az keçmişimizə baxanda bunu xüsusi qeyd edirəm. Maqsud, Rüstəm - paralel olaraq ikisi də bizim ədəbiyyatımıza, kinoya, teatra, mədəniyyətimizə gəlib və ikisi də çox uğurlu yol keçib. Bu gün də yazırlar və gələcəkdə də yazacaqlar.

Rüstəm İbrahimbəyovun yaradıcılığının əsas xüsusiyyətlərindən biri də odur ki, o öz yaradıcılığı ilə milli çərçivədə qalmayıbdır, keçmiş Sovetlər İttifaqında çox məşhurlaşıbdır və dünyada məşhurlaşıbdır. Bu, hər bir xalq üçün çox böyük əhəmiyyət kəsb edir. Şübhəsiz ki, biz öz mədəniyyətimizi, öz ədəbiyyatımızı, incəsənətimizi, kino

sənətimizi yüksək qiymətləndiririk və özümüz içərimizdə bununla fəxr edirik. Ancaq bizim mədəniyyətimizin nümunləri, Azərbaycan yaradıcılarının yaratdığı əsərlər Azərbaycanın hüdudlarından kənara çıxanda bu, Azərbaycan mədəniyyətini dünyaya da yayır. Bizim yazıçılarımızın, şairlərimizin, alimlərimizin əsərlərinin çoxu başqa dillərə çevrilib və yayılıbdır. Ancaq Rüstəm İbrahimbəyov öz əsərlərini həm Azərbaycan dilində, həm də rus dilində yazaraq, əsərlərinin çoxunu keçmiş Sovetlər İttifaqının oxucularına, tamaşaçılarına orijinalda təqdim edibdir, tərcümədə yox. Bu, birinci cəhət. İkinci cəhət də ondan ibarətdir ki, ümumiyyətlə, Azərbaycan həqiqətlərini daha da geniş yayıbdır. Bu da Rüstəm İbrahimbəyovun Azərbaycan xalqı qarşısında böyük xidmətləridir.

Rüstəm İbrahimbəyovun kino sahəsində fəaliyyəti həm də son illər Müstəqil Dövlətlər Birliyi və Baltik ölkələrinin Kino İttifaqları Konfederasiyasının yaradılmasıdır və onun həmin konfederasiyaya başçılıq etməsidir. Biz bununla fəxr edirik və təbii ki, Azərbaycan yazıçısının, Azərbaycan kino sənətinin bu konfederasiyanın başında durması bizim üçün böyük iftixar hissi doğurur.

Ümumiyyətlə, Azərbaycanın görkəmli mədəniyyət xadimlərinin Azərbaycandan kənarda fəaliyyət göstərməsi bizim üçün çox əhəmiyyətlidir. Bu baxımdan Maqsud və Rüstəm İbrahimbəyovların fəaliyyətini qeyd etmək olar, Tahir Salahovun fəaliyyətini qeyd etmək olar, Müslüm Maqomayevin fəaliyyətini qeyd etmək olar, Polad Bülbüloğlunun fəaliyyətini qeyd etmək olar və bir çox başqalarının fəaliyyətini qeyd etmək olar ki, onlar Azərbaycanda olduğu kimi, keçmiş Sovetlər İttifaqında da bilavasitə öz əsərləri ilə və öz yaradıcılıqları ilə məşhurlaşmışlar.

Bunlar hamısı Rüstəm İbrahimbəyovun yaradıcılığının nə qədər zəngin, nə qədər çoxşaxəli olduğunu göstərir. Təbii, biz fəxr edirik ki, Rüstəm İbrahimbəyovun əsəri "Oskar" mükafatını alıbdır. Fəxr edirik ki, keçmiş Sovetlər İttifaqının dövlət mükafatını alıbdır. Ancaq mənim üçün ən əzizi odur ki, Rüstəm İbrahimbəyovun əsəri Azərbaycanın dövlət mükafatına layiq görülübdür.

Burada bəzi filmlərin, əsərlərin adları çəkildi. Hamısı dəyərlidir. Ancaq mənim üçün ən dəyərlisi "Bir cənub şəhərində", "Ad günü" və "İstintaq" əsərləridir. Çünki bunlar bilavasitə Azərbaycanın həyatı ilə bağlıdır.

Beləliklə, Rüstəm, bu günlər biz sənin 60 illik yubileyini böyük sevinclə qeyd edirık. Mən məmnunam ki, bizim bu gözəl "Gülüstan" sarayının salonu sənin dəvətinlə Azərbaycanın ziyalıları ilə, mədəniyyət xadimləri ilə dolubdur. Bu da sevindirici haldır. Burada Anar Məmmədxanov dedi ki, indi yubileylər keçirmək mümkün olubdur, cürbəcür mədəniyyət, kino əsərlərinin baxışını keçirmək mümkün olubdur. Bəli, bu, müstəqil Azərbaycanın bugünkü reallığıdır. Əgər bu gün möhtəşəm "Gülüstan" sarayında Azərbaycan ziyalılarının böyük bir dəstəsi, demək olar ki, bütün sahələrdən olan ziyalıların nümayəndələri bir yerə toplaşıblarsa, dostluq, mehribanlıq şəraitində bizim dəyərli dostumuz Rüstəm İbrahimbəyovun 60 illik yubileyini qeyd edirbrsə, bu, çox əlamətdar bir hadisədir. Azərbaycanın prezidenti kimi və həyatını Azərbaycan xalqının həyatının inkişafına sərf etmiş bir adam kimi, bu məni çox sevindirir.

Azərbaycanın çox problemləri var. Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində Azərbaycan torpaqlarının bir qismi işğal olunubdur. İşğal edilmiş torpaqlarımızdan bir milyondan artıq azərbaycanlı yerindən-yurdundan didərgin

düşübdür, ağır vəziyyətdə çadırlarda yaşayırlar. Biz Ermənistanla gedən müharibədə çox şəhidlər, itkilər vermişik. Bunlar Azərbaycan reallığıdır və Azərbaycanın bu gününün bir hissəsidir.

Digər hissəsi isə ondan ibarətdir ki, Azərbaycan müstəqil dövlət kimi yaşayır, inkişaf edir, Azərbaycanın mədəniyyəti inkişaf edir, Azərbaycanın iqtisadiyyatı inkişaf edir və Azərbaycan müstəqil dövlət kimi artıq Dünya Birliyində özünəlayiq yer tutubdur.

Bu da Azərbaycanın reallığıdır. Əgər bu illər Azərbaycanın ziyalıları, mədəniyyət xadimləri, alimləri artıq bir yerə toplaşa bilirlərsə, bir-biri ilə görüşürlərsə, fikir mübadiləsi aparırlarsa, bir-birilə yubileylərini təbrik edirbrsə, şad günlərini bir yerdə qeyd edirlərsə, bu, Azərbaycanın həm reallığıdır, həm də Azərbaycanın inkişaf mərhələsində olmasını göstərir. Bax, bu hissiyyatlarla, bu duyğularla mən bu gün, Rüstəm, sənin 60 illik yubileyinə gəlmişəm.

Rüstəm, mən səni bir daha təbrik edirəm. Sənə cansağlığı arzu edirəm. Sənin ailənə, həyat yoldaşına, uşaqlarına, Maqsuda - sənin qardaşına, onun ailəsinə cansağlığı, xoşbəxtlik arzu edirəm. Sənə gələcək yaradıcılığında yeni-yeni uğurlar arzulayıram. Sağ olun.





**"BAKILI OĞLANLAR"IN YENİ YUMOR KOLLEKSİYASI**

Prezident Heydər Əliyev konsertdən sonra "Bakılı oğlanlar" komandasının üzvləri ilə səhnə arxasında görüşdü və onları təbrik edərək dedi:

- Salam, axşamınız xeyir. Sizi təbrik edirəm, çox gözəl çıxış etdiniz. Siz adətən rusca danışırsınız, amma mən istəyirəm azərbaycanca da danışmağı öyrənəsiniz. Görürəm ki, yavaş-yavaş öyrənirsiniz. Əlbəttə, KVN başlananda rus dilində olubdur. Keçmiş Sovetlər İttifaqında bu, başqa cur də ola bilməzdi. Çünki butun respublikaları gəzməli, umumittifaq müsabiqəsində iştirak etməli idi. Bu ənənə qalıbdır. Amma eyni zamanda, yavaş-yavaş Azərbaycan dilini də mənimsəmək lazımdır. Mən demirəm ki, rus dilindən imtina edəsiniz, ancaq bərabər olsun. Görürəm ki, Azərbaycan dilini bir az artırmısınız. Bu, çox yaxşıdır.

Sizi təbrik edirəm. Görürəm ki, tədricən inkişaf edirsiniz. İndi bilmirəm - siz KVN-siniz, yoxsa satira və yumor truppasına çevrilmiş yaradıcılıq qrupusunuz. Bunu demək mənə çətindir, mən sənətşünas deyiləm və hər hansı ad vermək istəmirəm. Lakin, hər halda, siz KVN səviyyəsindən qalxıb inkişaf etmisiniz və sanballı teatr konsert ansamblına çevrilmisiniz. Sizin əsas istiqamətiniz satira və yumordur. Bu isə yəqin ki, indi cəmiyyətimizə hər şeydən çox gərəkdir. Yəqin buna görə də çıxışlarınızın məzmunu və mənası kimi, yaradıcılığınızın janrı da tamaşanızı çox cazibədar edir.

Eşitdim ki, bu gun siz dördüncü dəfə çıxış edirsiniz və bütün çıxışlarınız böyük uğurla keçir, bu qədər iri salona çoxlu tamaşaçı toplayır. Bu, xoş hadisədir. Məsələn, son bir neçə

ildə sizi müşahidə edən bir insan kimi bunu görmək mənə xoşdur ki, siz istedada, özü də qeyri-adi istedada maliksiniz, həm də ifaçıların özlərinin bu istedadı yaradıcılıq inkişafında zənginləşir. Təbiidir ki, hər bir yaradıcı adam üçün, xüsusən satira və yumor janrında çıxış edən artist üçün istedad böyük əhəmiyyət kəsb edir. Nə kimi süjetlər yazılsa da, istedadı olmasa o, bunları göstərə bilməz. Siz istedadlı adamlarsınız və mənə elə gəlir ki, ən başlıcası bundan ibarətdir.

Onu da görürəm ki, sizin üçün yazan yaxşı müəllifləriniz var və ya özünüz də məharətlə yazırsınız. Bunların hər ikisi yaxşıdı. Sizdə çox yaxşı nömrələr var, onlar gülüş doğurmaqla yanaşı, məna yükünə və dərin məzmuna da malikdir. Mən bunu bəyənirəm, çunki adamlarımız üçün, cəmiyyətimiz üçün gərəklidir, faydalıdır. Siz böyük fayda gətirirsiniz.

Ürəkdən istəyirəm ki, istedadlar inkişaf etsin. Görürəm ki, onlar inkişaf edirlər. Yəqin ki, sizin yaradıcı kollektiviniz yeni-yeni istedadları özünə cəlb edəcəkdir. Məsələn, sizin aranızda yəqin elə adamlar var ki, onlar bir neçə il əvvəl burada deyildilər?

**Anar MƏMMƏDXANOV** ölkəmizin rəhbərinə cavab verərək dedi: Bəli, yox idilər. Məsələn, Murad Dadaşov 1996-cı ildə gəlibdir...

**Heydər ƏLİYEV**: Murad Ramil Usubov haqqında...

**Anar MƏMMƏDXANOV**: Məsələ burasındadır ki, o, həmişə Sizi təqlid edir.

**Heydər ƏLİYEV**: Bəs Ramil Usubovu?

**Anar MƏMMƏDXANOV**: Ramil Usubovu Cabir İmanov təqlid edir.

**Heydər ƏLİYEV:** O isə təkcə məni təqlid edir? Bu, azdır. Məni təqlid etmək isə həm



çətindir, həm də asan, xüsusi səy tələb etmir. Amma görürəm ki, bunlar yeni istedadlardır.

**Anar MƏMMƏDXANOV:** Cənab prezident, 1996-cı ildə Siz bizim konsertdə ilk dəfə olarkən bu iki cavan oğlan səhnəyə ancaq tort gətirirdi. İndi isə onlar səhnədə, demək olar, əsas adamlardır.

**Heydər ƏLİYEV**: Görursünüzmü, istedaddır. Bu istedad isə muvafiq muhitdə inkişaf edir. Onlar səhnəyə tort çıxarmağa utanmadılar və öz istedadlarını bu mühitdə, bu kollektivdə göstərə bildilər. Siz bu istedadı qiymətləndirdiniz. İndi isə, sənin dediyin kimi, onlar baş rollarda çıxırlar.

Həm də təkcə onlar yox. Hərə həm səsi ilə, həm də ifası, öz dəst-xətti ilə bir cür istedaddır. Bunların hamısı çox xoşdur.

Bu gün xoşuma gəldi ki, sizdə yaxşı səsi olanlar var, yaxşı oxuyursunuz. Zənnimcə, sizlərdən bəziləri artıq solist ola bilər. Bir baxın, sizin ifaçılarda, umumən kollektivinizdə nə qədər muxtəlif keyfiyyətlər cəmləşmişdir. Bütun bunlar çox xoşdur. Sizi urəkdən təbrik edir, yaradıcılıq uğurları arzulayıram. Bundan sonra da mənim dəstəyimə ümid bəsləyə bilərsiniz.

Mənə elə gəlir ki, oğlum sizinlə çox dostluq edir və yəqin ki, sizinlə məni möhkəm birləşdirən vasitəçidir.

Sizə yeni-yeni uğurlar arzulayıram. Ümidvaram ki, siz bizi yeni yaxşı nömrələrlə, yeni çıxışlarla sevindicəksiniz. Sağ olun.

Prezident Heydər Əlyev Ankarada olarkən yazılmış "Yaşa, prezident yaşa" mahnısı barədə də öz fikrini söylədi:

- Sizin dediyiniz kimi bu klip çox güclü təsir bağışladı. Mənə onun haqqında demişdilər. Ancaq o vaxt mən eşitməmişdim. Sonra oradakı telekanal bu klipi hər gun, hər saatdan bir göstərirdi. Mən bu təşəbbüsə görə sizə təşəkkür edirəm. Bu, mənə çox xoş idi, mən bundan təsirlənmişdim. Yaxşı mahnıdır, sözləri də yaxşıdır və siz onu urəkdən ifa etmisiniz. Gərək ki, bu mahnı Azərbaycanda da çox güclü təsir bağışlamışdır. Bir sözlə, buna görə sağ olun.

Mən buraya gələndə bu mahnının ifaçılarını dəvət etmək niyyətində idim. Ancaq bir-birinin ardınca gələn işlər vaxtımı elə aldı ki, mən bunu edə bilmədim. Fürsətdən istifadə edərək sizə təşəkkür etmək istəyirəm. Bəstəkar kimdir?

Musiqinin muəllifi Rəşad Haşımovu prezidentə təqdim edərək dedilər ki, Azərbaycanda ən məhşur olan "Rast" qrupunun rəhbəridir. Öz yaradıcılığında muğamla cazı məharətlə uyğunlaşdırır.

Prezident Heydər Əlyev bunu eşidərək dedi: muğamla cazın sintezi heyrətamiz hadisədir. Bunu yaradıcılıq baxımından gözəl, yaxşı bacaran adam, şübhəsiz, böyük muvəffəqiyyət qazanır. Təbrik edirəm. Bəs sözlərini kim yazmışdır?

Ölkəmizin rəhbərinə bildirdilər ki, mahnının mətninin muəllifi şair Fikrət Qocadır. Mahnını Azərbaycan estradasının bütün ulduzları ifa etmişlər.

Prezident Heydər Əliyev dedi:

Bu, mənə çox xoş idi. Bu, həm də böyük yaradıcılıq hadisəsidir. Çox sağ olun.





**Xalq artisti Müslüm Maqomayevin** sənəti hər zaman ölkə rəhbəri tərəfindən maraqla qarşılanmışdı. Müslüm Maqomayevin həyat yoldaşı Tamara Sinyavskaya ilə konsertindən sonra Heydər Əliyev üzünü mehriban sənət cütlüyünə tutaraq demişdi ki, siz səhnədə bir-birinizi çox gözəl tamamlayırsınız, səs tembrləriniz də oxşardır. Mən Müslümün ifasında Tofiq Quliyevin «Azərbaycan» mahnısına çox qulaq asmışam, ancaq Tamara xanımla bugünki dueti lap ürəyimdən xəbər verdi. Müslüm rus dilini mükəmməl bildiyi kimi, Tamara xanım da Azərbaycan dilini mükəmməl bilməlidir, çünki o, Azərbaycanımızın gəlinidir. Müslüm ölməz Müslümün yadigarıdır, atasına layiq bir övladdır. Moskvada yaşasa da hər zaman qəlbi Azərbaycanla döyünür. Heç nə yox, oxuduğu «Azərbaycan» mahnısına görə onu alqışlamağa dəyər. Müslüm əcnəbi, rus və digər millətə mənsub bəstəkarların əsərlərini, partiyalarını çox gözəl oxuyur. Qeyri-adi səsə malik olan Müslüm axtarışda olan sənətkardır. O, hər zaman axtarır, arxayınlaşmır, şöhrət onu yolundan azdırmır, əksinə hər zaman irəliyə getməyə, birinci olmağa səsləyir. Müslümü dünya tanıyır və qəbul edir. Azərbaycan sənətini dünyaya tanıdan, sevdirən ifaçılardan biri də Müslümdür. O bizim operaları gözəl bilir, opera səhnəmizdə parlaq obrazlar qalareyası da yarada bilərdi... Ən əsası odur ki, Müslüm deyiləndə qulaqlarda Azərbaycan adı səslənir. Mən Müslümdən çox şeylər gözləyirəm və ona özüm qədər inanıram. İfa etdiyi partiyalar məni qayğısız gənclik illərimə qaytarır.



**Heydər Əliyev Müslüm Maqomayev haqqında:**

Əgər Müslümün heç bir şeyi olmasaydı,
bu mənim öz fikrimdir, təkcə "Mənim Azərbaycanım"
mahnısına görə o ən yüksək hörmətə layiqdir.

**Xalq artisti Yalçın Rzazadə:**

1999-cu ilin axırı 2000-ci ilin əvvəlləri idi. Nüfuzlu dövlət konsertlərinin birində mən də çıxış edirdim. Konsertdən sonra bir qrup sənətçini, o cümlədən məni, Kamil Cəlilovu, skripka ifaçısı Esmira xanımı, Həsənağa Qurbanovu «Gülüstan» sarayında Prezidentin təşkil etdiyi ziyafətə dəvət etdilər. Qonaqların şərəfinə mahnılar oxuduqdan sonra Prezident adəti üzrə hər birimizə yaxınlaşıb hal-əhval tutdu, problemlərimizlə maraqlandı. Növbə mənə çatanda əlini çiynimə uzadıb özünəməxsus qeyri-adi təbəssümü ilə:

- Yalçın, olmaya sən də premyer ministr olmaq istəyirsən?
- Mən o dəqiqə başa düşdüm ki, prezident nəyə işarə edir. Deməli, o, mənim Baş Nazir Artur Rəsizadənin bacısı Tamilla xanımla eyni sinifdə, eyni məktəbdə oxuduğumuzdan halidir.
- Yoldaş Prezident, mən hələ oxuyuram - deyə cavab verdim.
- Onda oxu! - deyə cavab aldım.
- Prezident Həsənağa Qurbanovu görcək zarafatyana tənqidlə ona iradını bildirdi:
- Həsənağa, bu nə qarındı sallamısan? Eyibdi sənə.
- Həsənağa belə bir cavab gözləmədiyindən başını aşağı salıb:
- Yoldaş Prezident, arıqlaya bilmirəm.
- Az ye! Onda mütləq arıqlayacaqsan.
- Həsənağa ilə söhbətini bitirən Prezident yenidən üzünü mənə tutub dedi:
- Yalçın, mən 1979-cu ildə sənə ad vermişəm. Düzdürmü?
- Həsənağa dərhal mənim yerimə cavab verdi:
- Bəli, əməkdar artist.
- Prezident təəccüb və heyrətlə:
- Necə əməkdar? Məyər sən xalq artisti deyilsən? - dedi.
- Prezident tez Fatma Abdullazadəni yanına çağırıb mənim xalq artisti adı almağım üçün niyə təqdimatın edilmədiyi barədə maraqlandı. Göstəriş verdi ki, təqdimat yazılsın, imzalanmaq üçün Prezidentə təqdim edilsin.
- Bir neçə gündən sonra mən Heydər Əliyev cənablarının xüsusi sərəncamı ilə Xalq artisti fəxri adına layiq görüldüm. Hər dəfə o xoş günü xatırlayanda Heydər Əliyevin yaddaşına həsəd aparıram.







**HEYDƏR ƏLİYEV FİDAN VƏ XURAMAN QASIMOVALAR HAQQINDA**

- Tarix böyükdür, illər çoxdur, amma ifaçılar birdir, ikidir, üçdür... Ona görə də belə insanlar insanların ümumi sayına daxil ola bilməz! Onları həmişə ayrıca saymaq lazımdır - bir nəfər, iki nəfər, üç nəfər, dörd nəfər, beş nəfər. Allah eləsin ki, çox olsun. Mən demirəm ki, indi Fidanın da, Xuramanın da davamçıları olmayacaqdır, Azərbaycan səhnəsi boş qalacaqdır. Azərbaycan səhnəsinin iyirmi beş ilini opera səhnəsində operalarımızın əsas aparıcı rollarını Fidan xanım, Xuraman xanım ifa ediblər. Bilirsiniz, başqa janrlarda, başqa tamaşalarda, müxtəlif rollarda bizim çıxış etmək imkanı olan gözəl sənətkarlarımız var. Amma opera sənəti, klassik musiqi xüsusi səs, xüsusi istedad tələb edir, həm də o səsin hazırlanmasını tələb edir. Xalq mahnılarını hər bir az-maz oxuyan adam böyük səhnəyə çıxır və gedir, böyük alqışlar da alır. Ancaq bu qızlar - həm Xuraman xanım, həm də Fidan xanım yüksək, mürəkkəb ariyalarını oxumaq səviyyəsinə gəlmək üçün nə qədər oxuyublar, nə qədər musiqi təhsili alıblar, vaxt sərf ediblər, özlərini ariyaları mənimsəmək üçün məcbur ediblər və bu səviyyəyə gəlib çatıblar. Bu onların fədakarlığıdır.

- Fidan xanım, Xuraman xanım bizim indi qərb klassik operalarının ən

çətin, ən ağır partiyalarını böyük məharətlə ifa edirlər. Onu biz görmüşük opera teatrımızda. Onu biz bu gün kinolentlərdə də gördük. Onu ən nəhayət bu gün Fidan xanım, Xuraman xanım öz canlı ifaları ilə nümayiş etdirdilər. Beləliklə, zəngin mədəniyyətimizin ən dəyərli inciləri var. Bu incilər çox deyil və çox olsa da qiyməti olmaz. Ancaq onlardan ən dəyərlisi Fidan xanımdı, Xuraman xanımdı.

Bizdə keçmişdə ən qiymətli şeyi qızılla müqayisə edərdilər. Əgər bu keçmiş qayda ilə müqayisə etsək, onlar 999 probalı qızıldılar. Əgər almaz, brilliant daş-qaşları ilə ölçsək, mənə elə gəlir ki, bunlara bərabər nə brilliant tapmaq olar, nə almaz tapmaq olar, nə də o qiymətli daş-qaşlardan tapmaq olar. Bunlar onlardan qat-qat qiymətlidir.

Bunların xoşbəxtliyi nədir? Bunlar birinci İlahidən çox böyük fitri istedad alıblar, ikinci gözəl ailə, tərbiyəsi alıblar. Bunlar hamısı əsasdır. Ailə tərbiyəsi, yüksək mədəniyyətə malik ailədə həmişə seçilib. Onların atası, anası musiqiçi olublar, həm də bizim ziyalı olublar. Deməк ziyalıdan da ziyalıya fərq var. Bu ziyalılar Azərbaycanın keçmiş, köklü ziyalılarından olublar. Belə bir ailədə onlar böyüyüblər. Allah bunlara çox gözəl səs və həm də gözəllik verib.

Hesab edirəm ki, Azərbaycan opera teatrında onlar daima opera teatrının solistləridirlər. Ömürlərinin sonuna qədər. Bunu yazın, opera teatrı! Və mən əmr verirəm!













**RUSİYANIN BALET ULDUZLARI RESPUBLİKA SARAYININ SƏHNƏSİNDƏ**

Respublika Sarayında Rusiyanın məşhur balet ustaları Nadejda Pavlova və Vyaçeslav Qordeyevin, habelə "Moskvanın "Rus baleti" Dövlət Teatrının iştirakı ilə balet gecəsi keçirilmişdir. Azərbaycanın Milli Qurtuluş gününə həsr olunmuş gecənin təşkilatçıları "Azərbaycan mədəniyyətinin dostları" fondu və Most-bank, Azərbaycan Kommersiya Bankı idi. Salona toplaşanlar Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevi hərarətlə qarşıladılar.

Gecənin əvvəlində "Azərbaycan mədəniyyətinin dostları" fondunun üzvü, xalq artisti Fərhad Bədəlbəyli və "Media-most" birliyi baş direktorunun müavini Heydər Babayev dünya incəsənət ulduzlarının Azərbaycana gəlməsi üçün lazımi imkan və şərait yaratdığına görə ölkəmizin rəhbəri Heydər Əliyevə dərin minnətdarlıqlarını bildirdilər. Nadejda Pavlova və Vyaçeslav Qordeyev, habelə "Rus baleti" teatrının artistləri Çaykovskinin, Qriqin, Hendelin və digər xarici bəstəkarların baletlərindən partiyaları ifa etdilər.

Prezident Heydər Əliyev böyük uğurla keçən konsertin fasiləsi zamanı ictimaiyyətin və ziyalıların nümayəndələri ilə səmimi söhbət etdi.

Dövlətimizin başçısı balet gecəsi başa çatdıqdan sonra səhnə arxasına gələrək görkəmli

sənətkarlarla görüşdü və uğurlu çıxışlarına görə onlara ürəkdən təşəkkürünü bildirdi.

Prezident Heydər Əliyev dedi:

Sizin hamınızı gözəl çıxışınız münasibətilə təbrik edirəm. Bu gün bizdə incəsənət bayramı, balet bayramıdır. Hər şeydən öncə sizə Azərbaycana, Bakıya gəlməyə imkan tapdığınıza və bugünkü gözəl çıxışınızı iyunun 15-də qeyd etdiyimiz milli Qurtuluş günümüzə həsr etdiyinizə görə təşəkkür etmək istəyirəm. Respublikamıza, xalqımıza böyük diqqətinizə görə sağ olun.

Siz çıxışınızı layiqincə alqışlayan bütün tamaşaçılara böyük sevinc və zövq verdiniz. Siz Bakıya ilk dəfə gəlmişsiniz. Rus baletinin gözəl ustaları Nadejda Pavlova və Vyaçeslav Qordeyev və bütün bu qədd-qamətli və qəşəng balerinalar Bakıya ilk dəfə gəlmişlər. Siz bu gün çox əla rəqs etdiniz. Bu, böyük bayramdır və yəqin hiss etdiniz ki, tamaşaçılar sizi səhnədən buraxmaq istəmirdilər. Mən çox şadam ki, siz öz gözəl sənətinizi bizim tamaşaçılarımıza, xalqımıza göstərdiniz. Mən şadam ki, bu gün saraya toplaşmış ictimaiyyətimiz sizi bir daha şəxsən gördü. Çünki siz böyük incəsənət ustalarısınız və sizinlə hər görüş estetik zövqdən başqa, həm də böyük hadisədir. Çox sağ olun. Sizə ürəkdən təşəkkür edir, cansağlığı, yeni yaradıcılıq uğurları arzulayıram. Siz hamınız gözəl formadasınız və öz parlaq sənətinizi hələ uzun illər nümayiş etdirəcəksiniz. Rus baleti ən yüksək sənətkarlıq nümayiş etdirir. Mən şadam ki, rus baleti öz layiqli adını, ənənələrini saxlayır və siz bu gün bunu çox gözəl nümayiş etdirdiniz. Bir daha çox sağ olun.



**Xalq artisti Fərhad Bədəlbəyli:**

Tofiq Quliyev Azərbaycanda caz musiqisinin yaradıcılarındandır. Bu ənənəni T.Quliyev yaradır və Niyazi ilə birlikdə caz orkestrı yaradırlar. 1941-ci ildə müharibə başlandı, bu musiqiçiləri itirməmək üçün onlardan bir dəstə duzəldib Naxçıvana göndərirlər və orada qulluq edirlər. Tofiq Quliyev danışırdı ki, hər axşam yığışırdıq məşqə. Çünki təzə yaranmış bir orkestr idik. Bir nəfər hərbi geyimli, ucaboy bir cavan oğlan gəlib bizə qulaq asıb gedirdi. Heç bir söz də demirdi. Məəttəl qalırdıq ki, o dövrdə Naxçıvan bir əyalət şəhəri idi, caz musiqisi də təzə bir janrdır. Buna rəğbət və maraq göstərən kimdir axı?! Üstündən bir zaman keçəndən sonra tanış olduq. Məlum oldu ki, bu Dövlət Təhlükəsizlik Komitəsi sistemində işləyən cavan leytenant Heydər Əliyevdir.

Sanki bu yad bir janrdır, lakin içərisindəki o musiqi daima döyünürdü. Odur ki, caza da rəğbət göstərirdi...

Tofiq Quliyevin mahnılarına xüsusi məhəbbət bəsləyərdi və həmişə də Tofiq Quliyevin ən populyar mahnılarından «Sənə də qalmaz»ı ifa edərdi. Bu Rastrapoviç Bakıya gələndə biz onunla eyni süfrə arxasında əyləşəndə baş vermişdir. Onun yaxşı bariton səsi var idi. Onu mən müşaiyət edirdim. Rastrapoviç də deyirdi ki, Heydər Əliyeviç, gələn dəfə sizi mən müşaiyət edəcəyəm.

Bir dəfə Tofiq Quliyevlə mən pianoda onun üçün «Sənə də qalmaz»ı ayrı-ayrı tonal notda ifa etdik. H. Əliyev zarafatla bildirdi:

Eh, Zərifə xanım sizdən yaxşı çalırdı!

Doğurdan da rəhmətlik Zərifə xanım çox gözəl fortopiano çalırdı...

T.Quliyevin çox təntənəli yubiley mərasimi keçirildi. Yubiley münasibəti ilə H.Əliyev ona «İstiqlal» ordeni verdi. Təqdimetmə mərasimi günü T.Quliyev xəstəxanaya düşdü, ölkə rəhbəri həmin ordeni xəstəxanaya gəlib bəstəkara təqdim etdi. Bu onun böyüklüyü idi.





Heydər Əliyev pərdəarxası görüşlərinin birində üzünü xalq artisti, kaman ustadı Habil Əliyevə tutaraq demişdi ki, Habil, eşitmişəm ki, bir daha kamançada ifa etməyəcəyini söyləmisən. Mən bu gün sənin ifanı diqqətlə izlədim, deyim ki, çox da bəyəndim. Onu da qeyd edim ki, gənclik illərində ifa etdiyin kimi eyni həvəslə indi də kamanda ifa edirsən. Nə gizlədim, bu gün məni bir daha heyrətləndirdin.

Mətbuata verdiyin bir çox müsahibələri gözdən keçirəndə incik danışığını, incikliyini hiss etdim. Əgər sənin sənətinə ölkə rəhbəri qiymət verib, dəyərləndirirsə sənin heç kimdən inciməyə haqqın yoxdur! Kaman deyiləndə, Habil gözlərimizin önündə canlanır. Kaman sənətinin inkişafında xidmətlərin danılmazdır, sən ifa edəndə kaman ağlayır. Sən hətta daşları ağlatmaq qüdrətinə malik sənətkarsan.

Heç zaman imkan verməyəcəyik ki, sən kamanı atasan. (Güb-güb) Özbaşına deyilsən ki? Habil, sənətə gələn gənclərə kömək etmək, yardımçı olmaq hər birimizin borcudur, mən sizdən sənətinizə layiq tələbələr gözləyirəm. Bildiklərinizi gənc nəslə öyrədin, illər ötəndən sonra sizin sənət estafetinizi onlar davam etdirə bilsin.

Habil, sənin ifanda muğamlarımız, xüsusən Segah fəryad qoparır, insanı düşündürür, yaşadığın illərə dönüb təzədən baxmaq istəyirsən.

Mən səndən yeni-yeni ifalar gözləyirəm.



**Xalq artisti Arif Babayevin** Heydər Əliyevlə sənət söhbətləri də məzmununa görə digər görüşlərdən, söhbətlərdən fərqlənib.

Mən Arif Babayevin opera və balet teatrında Zeynəb Xanlarova ilə birgə oynadığı «Leyli və Məcnun» tamaşasının videoyazısına baxmışam. Zeynəb xanımın Leyli sevgisinə Arif Babayev layiqli Məcnunu ilə cavab verib. Dünyanı gəzən Zeynəb xanımla eyni səhnədə oynamaq, tərəf müqabil olmaq heç də asan iş deyildi. Ancaq Arif Babayev bunun öhdəsindən layiqincə gəldi, Məcnunun yaşadıqlarını tamaşaçılarda yaşatdıra bildi, Məcnıunun sevgi iztirablarını yaşayaraq Üzeyir bəyin arzuladığı Məcnun rolunu yarada bildi. Mən bunu alqışlayıram. Arif Babayevin oxuduğu muğamlar, təsniflər, xalq mahnıları çox gözəldir. Allah ona səslə bərabər, tamaşaçını düşündürəcək səhnə görkəmli bir sima verib. Bu gün Arif Babayev gənc xanəndələr yetişdirir, dərs deyir, gözəl mahnıların və təsniflərin müəllifidir. Onun ifasında «Qarabağ şikəstəsi» çox gözəl səslənir. Arif Babayev Qarabağ xanəndəlik məktəbinin yetirməsidir. İslam Rzayev, Əlibaba Məmmədov, Yaqub Məmmədov, Əbülfət Əliyev, Rübabə Muradova, Şövkət Ələkbərova, Sara Qədimova bizim xalq musiqimizin cəfakeşləridir. Mən onların hər biri ilə fəxr edirəm və muğamlarımızın, xalq mahnılarımızın, təsniflərimizin təbliğatçıları kimi fəaliyyətlərindən məmnunam.

Arif Babayevin ifaçılıq mədəniyyəti məni hər zaman Arif sənətinə hakim kəsilməyə ruhlandırıb. Onun ifasında qorunub saxlanılan millilik hər zaman, hər bir muğam ifaçısına nümunə olmalıdır!



Xalq artisti Sara Qədimova ilə Heydər Əliyevin pərdəarxası söhbətləri hər zaman səmimi olub. Adəti üzrə Heydər Əliyev Sara xanımı görən kimi üzünə qəribə bir təbəssüm qonur və deyir ki, ay Sara xanım, bir mənə söylə görüm, nə edirsən ki, belə dəyişməz qalırsan, yəni gündən-günə gözəlləşirsən. Hətta Türkiyənin Prezidenti Süleyman Dəmirəlin də şəxsi müsafiri oldun. Sara xanım, unutma ki, hər oxuyana Prezidentin şəxsi müsafiri olmaq şərəfi nəsib olmur. Görün siz nə dərəcədə Süleyman Dəmirəlin qəlbinə köçmüsünüz ki, o sizi qəbul edib, sizə görə bir çox görüşlərini təxirə salıb.

Sara xanım, siz Leyli də olmusunuz. Televiziya vasitəsilə həmin operanın lent yazısına da baxmışam. Şam səhnəsində səsinizin titrəməsi heç zaman yadımdan çıxmır. Böyük Vətən müharibəsi illərində oxuduğunuz «Şəfqət bacısı» mahnısı bu gün də qulaqlarımda səslənir. Böyük Üzeyir bəy həqiqətən bu mahnıya ürəyini qoyub. Sara xanım, bilirəm ki, müharibə illərində çox əziyyətlər çəkmisiniz, qayrıar nöqtələrdə döyüşən igidlərimizə muğamlarınızla qələbəyə inam hissi aşılaya bilmisiniz. Şükürlər olsun ki, bu gün atəşkəsdir, nahaq qanlar axıdılmır, insanlar azadə həyat sürürlər. Düzdür, çətinliklərimiz var, bunlar da müvəqqətidir. İnanıram ki, düşmən tapdağı altında qalan torpaqlarımızda yenə ürəkdən «Qarabağ şikəstəsi» səslənəcək. - Necə ki, siz hər hansı bir xarici dövlətdə, hətta Ermənistanda da «Qarabağın maralı» mahnısını oxuyaraq Qarabağın məhz Azərbaycana məxsus olduğunu sənətinizlə, ifanızla bəyan etmisiniz. Sara xanım, hərdən sizə baxanda Xan Şuşinski, Şövkət Ələkbərova və sizin Moskvada möhtəşəm bir tərzdə «Qarabağ şikəstəsi» oxumağınız kino lenti kimi gözlərimin önündə canlanır. Bu gün sənin də Ağdamında düşmənlər at çapır. Ancaq biz düşmən üzərində qələbə çalmağımıza inanırıq, çünki Azərbaycanda artıq ordu quruculuğu formalaşıb. Mən sizi dinləməkdən yorulmuram, əksinə dincəlirəm, yorğunluğum çıxır, zövq alıram. Xarici gözəlliyiniz aldığım zövqə xüsusi rəng verir və bir-birini tamamlayır.





**Xalq artisti Mələkxanım Əyyubova**:

Meydan konsertlərinin birində Prezident Heydər Əliyev mənimlə görüşdükdə sənətimlə bağlı bir neçə açıqlamalar verdi. Dedi ki, Mələk xanım, mən sənin «İrs» folklor ansamblı ilə, S.Rüstəmov adına xalq çalğı alətləri orkestri ilə çıxışlarını çox izləmişəm. Muğam ifaçısı kimi çıxışınızı da çox bəyəndim. Folklorumuz, bəstəkar mahnılarımız, muğamlarımız, xalq mahnılarımız ifanızda çox gözəl səslənir və heç kimə bənzəmir. Məncə siz Leyli rolunu da oynamısınız. Şirvan ifaçılıq məktəbinin bir nümayəndəsi kimi müraciət etdiyiniz qəzəllər fərqli və məzmunludur. Respublika Uşaq Muğam Müsabiqəsində tələbənizin birinci yeri tutması sizin pedaqoq kimi çoxşaxəli yaradıcılığınızdan və peşəkarlığınızdan xəbər verir. Qulu Əsgərovun yetirməsi olan Mələkxanım başqa cür də ola bilməz! Mənim sənə ümidlərim böyükdür. Həmdə sizin ciddi bir xanım olmağınız ifa etdiyiniz hər bir muğam parçasında özünü biruzə verir.



Heydər Əliyevin **xalq artisti Nəsibə Zeynalova** ilə pərdəarxası söhbətləri yaddaqalan olub. N. Zeynalovanın təltiflərinin birində Heydər Əliyev deyir ki.

Nəsibə xanım, sizin doğurduğunuz gülüş tam fərqli bir gülüşdür. Siz insanları düşündürə-düşündürə güldürürsünüz. Çox zamanlar sizin gülüşünüzə gülənlər var ki, onlar elə özlərinə gülürlər, çünki Nəsibə xanımın qəhrəmanları elə onlardır. “Qaynana” filmi və tamaşasında oynadığınız Cənnət xala obrazı, «Hicran» tamaşasındakı rolunuz məni həmişə güldürüb. Sizin gülüşünüz də təbiidir. Musiqili komediya janrında Lütvəli Abdullayev, Bəşir Səfəroğlu və siz əsil aktyor oyunu nümayiş etdirirsiniz, ssenaridən əlavə «atmacalarınız», «gözlənilməyən mizanlarınız» standart rejissor traktofkalarından qat-qat uzaqdır. Sizin bu «priyomlar» rejissor işinə uğur gətirir. Çünki siz səhnədə tamaşaçının ən çox nəyi düşünüb, gülmək istədiklərini dərindən duyursunuz. Sizin bu duyğu, duyum hər gülüş ustasında olmur. Məhəmməd-Züleyxa duetiniz Zərifə xanımın da çox xoşuna gəlirdi...

Nəsibə xanım, siz elə bir sənətkar, zirvəsiniz ki, gülüşün zirvəsi də, sonu da nöqtəsini sizinlə qoyur. Siz bizim musiqili komediyamızın nəinki parlaq nümayəndəsi, hətta onu yaradan insanlardan birisiniz. Sizin gülüş millilikdən gülüşdür, bayağılıq, şitlik, əxlaqa zidd sözlər, gərəksiz hərəkətlər səhnədə sizə yaddır. Elə sevilməyinizdə, uzun illər bu sevgini xalqın arasında qoruyub saxlamaq da şücaətdir.

Nəsibə xanım, sizin yerinizi əvəz edə biləcək ikinci bir sənətkarın yetişəcəyinə inana bilərikmi? Çətin... Ancaq bir ona inanırıq ki, Nəsibə sənəti əbədi sənətdir və Azərbaycan yaşadıqca yaşayacaq və insanları düşündürərək güldürəcək. Çöhrənizdən gülüş, təbəssüm heç zaman əskik olmasın. Oğlunuz Cahangirin də uğurlarını eşidirəm. Kaş Cahangir də sizin kimi sənətkar olub musiqili komediya janrımızı inkişaf etdirəydi. Nə əcəb ana-bala sənət dueti yaratmır? Bu barədə düşünsəniz, yerinə düşər.



**Heydər Əliyev:**

Hüseyn Cavid Azərbaycan xalqının tarixində görkəmli yer tutub. Məhz bunlara görə də biz 1981-ci ildə Hüseyn Cavidin anadan olmasının 100 illik yubileyi haqqında böyük bir qərar qəbul etdik. Bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, mən bu qərarın həm təşəbbüskarıyam, həm də onun müəllifiyəm. Bu gün mən xoşbəxtəm ki, həmin o vaxt nəzərdə tutduğum arzularım, istəklərim 15 ildən sonra yerinə yetirilir.

Burada qeyd olundu - 1982-ci ildə Hüseyn Cavidin cənazəsini uzaq Sibirdən Azərbaycana gətirmək asan iş deyildi. Bu, böyük iradə, cəsarət tələb edirdi. Ancaq xalqımıza, millətimizə, tariximizə, mədəniyyətimizə, ədəbiyyatımıza, mənəviyyatımıza olan sədaqət mənə belə bir cəsarət göstərməyə imkan verdi. Mən bunu etdim. O vaxt Hüseyn Cavidin cənazəsini Azərbaycana gətirərkən onu Bakıda, yaxud doğulduğu yerdə torpağa vermək barədə müxtəlif fikirlər var idi. Bu məsələ müzakirə olundu. Yazıçılarımız, alimlərimiz, ziyalılarımız böyük fikir mübadiləsi apardılar. Onlar qərar qəbul etdilər. Bu, mənim də qərarım idi ki, cənazə Naxçıvana gətirilsin.






1882 - 1941





**Respublikanın xalq artisti Tələt Qasımov:**

Dünya şöhrətli alim Zərifə Əliyevanın xatirə gününə həsr olunmuş tədbirdə mən də iştirak edirdim. Prezidentin qarşısında çıxış etmək çətin, şərəfli və məsuliyyətlidir. Növbə mənə çatanda «Gülüm, səni mən sevirəm» adlı qəzəli oxudum, prezidentin gözləri yaşardı. Doğrusu, çox qorxdum, dedim ki, mənimki elə bura qədərmiş. Birtəhər çıxışımı yekunlaşdırdım, ancaq prezidentin pərdəarxası söyləyəcəyi fikir mənim üçün əhəmiyyətli idi. Mənə yaxınlaşdı və dedi ki, çıxışınız çox xoşuma gəldi, gözəl oxudunuz, çox təsirli idi. Məncə, siz həm də ilk Həcc ziyarətinə gedən zəvvarlarımızdansınız. Sizə uğurlar arzulayıram, səsiniz həmişəki kimi təsirli və yanğılıdır, Zülfü məktəbi hiss olunur.

Bu tədbirdən bir neçə gün sonra mən prezident təqaüdünə layiq görüldüm. Qocaman sənətkara prezidentin diqqət və qayğısı sənətə olan diqqət və qayğı deməkdir. Mən həmişə prezidentimlə fəxr etmişəm, bu gün onun irsi oğlu və gəlini tərəfindən layiqincə davam etdirilir. Azərbaycan muğamı hər zaman yaşayıb və bundan sonra da yaşayacaqdır.


21 8 98







Respublikanın xalq artisti İlhamə Quliyeva ilə Heydər Əliyevin pərdəarxası söhbətləri özəlliyi ilə seçilib. İlhamə sənətinə xüsusi qiymət verən ölkə rəhbəri xanımla zarafatlar etməyi də yaddan çıxarmırdı. Bir gün Heydər Əliyev ekstrovaqant geyimdə olan İlhamə xanımı süzüb deyir: - Ay İlhamə xanım, belə gözəl bəzənməyə neçə saat vaxt sərf edirsən? İlhamə xanım da özünəməxsus bir tərzdə cavab verir ki, mən hər kişinin qarşısına belə geyinib çıxmıram, bilirəm ki, mənim Prezidentimdə olan zövq heç kimdə yoxdur. Hər sənətkar da xarici görünüşü, geyimi və ifası ilə Prezidenti düşündürüb onda maraq oyada bilmir. Əgər mən xarici görünüşüm, geyimim və ifamla Prezidentimin diqqətini cəlb edə bilmişəmsə, bu mənim bir xanım kimi xoşbəxtliyimdir.

Heydər Əliyev qeyd edir ki, İlhaməni lap uşaq vaxtlarından tanıyır, onun «Əməkdar artist», «Xalq artisti», «Şöhrət ordeni» almasında mənim də xidmətlərim az deyil. Bunlar İlhamənin halal qazancıdır, halalıdır. Mən həmişə İlhaməni dinləyirəm, onun heç kimə bənzəməyən səs tembri var. İlhamə sənətkar ailəsində dünyaya gəlib, anası fəxrimiz Tükəzban İsmayılovadır, atası Həbib Bayramov qüdrətli tarzənlərimizdən biri olub, uzun illər televiziya və radionun Əhməd Bakıxanov adına xalq çalğı alətləri ansamblının bədii rəhbəri və



konsertmeysteri kimi gənc ifaçıların yetişməsində danılmaz xidmətlər göstərib. Bu gün sənətkar ailəsində üç xalq artisti, iki «Şöhrət ordenli» sənətkar var, Həbib Bayramov bu gün də var və yaşayır. Düzdür, Həbib Bayramov dünyasını dəyişəndən sonra Tükəzban xanım əlinə mikrofon alıb oxumur, ancaq gənc xanəndələr yetişdirir. İlhamə öz ömründə həm Tükəzban xanımı, həm də Həbib müəllimi yaşadır, ifası, bacarığı, ən əsası vətənpərvərliyi ilə nümunə olub, digərlərindən seçilir. İlhamə qorxubilməz sənətkardır, mən bunu Prezident seçkilərində təbliğatından görmüşəm. İlhamə bir xanım kimi də kişilərin diqqətini cəlb edə bilir. Əgər Heydər Əliyevin diqqətini İlhamə xanım cəlb edə bilibsə, deməli o maraqlıdır.

**Xalq artisti Firəngiz Mütəllimova:**

Milli Qurtuluş günü münasibətilə «Gülüstan» sarayında dövlət rəsmiləri, sənət adamları, xarici qonaqların iştirakı ilə gözəl bir ziyafət hazırlanmışdı. Sənət adamlarının çıxışlarından sonra ölkə başçısı Heydər Əliyev hər birimizlə görüşüb, bayram sevincini bizlərlə bölüşdü. Məni görən kimi üzünə qəribə təbəssüm qondu:

Ay Firəngiz, 86-cı illərdə televiziyada fəğan eyləyirdin, tufan qoparırdın.
Arada yoxa çıxdın, harda idin?

- Hörmətli Prezident, siz Azərbaycandan gedəndə mən də getdim. Siz qayıtdınız, mən də qayıtdım.
- Deməli mənə görə getmişdin?
- Bəli, siz harda, mən də orda. Siz olmayan yerdə mənim nə işim.

Mənim bu cavabım Prezidentə ləzzət elədi, bütün xanım sənətçiləri iki dəfə öpən Prezident məni bərk-bərk qucaqlayıb beş dəfə öpdü və həmin gün Prezidentin ən çox öpdüyü xanım sənətçi mən oldum. Onun öpdüyü yeri düz üç gün yumadım, hər dəfə onun ətrini qoxuyurdum. Ömrümdə ən yadda qalan öpüş Prezidentin öpüşü idi, həm mənalı, həm təsirli, həm də fantaziyalı...

**Xalq artisti Səkinə İsmayılova:**

- Heydər Əliyevlə pərdəarxası söhbətlərimizin birində mənə dedi ki, Səkinə xanım, oynadığınız Leyli rolundan çox xoşum gəlir. Siz Leylinin daxili aləmini, psixoloji sarsıntılarını çox gözəl, professional bir tərzdə tamaşaçıya çatdırırsınız. Xarici görkəminiz, uca boyunuz sanki Leyli rolunun boyuna biçilib. Siz həmişə olduğu kimi bu gün də tamaşaçıların sevimlisisiniz. Bu sevgini siz illərlə, zərrə-zərrə qazanmısınız. Mən inanıram ki, səsiniz daha çox yerlərdən gələcək. Səkinə xanım, bəzən elə zildən, ürəkdən oxuyursunuz ki, mən qorxuram ki, səsiniz bata. Bir də onu qeyd edim ki, sizin səhnə mədəniyyətiniz, milli geyiminiz həmişə mənim üçün bir nümunə olub. Hər kəsi bundan nümunə götürməyə çağırıram.

**Xalq artisti Əlibaba Məmmədov:**

Heydər Əliyev Əlibaba Məmmədovla görüşdükdə deyir ki, Əlibaba, yaratdığın mahnıların hər biri Azərbaycan musiqi və xalq yaradıcılığı məktəbinin bir parçasıdır. Sizin yaratdığınız mahnılar xalq ruhuna yaxın olduğuna görə xalq tərəfindən sevilir və qəbul edilir. «Ürək deyir yaşa hələ» mahnısı sevdiyim mahnılardan biridir. Bu mahnıda sabaha ümid, yaşın, qocalığın əhəmiyyət kəsb etməməsi ön plana çəkilir. Belə mahnıları yalnız geniş ürəyə malik insanlar yarada bilər. Sənin «Azərbaycan», «Bakı» mahnıların da sevilir, Azərbaycanımızı, onun paytaxtı Bakımızı tərənnüm edir.

**Xalq artisti İslam Rzayev:**

1980-ci ildə V.İ.Lenin adına sarayda (indiki H.Əliyev adına saray) Respublika Həmkarlar İttifaqının növbəti hesabat yığıncağı keçirilirdi. Rəsmi hissədən sonra bədii hissə başlandı. Z.Xanlarova, L.İmanov, Fidan və Xuraman Qasımovalar, maestro Niyazi və başqa sənətkarların çıxış etdiyi dövlət konsertində 14 yaşlı məktəbli qızcığazın-Xeyrənisə Məmmədovanın C.Cahangirovun "Ana Kür" mahnısını oxuması respublika rəhbəri H.Əliyevin diqqətini o dəqiqə cəlb etdi, məktəbli qızın səsi, ifası onu sanki tilsimə salmışdı. Respublika rəhbərinin alqışı zalda əyləşənlərin alqışlarına qarışdı. Xeyrənisə Ə.Tağıyevin "Qəşəngdir" mahnısına keçid edəndə isə susmaq bilməyən alqışlar zalı bürüdü. Konsertdən sonra H.Əliyev pərdə arxasına keçib sənət adamları ilə görüşdü. Məktəbli Xeyrənisənin əllərindən tutub saçlarını tumarladı. Maestro Niyazi dedi ki, H.Əliyeviç, bu qız şəkərdir, müalicəyə ehtiyacı var, özü də Əmircanda yaşayır. H.Əliyev təəccübb maestroya dedi ki, ola bilməz! Bu hələ uşaqdır, nə şəkər? Qızım Xeyrənisə, valideynlərin kimdir - deyə H.Əliyev Xeyrənisənin üzündən öpdü.

Mənim valideynlərim fəhlədirlər.

- Bəs niyə şəkər olmusan?

- 7 yaşım olanda itlərdən qorxmuşam. Həyətimizdə çoxlu itlər var idi. Özümüzün itidir ey... hamısı. Bir gün itin biri üstümə cumdu, qorxdum ki, məni yeyəcək. O,vaxtdan şəkər olmuşam.



Elə həmin gün H.Əliyevin göstərişi ilə Xeyrənisəyə xüsusi həkim ayrıldı, muğam təhsili alması üçün Bülbül adına məktəbdə muğam sinfinin açılması və ora istedadlı gənclərin cəlb edilməsi məqsədilə respublika miqyaslı müsabiqələrin keçirilməsi haqqında ölkə rəhbərinin göstərişi verildi.

H.Əliyev:

- Qızım Xeyrənisə, Azərbaycanın rəhbərindən nə istəyirsən?

- Ev istəyirəm.

H.Əliyevin göstərişi ilə elə həmin gecə Xeyrənisə şəhərin mərkəzində 3 otaqlı, telefonlu mənzillə təmin olundu və evdən ilk təşəkkür zəngini mənə etdi. Dedi ki, İslam müəllim, mən sizə öz evimdən zəng edirəm, bu da mənim ev telefonum...

Doğrusu, əvvəlcə inanmadım, dedim,uşaqdır, bəlkə yalan danışır, ancaq bu həqiqət idi.

**BÜLBÜLÜN 100 İLLİYİNDƏ**

Azərbaycanın gözəl guşələrindən biri olan, canımız qədər istədiyimiz Qarabağ torpağında, müqəddəs Şuşa şəhərində dünyaya gəlmiş Bülbül öz fitri istedadı ilə, fədakarlığı ilə Azərbaycan mədəniyyətinin parlaq ulduzuna çevrilmiş və bizim milli iftixarımızdır. Bülbül Azərbaycan xalqının həyatında yeni bir bəşəri mədəniyyət nümunəsinin yaranmasının banisi olaraq, eyni zamanda xalqımıza bu sahədə çox uğurlar açmışdır.

1992-ci ilin may ayında Şuşa Ermənistan tərəfindən işğal olundu. İşğalçılar çox şeyləri dağıtdılar, o cümlədən bizim mədəniyyət abidələrimizi də... Ü.Hacıbəyovun, Natəvanın, Bülbülün heykəllərini güllələdilər. Ancaq erməni işğalçıları heç də bilməsinlər ki, o güllələr Ü.Hacıbəyov, Bülbül, Natəvan yaradıcılığını sarsıda bilər. Yox! O güllələrlə Azərbaycan xalqının mənəviyyatını sarsıda bilərlər? Yox!

Şuşanın işğalı daimi ola bilər? Yox!

Mən bütün Azərbaycan xalqının hissiyatını ifadə edərək deyirəm ki, Bülbülə olan, sənətinə olan bizim məhəbbətimiz sonsuzdur və sonsuz olacaqdır! Bülbül də bilməlidir, xalqımız da bilməlidir ki, bizim üçün əziz olan Qarabağ torpağı, Şuşa qalası işğaldan azad olacaq. Bülbül diyarı müstəqil Azərbaycanın çiçəklənən bir guşəsi olacaq və gələcək nəsillər məhz Qarabağda, Şuşada Bülbülün heykəlini qoyacaq. Ü.Hacıbəyovun heykəlini yenidən qoyacaq və Şuşa, Qarabağ Azərbaycanın gözəl guşəsi kimi Azərbaycanda yaşayacaqdır.

Heydər Əliyev və Polad Bülbüloğlunun telefon danışıqlarından fraqment Polad Bülbüloğlu mədəniyyət naziri idi. Dahi Bülbülün də yubileyi yaxınlaşırdı. Polad da utanırdı müəyyən tədbirlərdə aktivlik göstərməyə. Düşünürdü ki, deyərlər «atasıdır, ona görə belə canfəşanlıq edir» deyə susurdu. Məsələdən hali olan ölkə rəhbəri mədəniyyət nazirinə zəng edir:

- Sən bilirsən, Bülbülün yubileyi gəlir?
- Bəli!
- Bəs niyə fəayiyyət göstərmirsən? Niyə bizə bildiriş məktubu yazmırsan?
- Utanırdım...
- Sən kimsən? Sən nazirsən, mən bilirəm o sənin atandır, amma Bülbül bütün Azərbaycanın sərvətidir. Ona görə mən sənə böyük bir «töhmət» verirəm...





**Millət vəkili Rəfael Hüseynov:**

Heydər Əliyev Azərbaycanda musiqi təhsilinin inkişafına çox kömək elədi və bütün ölkədə musiqi məktəbləri yaranmağa başladı. Amma o Azərbaycanın üst qatda olan ziyalılarının, dövlət adamlarının da musiqi savadının, musiqi düşüncəsinin təkmilləşməsinə, mükəmməlləşməsinə çalışırdı. Simfonik musiqi gecələri təşkil etdi Azərbaycanda. Cümə günləri simfonik musiqi gecəsi keçiriləndə şəxsi nümunə göstərirdi. Həyat yoldaşı, unudulmaz Zərifə xanımla o konsertlərə gedib tamaşa edirdi və diqqətlə qulaq asırdı.

1998-ci ilin 22 iyulunda Böyük Britaniyada, Londonda «Viktoriya Albert» muzeyində Azərbaycanın ən möhtəşəm «Şeyx Səfi» xalçasının saxlanıldığı bu incəsənət ocağında ölkəmizin incəsənət ustalarının iştirakı ilə çox möhtəşəm bir konsert oldu. Heydər Əliyev o konsertdən sonar çıxış etdi. O çıxışında dedi:

- İngiltərə cavan bir neft ölkəsidir. Azərbaycan qədim bir neft ölkəsidir. Azərbaycanın çox qədim bir musiqisi vardır və mən çox sevinirəm ki, İngiltərə Azərbaycanın bu musiqisinə, mədəniyyətinə, incəsənətinə rəğbət bəsləyir. Bizim çox qədim musiqimiz var. Eyni zamanda çox gözəl müasir Avropa musiqimiz var. Yəni bunların hamısını qabardaraq musiqi sahəsində biz sizdən həm qədimik, müasir musiqidə də sizinlə yanaşı durmuşuq.

H.Əliyev Rastrapoviçi bir sənətkar kimi çox sevirdi, əslən azərbaycanlı olan sənətkarın Bakıda muzeyini yaratdı, Milli Musiqi Akademiyasında ustad dərslərini təşkil etdi, Filarmoniyada konsertlərini təşkil etdi.



## ÖZBƏKİSTANIN MƏŞHUR «YALLA» DÖVLƏT KAMERA-İNSTRUMENTAL ANSAMBLININ KONSERTİNDƏN SONRA YARADICI KOLLEKTİV İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

Konsertdən sonra prezident Heydər Əliyev səhnə arxasında musiqiçilərlə görüşdü və onları həmişəki kimi, yenə də gözəl çıxışları münasibətilə təbrik etdi. Prezident Heydər Əliyev dedi:

Sizin ansambl artıq çoxdan böyük şöhrətə malikdir və hesab edirəm ki, özbək xalqı, Özbəkistan qarşısında xidmətləriniz böyükdür. Bir çox illər ərzində siz özbək incəsənətini, musiqisini, mahnılarını bütün dünyada layiqincə təmsil etmisiniz. Sizi keçmiş Sovet İttifaqının bütün respublikalarında, o cümlədən Azərbaycanda həmişə sevmişlər, ancaq siz o illərdə də öz yaradıcılığınızla İttifaqın hüdudlarından kənara çıxır, bütün dünyada qastrollarda olurdunuz və böyük müvəffəqiyyət, böyük ad-san qazanmışdınız.

Görürsünüz ki, Azərbaycanda tamaşaçılar sizi çox yüksək qiymətləndirir, sevir və gözəl başa düşürlər. Belə münasibət təsadüfi deyil. Əvvəla, siz həmişə qiymətləndirilən yüksək sənəti bu gün yenə də təqdim etdiniz. İkincisi, sizin mahnılarınızda və musiqinizdə milli, özbəklərə xas xüsusiyyətlər, eyni zamanda ümumbəşəri xüsusiyyətlər var. Siz o illərdə də məhz bununla böyük müvəffəqiyyət qazanmışdınız ki, öz milli musiqinizi, milli mahnılarınızı ümumbəşəri musiqi və mahnılarla birləşdirməyə, onları dünyaya məharətlə təqdim etməyə müvəffəq olmusunuz. Siz yüksək dərəcəli ustalarsınız, keçmişdə gözəl oxuyurdunuz, bu gün də gözəl oxuyur, çıxiş edirsiniz.

Bakıya gəlməyinizə şadam. Buna şad olan tək mən deyiləm. Bir baxın - salon tamaşaçılarla doludur, onlar sizi necə təntənəli, səmimi və hərarətlə qarşıladılar. Mən çox şadam. Azərbaycan prezidentinin seçkiləri ərəfəsində Bakıya gəlib İdman sarayında bu hadisəyə həsr olunmuş konsertlə çıxış etdiyinizə görə təşəkkür edirəm. Mən bunu çox yüksək qiymətləndirirəm. Bunu Azərbaycanda da, xüsusən mənə səs vermiş seçicilər də qiymətləndirirlər. Bir sözlə, Azərbaycan prezidentinin seçkilərində siz də iştirak etdiniz. Çox sağ olun.

Siz və Özbəkistanm, Azərbaycanm incəsənət xadimləri bir çox on illər ərzində ölkələrimizin incəsənət xadimləri arasında dostluq yaratmışlar. Bu dostluq bizim zəmanəmizdə, ölkələrimiz müstəqil, suveren dövlətlər olduğu dövrdə çox böyük rol oynayır. Özbəkistanla Azərbaycanı çox şeylər bağlayır, tarixi köklərimiz birdir, dilimiz, musiqimiz, dinimiz, adətlərimiz, bütün ənənələrimiz də birdir. Biz eyni köklərə mənsubuq və onları, milli xüsusiyyətlərimizi, milli mənşəyimizi indi daha çox qiymətləndiririk. Bu, müstəqil, suveren dövlətlər kimi Özbəkistanın da, Azərbaycanın da yer üzündə möhkəm durması və mövcud olması üçün, onların müstəqillik və suverenliyini heç kimin poza bilməməsi üçün zəruridir.

Biz – dövlət xadimləri bunu edirik. Siz, Özbəkistan prezidenti, dostum İslam Kərimovla mənim aramda böyük dostluq olduğunu bilirsiniz. Ona böyük hörmətim var, onu yüksək qiymətləndirirəm, çoxdan Moskvada, Kremldə işlədiyim vaxtdan tanıyıram. Mən Özbəkistanı keçmişdən, 70-ci illərdən tanıyıram, onun faciəli illərinə,

özbək xalqının ədalətsizliyə məruz qaldığı illərinə bələdəm. O illərdə, xüsusən təxminən 1984-cü, 1985-ci illərdən başlayaraq sovet rəhbərliyinin ayrı-ayrı xadimləri tərəfindən özbək xalqına qarşı böyük ədalətsizlik edilmişdi. O illərdə İslam Kərimovun Özbəkistanı bu vəziyyətdən çıxarmaq vəzifəsini öz üzərinə götürməsi, özbək xalqına yapışdırmaq istədikləri hər şeyi ata bilməsi böyük hünərdir, böyük nailiyyətdir. Buna görə də həmin vaxtdan mən İslam Kərimovu çox sevdim, çünki o öz xalqının şərəf və ləyaqətini qorudu, onu müdafiə etdi. Onun indi, müstəqillik illərində də Özbəkistanın müstəqilliyini möhkəmlətmək üçün çox işlər gördüyünü bilirəm. Hərçənd bu, heç də asan deyildir. Sizin bölgənizdə də, bizim bölgəmizdə də, Qafqazda da problemlər olduqca çoxdur. Lakin yenilməzlik, mərdlik və milli müstəqillik bu çətinlikləri aradan qaldıra bilməyimiz üçün ən mühüm keyfiyyətlərdir.

Bu gün mən sizi dinləyərkən Özbəkistan, özbək xalqı, Daşkənd və Özbəkistandakı dostlarım gözlərim qarşısına gəldilər. Mənim ən başlıca dostum isə İslam Kərimovdur. Xalqmıza, Özbəkistanın bütün incəsənət xadimlərinə, dostum İslam Kərimova salam yetirin. Bir daha təbrik edirəm.

Fərrux Zakirov (ansamblın yaradıcısı və bədii rəhbəri, bəstəkar): Cənab prezident, səmimi sözlərə görə, habelə konsertə gəldiyinizə görə Sizə təşəkkür edirik.

Bu, təkcə bizim ansambl üçün deyil, özbək mədəniyyəti, millətimiz üçün də böyük şərəfdir, mədəniyyətimizə, millətimizə hörmətdir. Əgər seçkiqabağı kampaniyada öz iştirakımızla Sizin parlaq qələbənizə az-çox töhfə vermişiksə, biz xoşbəxtik. Qoy Allah Sizə, bizim prezidentimizə möhkəm cansağlığı versin və Siz xoşbəxtliyimiz naminə çox uzun ömür sürəsiniz.

Bu gün biz bir daha yəqin etdik ki, tez-tez görüşməliyik. Diqqətinizə görə çox sağ olun.



## XALÇAÇI RƏSSAM KAMİL ƏLİYEVİN 80 İLLİYİNDƏ

Kamil Əliyev haqqında ürəkdən danışıram, sevinə-sevinə danışıram. Çünki Kamil həmişə gözəl anekdotlar, məzəli əhvalatlar danışaraq ətrafdakıları güldürür. Hər dəfə Kamil görəndə gülürəm, fikirlərimi gülə-gülə bölüşürəm. Kamil hər zaman gülür, onun kədərli olduğunu heç zaman görməmişəm. Təsəvvür etmirəm ki, onun heç vaxt dərdi olmayıb. Var təbii ki... Ancaq onu biruzə verməyi sevmir. Yubiley ərəfəsində Kamilə dedim ki, böyük rəssamsan, böyük sənət ustasısan. Sən nə üçün yubiley edirsən? Bir dəfə yubiley etdin, düşdün xəstəxanaya, vəziyyətin də ağır. Birtəhər səni sağaldıb xəstəxanadan çıxartdıq. Özün bil, bir də xəstəxanaya düşsən, gəlib səni çıxartmayacağam. Gedəcəksən o yana. Kamil, vaxtında səni xəstəxanadan çıxartmasaydım, oxunan mühazirələr, bugünki çıxışlar orda söylənilocəkdi.

Bir gün rəssamlara mükafatlar vermişdim. Kamil mənə yaxınlaşıb nə üçün onu ordenlə təltif etmədiyimi soruşdu, məndən orden istədi. Dedim ki, ay Kamil axı sənin hələ 80 yaşın tamam olmayıb. Dedi ki, bəlkə öldüm, heç 80-ə çatmadım. Doğrusu, bir cür oldum, həyatdır də, hər şey ola bilər. Fatma xanıma tapşırdım ki, tez fərman hazırlasın. Ancaq Kamil məni aldatdı, ölmədi.

Kamil çox sədaqətli, sadə dostdur. Qayrıatam Əziz Əliyevi Mircəfər Bağırov tutduğu vəzifədən uzaqlaşdırandan sonra onu tanıyanların hamısı ondan üz çevirdilər, həmişə qonaqlarla dolu olan ev boş görünürdü. O zaman mərhumə həyat yoldaşım Zərifə xanımla evlənməmişdik,



ancaq gəzirdik. Mən onlara gedəndə Əziz Əliyevin çətin günlərində Kamili o evdə görürdüm. Kamil zarafatları, anekdotları ilə Əziz Əliyevin könlünü alırdı. Kamili mən ilk dəfə orada görmüşəm. Söhbətlərinə, anekdotlarına qulaq asanda, onu yoxlayanda gördüm ki, yaxşı oğlandı, pis deyil, yaxşı söhbətlər edir. Sonralar Əziz Əliyevin başına gələn hadisələr mənim də başıma gəldi. Kamil mənə də öz sədaqətliliyini göstərdi, ancaq Moskvaya dalımca gəlmədi. İndi burda oturubdu, professordu, nədi, bümirəm. O mənim üçün sadə, zəhmətkeş, sədaqətli bir insandır və mən bu keyfiyyətləri hər şeydən üstün sayıram.

**Milli Konservatoriyanın rektoru, xaiq artisti Siyavuş Kərimi:**

Biz indiyə kimi bəlkə də tam dərk edə bidmirik ki, kimi itirmişik. Azərbaycan deyəndə Heydər, Heydər deyəndə Azərbaycan təsəvvür etdiyimiz dahini, ulu öndəri itirmişik. İtkisi ilə barışa bilmədiyimiz, Azərbaycan musiqisinin, incəsənətinin bütün sahələrini dərindən bilən, analiz edən, unikal bilik, yaddaş sahibi Heydər Əliyev...

Mən də ulu öndər Heydər Əliyevlə dəfələrlə görüşüb musiqimizin inkişafı naminə görülən və görüləcək işlər barədə fikir mübadiləsi etmişik. Söhbət və fikir mübadilələrimizin nəticəsi olaraq ölkə rəhbərində Milli Konservatoriya yaratmaq barədə ideya baş qaldırmış və onun fərmanı ilə Milli Konservatoriya yaradılmış, potensial imkanlı elm və mədəniyyət xadimləri cəlb edilmiş və konservatoriya öz qapılarını milli musiqimizin vurğunlarının üzünə açmışdı. Mən Heydər Əliyevin xeyir-duası və müvafiq sərəncamı ilə milli təhsil ocağımıza rektor təyin edildim.

«Siyavuş bilirsən ki, mən simfonik musiqini çox sevirəm. F.Əmirovun simfonik musiqisini daha çox sevirəm, çünki, Fikrətdə millilik, vətənə bağlılıq, doğmalıq var. Onun musiqisində Azərbaycan daha əzəmətli görünür.» Bu sözlər mənim rektor kimi fəaliyyətimə sanki bir istiqamət verdi.

Polad Bülbüloğlu Mədəniyyət Naziri işlədiyi dövrdə atası Bülbülün yubileyini qeyd etməyə, döylət səviyyəsində keçirtməyə qorxurdu. Hadisədən xəbər tutan H.Əliyev Polad müəllimi yanına çağırıb deyir:

- Polad, elə bilirsən Bülbül təkcə sənin atandır? O, bütün Azərbaycanın fəxridir. Bülbülün yubileyi dövlət səviyyəsində qeyd edilməlidir, qurtardı. Tədbirlər planını hazırla!

**Bəstəkar, əməkdar incəsənət xadimi Həsənağa Qurbanov:**

- Heydər Əliyev bir şəxsiyyət kimi hər zaman məni düşündürmüş və yaradıcılığımda istiqamətverici qüvvə olmuşdur. Onunla görüşmək, söhbət etmək özü bir səadət idi. Mənə də həmin səadətli anları yaşamaq nəsib olub. Gülarə Əliyeva adına «Dan ulduzu» instrumental ansamblına böyük ümidlərlə baxırdı. Gülarə Əliyeva ruhuna sadiq qalmağımızı bizlərə tövsiyyə edirdi, ansamblı dəyərləndirirdi.

Xəstə olanda onu ziyarət etməyim lap ürəyindən olmuşdu. Mən bu addımla təkcə özümü deyil, bütün musiqi ictimaiyyətinin öz rəhbərinə sadiq olmasını, sonsuz sevgisini nümayiş etdirdim. Ruhu şad olsun!



**Xalq artisti Rauf Abdullayev:**

1996-cı ildə Ankara orkestri ilə işlədiyimə görə Türkiyədə keçirilən bütün dövlət tədbirlərində kolletivimiz müntəzəm iştirak edirdi. Tədbirə dəvət olunan qonaqlar arasında Heydər Əliyev cənabları da var idi. Dirijorluğumla keçən konsert proqramından sonra məni Bakıdan yaxşı tanıyan, yaradıcılığıma bələd olan ölkə başçısı mənimlə görüşdü, Türkiyədəki uğurlarıma sevindi, ötən illərə qayıtdıq.

H.Əliyev qeyd etdi ki, maestro, Ü.Hacıbəyov adına Dövlət Simfonik Orkestri çox bərbad gündədir, güclü rəhbərliyə ehtiyacı var. İstəyirəm ki, Bakıya qayıdasan, belə bir kollektivə rəhbərlik edəsən. Sən bizə Vətəndə çox lazımsan.

H.Əliyevin şəxsi dəvətini qəbul edib Bakıya qayıtdım və ulu öndərin fərmanı, istəyi və tövsiyyəsi ilə belə bir nüfuzlu kollektivə rəhbərlik etməyə başladım. O, orkestrin yaşaması və musiqiçilərin maddi durumunun yaxşılaşdırılması və onlarda sənətə daha böyük maraq yaratmaq məqsədi ilə maaşlarımızın artırılması üçün sərəncam imzaladı. Ona görə kollektivimiz hər zaman H.Əliyevi böyük sevgi, məhəbbətlə xatırlayır. «Mən bu orkestrə həmişə himayədar olmuşam və bundan sonra da himayədar kimi himayəmdə saxlayacağam » - deyən və vəd verən H.Əliyev sözünə və vədinə ömrünün son gününə qədər sadiq qaldı. Ruhu şad olsun!

**Xalq artisti Gülbacı İmanova**:

Dövlət Xor - Kapellası dövlət tədbirlərində öz yeri olan dövlət səviyyəli ünlü kollektivlərdən biridir. Kollektiv hər zaman ölkə rəhbəri H.Əliyevin diqqətində olmuş, kollektivə sözün əsl mənasında himayədarlıq etmişdi. Dövlət konsertlərinin birində H.Əliyev kapellanın üzvlərinə yaxınlaşdı, hər birisi ilə görüşdü, problemlərimizlə maraqlandı. H.Əliyev qeyd etdi ki, bilirəm maaşmız çox azdır, kapellanı saxlamaq da çox çətindir. Sizin maaşınızı mütləq qaldıracağam!

H.Əliyevin bu vədi bizi çox sevindirdi, ancaq müxtəlif səbəblər ucbatından fərman 2 ildən sonra imzalandı. Bu da necə oldu? Növbəti dövlət tədbirində iştirak edirdik və yenidən ölkə başçısı ilə görüşümüz oldu. Qadınlar bir cərgədə, kişilərsə bir cərgədə dayandılar. Mən dirijor geyimində kişilər dayanan tərəfdə durdum. H.Əliyev bütün xanım sənətçiləri öpdü, kişilərə isə əl verdi. Ən axırda mən dayanmışdım. Fikirləşdim, indi gəlib məni də öpəcək. Ancaq belə olmadı, mənə çatan kimi ölkə başçısı üzünü xanımlara çevirdi. Bir qədər danışdı və birdən dönüb mənə baxdı və özümdən biixtiyar dedim:

Yoldaş Prezident, mən dirijoramsa, deməli qadın deyiləm? Məndən başqa bütün xanımlarla öpüşdünüz. Niyə məni öpmədiniz?

Güldü, üzümdən öpdü, ünvanımıza xoş sözlər söylədi.

Maaşımızın artırılmamasından xəbərdar olan prezident məsul şəxslərə göstəriş verdi ki, xor kapellasının maaşının artırılması ilə bağlı sərəncam hazırlansın və imzalanmaq üçün ölkə başçısına təqdim edilsin. İki gündən sonra maaşımız artırıldı.

.. .Bəli, H.Əliyev hər şeyə fikir verirdi, qiymətdəndirirdi və qərarlar verirdi.

1994-cü ildə metrodakı terror Heydər Əliyevi çox sarsıtmışdı. Və biləndə ki, terrorun qurbanları arasında sənət adamları da var, o, əfsusluğunu belə ifadə etmişdi:

Çox əfsuslar olsun ki, terrorun qurbanları arasında pianoçu Rafiq Babayev də var.

Heydər Əliyev R.Babayevi, T.Quliyevi çox sevirdi və onlara böyük ümüdlər bəsləyirdi...

Bu gün milli konservatoriyamızın səmasında Heydər Əliyev ruhu bərq vurur, uğurlarımıza sevinir, memarı olduğu təhsil ocağının nümunəvi milli təhsil ocağı kimi zirvələr fəth edəcəyinə əmin olur. Çünki Heydər Əliyev adı çəkilən yerdə uğur, qələbə özü sənə tərəf gəlir.

## XULİO İQLESİASI QƏBUL EDƏRKƏN

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1999-cu il iyulun 25-də Prezident sarayında dünya estradasının, incəsənət aləminin ulduzlarından biri, məşhur İspaniya müğənnisi Xulio İqlesiası qəbul etdi.

Görkəmli müğənnini səmimiyyətlə salamlayan dövlətimizin başçısı Heydər Əliyev dedi:

- Hörmətli cənab Xulio İqlesias!

Hörmətli qonaqlar!

Dünyanın insanlarının çoxu Sizi sənətinizə görə tanıyır. Ancaq Sizin bir şəxsiyyət kimi bu qədər çoxşaxəli bir insan olduğunuzu mən burada öz gözlərimlə gördüm.

Siz dünən mənə dediniz ki, 32 ildir oxuyursunuz. 32 ildir böyük zəhmətlər çəkirsiniz. Mən sizi Azərbaycanda bir daha səmimi qəlbdən salamlayıram. Mən çox məmnunam ki, Siz - dünyanın ən böyük ulduzlarından biri, nəhayət, Azərbaycana da gəlmisiniz və burada Azərbaycanın musiqisevərləri ilə görüşmüsünüz.

Allah Sizə çox gözəl səs veribdir və çox gözəl istedad veribdir. Gözəl səsinizlə, gözəl istedadınızla Siz həqiqətən, dünyanın ən məşhur, ən sevimli, ən gözəl müğənnilərindən biri olmusunuz. Bunu dünyanın hər yerində bilirlər. O cümlədən Azərbaycanda da bilirlər və Sizin sənətinizi çox yüksək qiymətlərıdirirlər. Ona görə də Sizin Azərbaycana ziyarətiniz, Azərbaycan musiqisevərlərinə sevinc gətirməyiniz və Azərbaycanla tanış olmağınız bizim üçün çox əhəmiyyətlidir.

Mən xüsusən onu qeyd etmək istəyirəm ki, Siz ölkəmizə gələn kimi ilk növbədə, Azərbaycanın ağır vəziyyətdə yaşayan insanları ilə, yəni Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində doğma yurdlarından zorla çıxarılıb indi çadırlarda yaşayan insanlarla görüşə getdiniz. Bu onu göstərir ki, Siz nəinki böyük sənətkar, müğənni, musiqiçi, eyni zamanda böyük ictimai xadimsiniz və dünyada, hər bir ölkədə olan ictimai, siyasi, sosial məsələlər də Sizi maraqlandırır. Bu, məni çox sevindirir. Mən şəxsən Sizi neçə illərdir ki, tanıyıram. Eləcə də, insanları ilə, musiqi, teatr sənətkarları ilə həmişə çox maraqlanmışam və onların çoxunun həyatı ilə tanışam. Yaxşı bilirəm ki, səhnədə öz sənətini axşam bir, iki, üç saat nümayiş etdirən sənətkar, demək olar ki, bir gecədə on günlük iş görür. İnsanların çoxu teatra, konsertə gəlir, müğənnini dinləyir, zövq alır. Elə bilir ki, asan bir şeydir: gəldi, səhnəyə çıxdı, oxudu və bununla da iş qurtardı. Ancaq şəxsən mən bilirəm, - bir dəfə səhnəyə çıxmaq üçün ən böyük artist, ən böyük müğənni, ən böyük sənətkar nə qədər hazırlaşır, nə qədər gərgin saatlar keçirir və öz sənətini nümayiş etdirir.

Ona görə də, mənim fıkrimcə, Sizin müğənniliyinizin 32 illik tarixini ikiyə, üçə vurmaq lazımdır. Yəni, ola bilər 64 il olsun, yaxud daha çox olsun.

Bir şey də çox qəribədir və çox da sevindiricidir ki, Siz 32 il oxuyaraq, - özü də məlumdur ki, Siz o müğənnilərdən deyilsiniz ki, ayda bir dəfə, iki dəfə oxuyasınız. Məsələn, opera müğənniləri vardır, ayda onların iki - üç çıxışı olur və ondan sonra istirahət edirlər. Amma Siz daim oxuyursunuz, - 32 il oxuyaraq səsinizi bu qədər gözəl saxlamısınız və səhhətinizi bu qədər gözəl saxlamısınız. Mən buna görə Sizə çox heyranam və Sizi həyatınız boyu əldə etdiyiniz nailiyyətlər münasibətilə ürəkdən təbrik edirəm.

Sizin dünən Azərbaycan tamaşaçılarına verdiyiniz konsert ən yüksək qiymətə layiqdir. Mən salonda oturmuşdum, fikirləşirdim ki, - Siz iki saat yarım səhnədən çıxmadınız, iki saat yarım daim oxudunuz. Gör bu nə qədər böyük əməkdir! Özü də əvvəl oxumağa necə başladınız, sonda da elə bitirdiniz. Siz özünüz gördünüz ki, salondakılar Sizi necə hərarətlə qarşılayırdılar, Sizi necə sevinclə dinləyirdilər.

Bəzən bizim böyük konsertlərimiz olur - bir saat otuz dəqiqə, bir saat iyirmi dəqiqə. Orada müxtəlif nömrələr göstərirlər. Amma bir saat iyirmi dəqiqədən sonra adamı yorur. Sizi isə iki saat yarım dinləyəndən sonra mən şəxsən yorulmadım. Əksinə, daha da ruhlandım, daha da çox enerji aldım. Güman edirəm, salondakıların hamısı belə idi.

Sizin konsertiniz qurtarandan sonra biz dərhal görüşdük. Mən gördüm ki, Siz bir az yorulmusunuz. Ancaq Siz gördünüz ki, mən yorulmamışam. Nə üçün? Çünki sizin musiqiniz gözəl ruh veribdir. Bunlara görə Sizə təşəkkür edirəm və Sizin dünənki çox gözəl konsertinizi, çıxışınızı ürəkdən təbrik edirəm.

Mən məmnunam ki, Siz bugünkü Azərbaycanı, Bakını da müəyyən qədər görə biləcəksiniz, ya görürsünüz. Biz öz vətənimizi çox sevirik. Hesab edirik ki, Bakı dünyanın ən gözəl şəhərlərindən biridir və xüsusən indi, Azərbaycan dövlət müstəqilliyi əldə edəndən sonra, azad, sərbəst olandan sonra biz özümüzün sahibiyik. Belə olan halda, əlbəttə ki, bizdə indi bütün iqtisadi, siyasi sistem dəyişildiyi halda Bakı çox yaxşı inkişaf edir.

Siz dünən doğru buyurdunuz ki, Azərbaycanın bir müstəqil ölkə kimi çox böyük gələcəyi vardır. Bu, həqiqətdir. Biz bunu bilirik. Amma Sizin də bu ifadəni işlətməyiniz Sizin nə qədər dərin mənaya malik, müdrik adam olduğunuzu göstərir. Mən çox arzu edərdim ki, Siz Azərbaycanı daha da yaxşı tanıyasınız. Dünən səhnədən Azərbaycan xalqı haqqında dəyərli sözlər dediniz və Sizə bildirə bilərəm ki, Sizin o sözləriniz də həqiqətə uyğundur.

Mən Sizi bir də təbrik edirəm və bir daha Sizinlə görüşüb tanış olmağımdan sevinc hissi duyuram.

Prezident Heydər Əliyevə dərin minnətdarlığını bildirən Xulio İqlesias dedi: - Çox sağ olun, cənab Prezident. Mənim Sizə deyiləcək bir neçə sözüm vardır. Həmişə mənim ürəyimdə və beynimdə olubdur ki, bu ölkəyə səfər edim. Mən bundan sonra öz həmkarlarıma, biznesdə olan dostlarımın hamısına deyəcəyəm ki, Azərbaycana səfər etmək çox maraqlı və çox gözəldir. Azərbaycanın həm xalqı, həm də Prezidenti çox gözəldirlər.

Siyasətçi olmayıb müğənni olmağım heç də o demək deyil ki, mən insanlar barədə düşünmürəm. Əlbəttə ki, mən qaçqınların düşdüyü vəziyyəti, onların əzab-əziyyətlərini, onların günbəgün yaşadığı çətinlikləri dərindən duyuram. Ümidimi itirmirəm ki, onlar çox tezliklə evlərinə qayıdacaqlar. Mən uşaqların sifətlərinə diqqətlə baxdım, hamının sifətini gördüm. Onların sifətlərində yalnız bir şey yazılmışdı: onlar o ümiddədirlər ki, tezliklə evlərinə qayıdacaqlar. Hara gedirəmsə gedim, bu haqda hamıya deyəcəyəm. Çünki bu ölkədə oldum, bu ölkəni sevdim, bu ölkənin xalqını bəyəndim. Çox şadam ki, buraya gəldim. Çox şadam ki, cənab Prezident, Sizinlə tanış oldum.

Cənab Prezident, Sizə, bu ölkəyə, bu ölkənin qonaqpərvərliyinə minnətdaram. Sizin gözəl, hər şeyi görə biləcək gözləriniz vardır.

**Heydər Əliyev**: Siz bunu dünən də mənə dərhal dediniz, Mən özüm heç o qədər də təsəvvür edə bilmirəm ki, mənim Siz dediyiniz kimi gözlərim vardır. Gözlərim itidir, ancaq gözəlliyini deyə bilmərəm.

**Xulio İqlesias**: Cənab Prezident, bilirsinizmi, əgər Prezidentin gözləri gözəl olmasa, onun üçün çox çətin olar. İnsanlar həmişə insanı gözündən oxuyurlar.

Cənab Prezident, mən də Sizi təbrik edirəm. Çox sağ olun ki, məni dəvət etdiniz. Bütün adamlara nazirlərə, mənim konsertlərimə gələn şəxslərin hamısına ayrı-ayrılıqda minnətdarlığımı bildirmək istəyirəm. Həqiqətən, Azərbaycana valeh oldum və insanların hamısını sevdim, onların gözlərini bəyəndim. Cənab Prezident, ilk növbədə Sizin gözlərinizi bəyəndim.

**Heydər Əliyev**: Çox sağ olun, təşəkkür edirəm.






**Respublikanın xalq artisti Afaq Bəşirqızı:**

Dövlət konsertlərinin birində Heydər Əliyev sənət adamları ilə görüşərkən dünyasını dəyişən sənətkarlar haqqında fikir və düşüncələrini bu gün səhnədə fəaliyyət göstərən sənət adamları ilə bölüşdü. Atam Bəşir Səfəroğlu haqqında danışarkən qeyd etdi ki, Bəşir Səfəroğlu Azərbaycan Musiqili Komediya janrının əbədiyaşar sənət sahiblərindən biridir. Bu janr haqqında söhbət açılanda gözlərimizin önündə canlanan üç-dörd sənətkar arasında Bəşir Səfəroğlunun öz yeri var. Sevindirici haldır ki, Afaq xanım, siz bu gün atanızın sənətini ona layiq formada yaşadıb tamaşaçılara çatdırırsınız. Sizin öz yolunuz var və heç kimi təkrar və təqlid etmirsiniz, siz yaratdığınız məktəblə gedib sənət incilərimizi gənc nəslə təqdim edirsiniz. Sizin gülüşünüz fərqli bir gülüşdür. Bu gülüş tamaşaçını diksindirmir, əksinə zövq verir. Mən şəxsən dəfələrlə sizin iştirakınızla gedən tamaşalara baxmışam, «Bəxt üzüyü»nə baxanda isə gülüşümü saxlaya bilmirəm, hətta balaca Heydər də ürəkdən gülür. Afaq xanımın gülüşündəki təbiilik onun həyatda təbii olmasından irəli gəlir və həmin təbiilik onu müşayiət edir.

## MƏŞHUR PİANOÇU BELLA DAVİDOVİÇİN KONSERTİ

Konsertdən sonra Azərbaycan dövlətinin başçısı Heydər Əliyev səhnə arxasına keçərək, Bella Davidoviçi və konsertin digər iştirakçılarını gözəl ifa münasibətilə səmimi təbrik etdi. Prezident Heydər Əliyev dedi:

Sizi uğurlu çıxışınız münasibətilə təbrik edirəm. Oğlunuz da əla çıxış etdi. Siz Azərbaycanda çox məşhur şəxsiyyətsiniz. Azərbaycandan çoxdan çıxıb getsəniz də sizi unutmayıblar, hey sizi xatırlayırlar. Bununla bərabər fəxr edirlər ki, bizim bakılı dünya şöhrətli pianoçudur. Bu gün səhnədə çıxış edərkən bakılı olduğunuzu söylədiniz və tamaşaçılar bunu hərarətlə qarşıladılar. Bilirsinizmi, bu gün mən sizi məmnunluqla dinlədim, konsert qurtardıqdan sonra isə siz cəmi bir neçə kəlmə dediniz, amma Bakı haqqında deyilən bu sözlər çox xoş idi. Həqiqətən gözəl şəhərdir, bu şəhər nə qədər görkəmli adamlar yetişdirmişdir. Bu adamlar bütün dünyada məşhurdurlar. Alimlər, musiqiçilər, rəssamlar, bəstəkarlar. Nə qədər belə adamlar, nə qədər belə nəsillər olubdur! Bir sözlə, mən bu barədə düşünərkən fəxr edirdim ki, şəhərimiz, ölkəmizin paytaxtı, artıq müstəqil dövlətimizin paytaxtı necə misilsiz şəhərdir, belə zəngin tarixə və zəngin ənənələrə malikdir.

Burada musiqi ənənələri olmasaydı, belə istedadlar yetişməzdi. Burada musiqi mühiti, şəraiti, atmosferi, ziyalı atmosferi belə yüksək intellekt atmosferi olubdur. Burada belə adamlar da, ailələr də olubdur. Bu ailələr, onlar burada doğulmuş 70 yaşlıların nəslidir. Onlar burada anadan olmuş, 20-ci, 30-cu, 40-cı illərdə boya-başa çatmışlar.

Bella Davidoviç xoş sözlərə görə prezident Heydər Əliyevə təşəkkürünü bildirərək, keçmişi səmimiyyətlə xatırladı, öz ailəsindən, əsl bakılılar olmuş valideynlərindən danışdı. İftixarla qeyd etdi ki, konsertmeyster olmuş babası 1938-ci ildə Moskvada Azərbaycan incəsənəti ongünlüyündə iştiraka görə ordenə layiq görülmüşdür. "Koroğlu" operasının ilk tamaşası da orada olmuşdur.

Dmitri Sitkovetski sevinclə söylədi ki, bir neçə il əvvəl Türkiyədə, İstanbulda qastrolda olarkən məşhur salonda Azərbaycan prezidenti Heydər Əliyevin portretini gördü.

Prezident Heydər Əliyev sözünə davam edərək dedi:

- Bunun sizin üçün əhəmiyyəti var ki, çox böyük fasilədən sonra da xalq sizi unutmayıbdır. Mən fasilədə salona göz gəzdirdim. Salondakılar əsasən musiqiçilər, incəsənət aləminin adamları, Azərbaycan ziyalılarının nümayəndələri, görkəmli incəsənət xadimləri idilər. Odur ki, bu, sizin üçün də, bakılılar üçün də hadisədir.

İndi Bakının çox yaxşı vaxtıdır. Sentyabr Azərbaycan üçün yaxşı aydır. Biz burada iki gün, sentyabrın 7-8-də böyük beynəlxalq konfrans keçirdik. Bu işlərdən yalnız dünən başım açıldı, hava həqiqətən xoş, mülayimdir, bizdə deyildiyi kimi, indi ilin ən yaxşı çağıdır. Biz konfransı çox uğurlu keçirdik, çoxlu qonaq vardı - onlar 32 ölkədən gəlmişdilər. Onların arasında prezidentlər, nazirlər, 13 beynəlxalq təşkilatın nümayəndələri var idi. Böyük Tarixi İpək yolunu bərpa edirik. Bu İpək yolu hələ eramızdan əvvəl mövcud olmuş və orta əsrlərdə bir çox coğrafi kəşflərlə əlaqədar yox olub getmişdir, indi isə onu bərpa edirik. O, Asiya ilə Avropanı birləşdirmək üçün çox

gərəkli, zəruri olmuşdur.

Təsəvvür edirsinizmi, Birləşmiş Ştatlardan tutmuş Yaponiyayadək nümayəndələr vardı - ABŞ, bütün Avropa və Asiya. Təbii ki, Yaponiya, Çin, Monqolustan, Mərkəzi Asiyanın bütün ölkələri - Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan, Qafqaz - Azərbaycan, Gürcüstan, Ermənistan, İran, Rusiya, sonra - Türkiyə və Avropa ölkələri, ta İspaniyaya qədər, demək olar, bütün Avropa ölkələri bu konfransda iştirak edirdilər. Biz nəqliyyat dəhlizini bax belə çəkirik. Bir sözlə hava bizə onda da kömək etmişdir, indi də kömək edir.

Prezident Heydər Əliyev simfonik orkestrin əla çıxış etdiyi barədə ümumi rəylə razılaşaraq dedi: Musiqiçilər 1989-cu ildən bəri böhran dövrü keçirmişlər. Lakin sonra mən simfonik orkestrə kömək haqqında qərar qəbul etdim. İndi onlar yeni həyata başlamışlar. Biz onlara bundan sonra da kömək edəcəyik.

Dövlətimizin başçısı Heydər Əliyev konsertin iştirakçılarına üz tutaraq dedi: Bu gün xoşuma gəldiniz, siz çox yaxşı görünürdünüz. Hətta heyran qaldım ki, siz çox mürəkkəb əsərləri necə rəvan və səlis ifa edirdiniz.

Azərbaycan prezidenti Heydər Əliyev Bella Davidoviçə və konsertin digər iştirakçılarına yaradıcılıqda yeni uğurlar arzuladı.



## SSRİ XALQ ARTİSTİ ŞÖVKƏT MƏMMƏDOVANIN 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ YUBİLEY GECƏSİNDƏ

Müvəffəqiyyətlə keçən yubiley gecəsi başa çatdıqdan sonra prezident Heydər Əliyev səhnə arxasında Azərbaycan incəsənət ustaları ilə və yubiley gecəsində iştirak etmək üçün xarici ölkələrdən gəlmiş görkəmli sənətkarlarla görüşüb səmimi söhbət etdi.

Dövlətimizin başçısı respublikamızın incəsənət ustalarına və xarici qonaqlara müraciətlə dedi:

- Bu gün yaxşı gecə, yaxşı konsert oldu. Mən çox şadam, sizə təşəkkür edirəm. Bu gün burada olmaq çox xoş idi. Əvvəla, ona görə ki, biz Şövkət Məmmədovanın 100 illiyini qeyd edirik. Son dərəcə gözəl qadın idi. Bəlkə də bir çoxlarmız onu görməmisiniz, yaxşı tanımamısınız. Mən onun fəaliyyətinin bütün illərini izləmişəm. Respublikanın rəhbəri işlədiyim dövrdə isə onunla çox sıx, mehriban münasibətlərimiz olmuşdur.

Onun gözəl müğənni, çox böyük xidmətləri olması barədə burada artıq deyildi.O, son dərəcə təvazökar, ən yüksək mədəniyyətə malik insan idi. Xatirimdədir, biz onun 80 illiyini qeyd etmişdik və bizim təqdimatımızla o, Sovetər İttifaqının o zamankı ən yüksək ordeni sayılan Lenin ordeni ilə təltif olunmuşdu. Şövkət xanımın böyük nufuzu, hörməti vardı. Şübhəsiz ki, o, son dərəcə parlaq şəxsiyyət kimi Azəbaycan incəsənətinin, mədəyyətinin tarixində əbədi yaşayacaqdır. Hesab edirəm ki, tamamilə haqlı olaraq onu bu gün yad etmişik. Özü də təkcə yox. Xatirimdədir, Şövkət Məmmədovanın 100 illiyinin keçirilməsi haqqında sərəncam imzaladığım vaxtdan ictimaiyyətimiz bu yubileyi qeyd edir, onun yaradıcılığına həsr edilmiş məqalələr yazılmış, televiziyamızda verilişlər getmişdir. Bu gün yaxşı bir gecədir.

Çox sevindiricidir ki, bu gün burada Rusiya, keçmiş Sovet İttifaqı mədəniyyətinin ulduzları - İrina Konstantinovna, Mariya Lukyanovna və başqaları iştirak edirlər. Onlar çox məşhur insanlardır. Ancaq Şövkət Məmmədova oxuyanda onlar hələ təzəcə başlayırdılar.

SSRİ xalq artisti **Mariya Biyeşu**: Mən onu xatırlayıram. 1968-ci ildə burada Moldova mədəniyyəti ongünlüyü keçirilirdi. O, mənə yaxınlaşdı və çox yaxşı sözlər dedi. Mən bütün kitablarımda Şövkət Məmmədovanın sözlərini yazmışam.

**Heydər Əliyev**: Şübhəsiz, xalqımız fəxr edir ki, bizim belə gözəl müğənnimiz, böyük mədəniyyət xadimimiz olmuşdur. Çünki bilirsiniz ki, Üzeyir Hacıbəyov, "Arşın mal alan" operettasını və digər əsərlərini yaradanda bəzi qadın rollarını kişilər ifa edirdilər. Çünki azərbaycanlı qadının səhnəyə çıxması mümkün deyildi. Belə bir vaxtda ilk azərbaycanlı qadının professional vokal sənəti ilə məşğul olması, təkcə Azərbaycan səhnəsində deyil, həm də Avropa səhnəsində çıxış etməsi, İtaliyada, Fransada təhsil alması bizim tariximizdə nadir hadisədir.

İndi bu, adi haldır. Bizim gənc müğənnilərimiz İtaliyada, Fransada təhsil alırlar, Moskvada, Avropada çoxdan təhsil alırlar. Bu, adi hala çevrilmişdir. Amma o vaxt bu, son dərəcə nadir hadisə idi. Biz şadıq, xoşbəxtik ki, Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, sonralar Bülbül, Şövkət Məmmədova kimi insanlar olmuşdur. O vaxtkı mətbuatdan xatirimdədir, Üzeyir Hacıbəyov, Bülbül, Şövkət Məmmədova 1938-ci ildə birinci olaraq SSRİ xalq artisti adını aldılar. Həmin adı dörd nəfər almışdı, dördüncüsü xatirimdə deyildir. Bu olduqca yüksək qiymət idi.

SSRİ xalq artisti **İrina Arxipova**: Heydər Əliyeviç, elə etmək olarmı ki, indi çox gözəl oxuyan müğənnibr təkcə burada yox, həm də başqa səhnələrdə, elə keçmiş Sovet İttifaqının səhnələrində də oxusunlar?

**Heydər Əliyev**: Şübhəsiz, mən hesab edirəm ki, onlar oxumalıdırlar. Çünki onlar

istənilən səhnədə oxuya bilərlər. Siz bu gün dinlədiniz, necə də gözəl səslərdir! Mən çox şadam ki, incəsənətimiz istedadlarımızı getdikcə daha çox üzə çıxarır. Yeni adlar, yeni ulduzlar meydana çıxır və biz bu gün incəsənətimizin məhz belə gözəl nümunələrinin şahidi olduq.

Çox sağ olun, çox böyük iş gördünüz ki, Şövkət Məmmədova kimi böyük sənətkarınızın, şəxsiyyətimizin yubileyini bu qədər gözəl konsertlə təqdim etdiniz. Bu, sizin ən böyük xidmətinizdir. Bizim borcumuz bizdən öncə, keçmiş zamanlarda yaşayıb-yaratmış insanlara layiqli qiymət vermək, onları unutmamaq, yad etməkdir. Nəinki yad etmək, onları gələcək nəsillərə də çatdırmaqdır. Bugünkü təntənəli mərasim, sizin təqdim etdiyiniz konsert, gözəl bir proqram Şövkət Məmmədovanın xatirəsinə olan böyük hörmətin təzahürüdür. Mən sizə təşəkkür edirəm. Mən də məhz buna görə bu gün buraya gəlmişəm, Şövkət Məmmədovanın xatirəsini yad edərək sizinlə birlikdə bu təntənəli mərasimdəyəm. Sağ olun. Hamınıza cansağlığı, xoşbəxtlik arzu edirəm.

Sonra mədəniyyət naziri Polad Bülbüloğlu yubiley gecəsində Şövkət Məmmədovanın obrazını yaradan aktrisa Bəsti Cəfərovanı dövlətimizin başçısına təqdim etdi.

**HEYDƏR ƏLİYEV**: Bəli, ona oxşayır. Səhnədə asılmış şəkil də yaxşıdır, mənim çox xoşuma gəldi. Xatirimdədir, o, çox gözəl idi, sonralar da təravətini saxlamışdı.

**POLAD BÜLBÜLOĞLU**: Şəkli bizim rəssam Tahir Tahirov çəkmişdir.

**HEYDƏR ƏLİYEV**: Afərin, çox yaxşıdır. Sağ olun, siz həmişə hər işi yaxşı görürsünüz. Təşəkkür edirəm.

**MARİYA BİYEŞU**: Cənab prezident, incəsənəti bu cür dəstəkləməyiniz, həyatdan gedənlərin xatirəsinə belə ehtiram göstərilməsi, onların təntənəli surətdə yad edilməsi bizi heyran qoyur. Mən bilirəm ki, Siz opera və balet teatrına çox kömək edirsiniz, ilk müsabiqə təşkil etmisiniz. Sizə eşq olsıun. Allah Sizə cansağlığı versin, ölkənizə, xalqınıza xoşbəxtlik, əmin-amanlıq qismət eləsin.

**HEYDƏR ƏLİYEV**: Sağ olun. Bilirsiniz, bu, bizim borcumuzdur. Mən dedim, Şövkət Məmmədova çox təvazökar insan idi. Deyəsən, qohum-əqrəbası da çox deyildir ki, onun adını, xatirəsini yuksək tutsunlar. Amma o, öz həyatı, yaradıcılığı ilə özünə elə bir abidə yaradıb ki, onu unutmaq olmaz. Mən isə xalqımı, mədəniyyətimizi, incəsənətimizi, ölkəmi çox sevən bir insan kimi hesab edirəm ki, hər bir yeni nəslin keçmişdə nələr olduğunu daha yaxşı bilməsi üçün lazım olanları etməyə bilmirəm. Bu, bizim borcumuz və vəzifəmizdir.

Mərhum sənətkarın qızı AİDA MƏMMƏDOVA anasının xatirəsini əziz tutduğuna və Şövkət Məmmədovanın yardıcılığına yüksək qiymət verdiyinə görə respublikamızın prezidenti Heydər Əliyevə dərin təşəkkürünü bildirərək dedi:

- Əziz prezident, Sizə minnətdaram, deməyə söz tapa bilmirəm. Siz təkcə Şövkət xanımı deyil, heç kimi diqqətinizdən kənarda saxlamırsınız - sağlığında da, həyatdan gedəndən sonrada. Mən bu gün sizdən, hamıdan sonsuz səmimiyyət və qayğı gördüm. Çox şey demək istəyirdim, ancaq həyəcanlıyam, danışa bilmərəm. Çox sağ olun, allah sizə cansağlığı versin.

**HEYDƏR ƏLİYEV**: Sağ olun, siz həmişə bizim dəstəyimizə, köməyimizə ümid bəsləyə bilərsiniz, utanmayın. Bir də təkrar edirəm Şövkət xanım xalqımız üçün o qədər işlər görmüşdür ki, biz onun xatirəsi qarşısında borcluyuq. Sağ olun, gecəniz xeyrə qalsın. Gələn görüşlərədək.

# RESPUBLİKA SARAYINDA NEFTÇİLƏR GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM

Müvəffəqiyyətlə keçən konsert başa çatdıqdan sonra prezident **Heydər Əliyev** səhnə arxasına gələrək konsertin iştirakçıları ilə görüşdü, onları uğurlu çıxışlarına görə təbrik edərək dedi:

Axşamınız xeyir olsun. Bu gün "Neftçilər günü"nə layiq konsert verdiniz. Neftçilər bizim cəmiyyətimizin, millətimizin ən qabaqcıl insanlarıdır. Buna gorə də siz onlara layiq konsert təqdim etdiniz. Ancaq mən indi buraya gələrək fikirləşirəm ki, təkcə mən bir saat 15 dəqiqə nitq söyləmişəm, siz hamınız bir yerdə bir saat çıxış etmisiniz. Belə də ədalətsizlik olar? Mən zarafat edirəm.

Bu gün çox yaxşı konsert nümayiş etdirdiniz. Azərbaycan mədəniyyətinin nə qədər yüksək səviyyədə olduğunu yenə də göstərdiniz. Mən sizə təşəkkür edirəm və arzulayıram ki, bizim incəsənətimiz daha da inkişaf etsin.

Bilirsiniz, dünyada indi musiqi, mahnı, bir az dəyişibdir. Məsələn, bizim Poladın özü də bu dəyişiklikləri edənlərdən biridir. Amma mən bu gün qulaq asdım. Məsələn, Bülbülün səsi, onun neftçi Qurbana aid oxuduğu mahnı, yaxud o vaxt bunların hər biri insanları çox yüksək səviyyədə, incəsənətə məhəbbət hissi ilə tərbiyə ediblər. Belə insanlar, keçmişdə bizim incəsənətimizi inkişaf etdirən insanlar, təbiidir ki, ölməzdirlər. Bu gün də çox gözəl nəsil yetişir və yetişibdir. Bunların çoxu da, demək olar ki, orta nəsildir. Azərbaycanın özünəməxsus musiqisi, incəsənəti yaşamalıdır.

**Polad Bülbüloğlu** (Mədəniyyət naziri): Cənab prezident, çalışırıq saxlayaq.

**Heydər Əliyev**: Həqiqi incəsənət budur. İnsanlara zövq verən sənət budur. Yoxsa, o qədər qışqırırlar başa düşmürsən, nə deyirlər, neyniyirlər. İndi bu dəb olubdur. Oradan bura, buradan oraya atlanıb-düşürlər. Amma nə oxuyur başa düşülmür. Sən başa düşürsən?

**Polad Bülbüloğlu**: Yox, mən də başa düşmürəm.

**Heydər Əliyev**: Axı sən də hoppanırdm.

**Polad Bülbüloğlu**: Cənab prezident mənim hoppandığım bir az ayrı idi.

**Heydər Əliyev**: Hər halda Azərbaycan musiqisi, incəsənəti çox gözəldir. Ona görə yox ki, mən azərbaycanlıyam, öz millətimin incəsənətini, musiqisini, mahnısını sevirəm. Mən obyektiv insan kimi, həm qərb musiqisinə, həm də başqa xalqların musiqisinə, incəsənətinə, rəqsinə böyük hörmət və rəğbət bəsləyən insan kimi deyirəm ki, bizim Azərbaycanın qədim zamanlardan indiyə qədər formalaşmış incəsənəti, musiqisi çox dəyərlidir.

Burada danışarkən neftçilərin tarixindən dedim. Amma o vaxt yadımdadır, neftçi Qurban haqqında mahnı - hansı ki, bu gün Bülbülün ifasında səslənirdi - insanlarda neftə, Neft Daşlarına nə qədər həvəs yaradırdı. Yaxud, "Azərbaycan" mahnısı, başqa mahnılar. Bilirsiniz, indiki musiqidə söz demək yoxdur, qışqırmaqdır. Əsas ritmdir, hoppanıb-düşməkdir. Biz də həm teatr sənəti, söz sənəti, şeir sənəti, həm rəqs sənəti, həm də mahnı sənəti var və hərəsinin də özünəməxsus gözəlliyi var, musiqisi də təbiidir ki, çox gözəldir.

Məsələn, Xuraman xanım adətən klassik əsərləri ifa edir. Amma bu gün Tofiq Quliyevin Bakı haqqında mahnısını ifa etdi.

Sizin çoxunuz onları görməmisiniz, eşitmisiniz. Mənim gəncliyim o vaxt keçibdir. Ona görə o mahnılar mənim üçün çox əzizdir. Məsələn, rəhmətlik Tofiq Quliyev çox gözəl mahnılar bəstələyirdi. Çox gözəl. O vaxt Azərbaycanda gözəl, insanın ürəyinə yatan, eyni zamanda, müasir mahnı yazanlar Tofiq Quliyev idi, Rauf Hacıyev idi və başqaları idi. Mən bu gün heç kəsi bir-birinə qarşı qoymaq istəmirəm. Ancaq indi hamışının adını deyə bilmərəm, bu gün bunlar səsləndi, ona görə də bunları deyirəm.

Çox yaxşı ki, həm klassik, həm də müasir mahnılar oxuyursan. Sizin rəqsiniz də həmişə gözəldir. Sizin ansamblın 30 illiyi ilə əlaqədar fərman vermişəm. Nə vaxt yubiley edəcəksiniz?

**Polad Bülbüloğlu**: Cənab prezident, vaxtını Sizinlə razılaşdıracağıq.

**Heydər Əliyev:** Biz incəsənət ustalarının müxtəlif təbəqələrinin maaşlarını artırdıq. İndi simfonik orkestr gör necə yaxşı vəziyyətdədir. Sonra xor kapellası, balet və s. hamısını artırmışdım. İndi Dövlət Rəqs Ansamblının 30 illiyidir. Mən onun qeyd olunması barədə fərman vermişəm. Sən bax, 3-4 gün ərzində mənə de. Çünki maaşlarını artırmasam, bunlar yubileyi qeyd etməyəcəklər.

**Polad Bülbüloğlu**: Cənab prezident, elə onu gözləyirlər.

**Heydər Əliyev**: Məleykə xanım, sizin maaşınız neçədir, çatır, yoxsa yox? Artıracağıq. Bilirsiniz, biz gərək bunları öz imkanlarımıza görə edək. Amma görürsünüz, imkanlarımız da artır, qısa bir müddətdə, son 3 ildə bu işlərdə nə qədər irəliləmişik.

Çox sağ olun. Çox gözəlsiniz, qəşəngsiniz, yaxşı oxuyursunuz, yaxşı şeir söyləyirsiniz, yaxşı oynayırsınız. Sağ olun.











